


Bismillahir Rəhmanir Rəhim

قَالَ رَسُولُ اللهِ (صلّى الله عليه وَ آله):

**اِنّي تارِكٌ فيكُمُ الثَّقَلَيْنِ: كِتَابَ اللهِ، وَ عِتْرَتي اَهْلَ بَيْتي، مَا اِنْ تَمَسَّكْتُمْ بِهِمَا لَنْ تَضِلُّوا اَبَدًا، وَاَنَّهُمَا لَنْ يَفْتَرِقَا حَتّى يَرِدَا عَلَيَّ الْحَوْضَ.**

Həzrət Peyğəmbəri Əkrəm [illegible] buyurmuşdur: «*Həqiqətən mən sizin aranızda iki ağır və dəyərli əmanət qoyub gedirəm: Allahın kiatabı və İtrətim olan Əhli-beytim. Onlara sarıldığınız vaxta qədər heç vaxt yolunuzu azmazsınız və onlar «Kovsər» hovuzunun yanında mənə gəlib çatıncaya qədər bir-birindən ayrılmazlar.*»

(صحيح مسلم: ج۷، ص۱۲۲؛ سنن دارمي، ج۲، ص۴۳۲؛ مسند احمد، ج۳، ص۱۴، ۱۷، ۲۶، ۵۹، ج۴، ص۳۶۶، ۳۷۱، ج۵، ص ۱۸۲، مستدرك حاكم، ج۳، ص۱۰۹، ۱۴۸، ۵۳۳؛ و....)

# “Vahabi etiqadının yeni təhlili”

# “Vahabi etiqadının yeni təhlili”

**Məhəmməd Hüseyn İbrahimi**

**“Ümumdünya Əhli-beyt” cəmiyyəti**

تحلیلی نو بر عقاید وهابیان - آذری
مؤلف: محمد حسین ابراهیمی
مترجم: ش. متین

Kitabın adı: _____ Vahabi etiqadının yeni təhlili
Müəllif: ________ Məhəmməd Hüseyn İbrahimi
Mütərcim: ______ Ş.Mətin
Redaktor: ______ İftixar Məhəmmədov
Hazırlayan: _____ “Ümumdünya Əhli-beyt” cəmiyyətinin tərcümə idarəsi, mədəni-maarif şö`bəsi
Nəşr edən: _____ “Ümumdünya Əhli-beyt” cəmiyyəti nəşriyyatı
Çap növbəsi: ____ Birinci
Çap tarixi: ______ 2006
Tiraj: ___________ 3000
Çapxana: _______ Etemad

info@ahl-ul-bayt.org
www.ahl-ul-bayt.org
İSBN: 964-529-123-2

Kitabın çap və sair hüquqlari “Ümumdünya Əhli-beyt” cəmiyyətinə məxsusdur.

**Mündərıcat**


Müqəddimə ........................................................ 14
Bu kitabın xüsusiyyəti.................................. 14
Vahabiyyət bir hərəkatdırmı?...................... 15
Bir neçə məsələ ............................................... 16
BİRİNCİ SÖHBƏT......................................... 17
Islam, din və birlik .................................................17
Kimdən uzaqlaşmaq? ............................................18
Nə üçün Vahabiyyət tanınmalıdır? .......................20
Vəhdət və rəhbərlər ................................................21
İKİNCİ SÖHBƏT ............................................ 23
Şeyx və İbn Səudun həyatı.....................................23
Şeyx və İbn Səudun həyatına qısa baxış ...........23
***Atasının vəfatından sonra Şeyxin həyatı***................24
***Şeyxin övladları və şagirdləri***..................................25
***Şeyxin vəfatı***...........................................................26
***Yeni fikirlərin yaranmasına səbəb olanlar*** ...............28
***İbn Səud*** .....................................................................29
ÜÇÜNCÜ SÖHBƏT......................................... 31
Şiə və Vahabi nöqteyi-nəzərində tovhid................31
Vahabiyyət məktəbində təfəkkürün qadağan olunmasının nəticəsi .............................................31
***Şəhid Mütəhharinin dilindən eşidək*** ........................32
Tovhid filosofların nəzərində .................................33
Vahabi əqidəsində Tovhid ......................................36

***Vahabi firqəsində şirk və onun hüdudları*** ................37
Vahabi əqidəsi baxımından şirk və tovhidin siyasi-ictimai nəticələri ........................................37
Vahabiçilik və Şiə ideologiyasının Tovhid məsələsindəki fərqləri..........................................39
DÖRDÜNCÜ SÖHBƏT **............................... 41**
Şiə və Vahabiçilik etiqadı əsasında təvəssül, ölüm və şəfaət ......................................................41
Vahabiçilik və təvəssül .............................................41
Birinci dəlil: .........................................................43
Zəifin güclüdən kömək istəməsi .........................44
Quranda təvəssül ..................................................44
Vahabilərin nəzərincə ölüm nə deməkdir? .......47
Müqəddəs vücudlara təvəssül etmək izni.........49
Həyatda olanlara təvəssül edib yardım .............50
Allahın zatına təvəssül üstündürmü?................51
Təvəssül elə bəndəliyin özüdür .........................51
Əbdül Vəhhab və İbn Teymiyyənin nəzərində şəfaət...................................................................54
Təvəssül və şəfaətin inkarı tarixi........................57
İbn Teymiyyənin fikirləri və sünnə əhlinin etirazı...................................................................58
Alimlərin İbn Teymiyyə ilə müxalifətçiliyi .......59
BEŞİNCİ SÖHBƏT **........................................ 63**
Şiə və Vahabiçilikdə ziyarət, qəbiristanlıq və məscid ..................................................................63
Şiə və sünnü firqəsində ziyarət məfhumu.........63

İbn Qüdamənin nəzəri........................................63
Əllamə Məclisinin versiyası.................................65
Məzarları ziyarət etmək gözəl adətdir...............66
Qəbirlər və məscidlərin hökmü nədir?..............69
Nə üçün vahabilər Peyğəmbər və iki şeyxin məzarını dağıtmırlar?..........................................71
Məscid tikib qəbir önündə namaz qılmanın haram edilməsi .....................................................72
Kəhf surəsinin buyurduqları ...............................74
***Digər bir istidlal***.......................................................75
***Qəbir kənarında məscidin tikilməsi***..........................76
Qəbir daşlarının ucaldılması ..............................78
Vahabilərin məscid və müqəddəs məkanların bəzənilməsi haqqında düşüncələri.....................79
Məscidləri ziyarət etmək üçün səfərə çıxmaq...80
ALTINCI SÖHBƏT**......................................... 82**
Övliyaların kəraməti..............................................82
Nəfsin razılığı və təqvanın təsiri ilə övliyaların kəraməti..........................................................................84
Ehsan, sədəqə və nəzir...........................................85
Müqəddəs daşları təbərrük etmək.........................86
Peyğəmbər (s) və onu xatırladan hər şeyin təbərrük olması......................................................88
YEDDİNCİ SÖHBƏT**...................................... 90**
Quranda təvil..........................................................90
Vahabilərin nəzərincə təvil nə deməkdir?............91
Şiələrin Cəhimi olmaları.........................................92

Vahabilər ziyalıların yolu ilə getmədilər ...............93
**SƏKKİZİNCİ SÖHBƏT ................................ 95**
Şiə və vahabilərin şənlik edib yas saxlamaq haqqında fikirləri ......................................................95
Bayramlar və şənliklər ..........................................95
Vahabilərin qəbul etdikləri iki bayram ..............96
Əziz olan məkanlar və zamanlar ........................97
Bayram və Quran ..................................................99
Islami rəvayətlərdə bayram günləri .................100
Marudinin dediklərindən..................................102
Vahabilərin bayram və əza məclislərinə olan həssaslıqlarının dəlili ..........................................102
Islamda və vahabiçilikdə matəm ......................103
Bu rəvayətin tənqidi...........................................104
Vahabilərin digər dəlili.......................................105
Əzadarlığın tarixi ................................................106
Nohə oxumağın növləri ....................................108
Şiə və sünnü məzhəbində matəm .....................109
**DOQQUZUNCU SÖHBƏT ....................... 112**
Quran, rəvayət və tarixdə təhrif...........................112
Şiə və sünnü alimlərinin təhrif barəsində fikirləri ..........................................................................113
Bəzi fəqihlərin düşüncələri ...................................116
**Vahabilərin təhrifləri** ............................................117
İslam Peyğəmbərinin sözlərində olunan .............118
**ONUNCU SÖHBƏT .................................. 127**
Hakimlərə mütləq itaət.........................................127

Hakimlərə mütləq surətdə itaət etmək ............127
Səhabələrin davranışı ........................................130
Şiənin hakimlərə və ulul əmrə itaəti haqqında düşüncələri ..........................................................133
Peyğəmbərin vəfatından sonra ilk ulul əmr və onun (s) səhabələrinin üstünlük meyarı ..........134
***Imam Əlinin vəzirliyi*** ...........................................141

Bismillahir Rəhmanir Rəhim

# Müqəddimə

On iki il bundan öncə "Vahabi etiqadının yeni təhlili" adlı kitab yazılmışdı. Bu günə qədər Qum Elmi Hövzəsi İslami Təbliğat Müəssisəsinin mərkəzi nəşriyyatı tərəfindən üç dəfə çap olunub yayımlanmışdır.

Kitabın dördüncü çapı zamanı onun fəsilləri barəsində yeni fikirlər irəli sürüldü və ilahi yardımlar sayəsində işə başlayıb kitaba yeni məsələlər və nəzəriyyələr əlavə olundu.

## Bu kitabın xüsusiyyəti

Bu kitab vahabi etiqadını şiə və sünnə əhli ilə müqyisələndirib onların əsas məsələləri barəsində müzakirəyə çalışmışdır. Bundan əlavə, kitabdakı sitatlar Məkkə və Mədinə şəhərlərində çap olunmuş bu kitablardır:

1. "Fəthul Məcid"; Şeyx Məhəmməd bin Əbdül Vəhhab – bu hərəkatın başçılarındandır – kitabın əsas müəllifidir və Şeyx Əbdül Rəhman bin Həsən Alul Şeyx kitaba şərh yazmış, Əbdullah bin Baz isə ona çıxarış vermişdir.

2. “Əl-əsilətu vəl əcvibətul usuliyyə”; bu əsərin yazıçısı Əbdül Əziz Məhəmməd Sultandır.

3. “Ət-tovhid bil-luğətul farsiyyə” (27-ci nömrə) Səudiyyə Ərəbistanı çapə Xeyriyyə və İrşad müəssisəsi çap edərək 1374-cü Günəş ilində iranlı ziyarətçilərə pulsuz paylanmışdır.

Bu mənbələrdən əlavə, sunni və şiə alimlərinin digər kitablarında işarə olunmuşdur.

Qarşınızda olan kitabın içindəkilər vahabilərin şiə və Məsum İmamlar (ə) haqqında baxış və nəzərləridir. Lakin bu o demək deyildir ki, vahabilər fikir, əqidə, hətta uctimai və siyasi nöqteyi nəzərindən sünnə əhli ilə ixtilafa malik deyildirlər. Əlbəttə, bu barədə söhbət açacağıq.

## Vahabiyyət bir hərəkatdırmı?

Bu günə qədər müsəlmanlar arasında çoxlu hərəkatlar, inqilablar, dini-ictimai dirçəlişlər baş vermişdir. Bunlardan bəziləri sırf siyasi mahiyyət daşımışdır. Hökumətdə heç bir üstünlük olmadan hökumət növünün dəyişməsini misal çəkmək olar. Bəziləri dini quruluşa düzəlişlər vermək üçün yaranmışdır. Bəziləri isə həm dini, həm ictimai və həm də siyasi mövqe daşımışdır. Məsələn, İran İslam İnqilabını sırf hərəkat və dirçəliş kimi qələmə vermək düzgün deyildir. Çünki bütün etiqadi, şəxsi və ictimai sahələri öz təsiri altına almışdır. Həqiqətən də elə “inqilab” ifadəsinin bu kimi hərəkatlara şamil olması düzgündür.

Qeyd olunan sualın cavabında belə deyilməsi gərəkdir: Həqiqətən vahabiyyət bir din və məzhəb şəklində zahir olan, lakin xüsusi ictimai nəticələr yaradan siyasi bir oyanışdır. Əlbəttə, son nəzər ictimai və siyasi elmlər ixtisasçılarının öhdəsinə düşür.

Bir neçə məsələ

Vahabi məzhəbi bir neçə adla tanınmışdır. Bu adlardan biri olan "Sələfiyyə"ni nümunə gətirmək olar. Çünki, onların etiqadları budur ki, müsəlmanlar (bu günkü zamanda) dinə düzəliş verib öz əqidələrinə qayıtsınlar. Bunun üçün də onlar islamın ilk illərinə dönməlidirlər. (Sələf – keçmiş mənasında işlənir). Sələf mövzusunu ilk dəfə olaraq İbn Teymiyyə meydana çıxarmış və onun dedikləri vahabi əqidəsinin mənşə və əsası hesab olunur.

"Vahabiyyət" siaysi, ictimai və dini məsələlərdə Şeyx Məhəmməd bin Əbdül Vəhhabın ardıcıllarından olmaq deməkdir. Çünki, o din və cəmiyyətin islah olunma yollarını öz ardıcıllarına öyrətmişdir. Bu iki (Vahabi və Sələfi) firqənin davamçıları Əhməd bin Hənbəlin ardıcıllarıdır. Bu bölümə "Zahiriyyə" də demək mümkündür. Ona görə ki, Quran və rəvayətləri tərcümə etdikdə yalnız onların zahiri mənası ilə kifayətlənirlər. Məsələn, əgər Qurani Kərim

جاء ربك و الملك صفّا صفّا

Buyurursa, onlar Qiyamət günündə Məhşər əhlinin Onu (Allahı) görə biləcəyi şəkildə gələcəyini söyləyirlər.

Bu kitab yuxarıda qeyd olunan ünvanlar barəsində ətraflı izah verərək bu sahədə İmamiyyə etiqadını bəyan etmişdir. Hər hansı surətdə olursa olsun, dolaşıq elmi sübutlardan çəkinmək şərti ilə sadə dillə bəyan etməyə səy göstərilmişdir. Haqq Həzrətlərinin və Sahibul Əmrin bu kitaı qəbul edəcəyinə ümid bəsləyirik.

Məhəmməd Hüseyn İbrahimi,
Qum Elmi Hövzəsi.

## BİRİNCİ SÖHBƏT

### *Islam, din və birlik*

Qurani Kərimin bütün insanları (müsəlman, yəhudu, xristian və...) birliyə dəvət edir və bu birlik Peyğəmbərin (s) şəxsiyyətinə, yaxud Kitab əhlinin xüsusi bir bölümünə aid deyildir:

**يا اهل الكتاب تعالوا الى كلمة سواء بيننا و بينكم الا نعبد الا الله و لا نشرك به شيئا و لا يتخذ بعضنا بعضا اربابا من دون الله"**[1]

“Ey Kitab əhli! Sizinlə bizim aramızda olan yeganə ortaq sözə gəlin ki, Allahdan başqasına sitayiş etməyib heç kəsi Ona şərik seçməyək və bizlərdən bəzilərimiz bəzilərimizi Allah əvəzi bilməyək”.

Qurani Məcid monastr, məbəd (yəhudilərin ibadətgahı), kilsə (xristianların ibadətgahı) və məscidi bir cərgədə vurğulayır. Çünki, onların hamısında Allahın adı çəkilir. Elə buna görə də Pərvərdigar bütün bu məkanlara ehtiram və müqədəsliklə nəzər salmışdır.

---

1 Ali İmran (3), 64-cü ayə.

Qeyd olunan mübarək ayə hamını birliyə dəvət etməsinə baxmayaraq müsəlmanların bir-birləri ilə bağlılıqlarına da çox təkid etmişdir. Ona görə ki, müsəlmanlar Tovhid, Nübuvvət, qiblə və bu kimi birlikdən əlavə, dinin bəzi sahələrində (füruud-dində) də şərikdirlər. Bunun üçün də digər dinlərə nisbətən, birlik və vəhdətlə əlaqədar olaraq onlar arasındakı elmi, mədəni, siaysi və s... mübadilələr imkanı daha əlverişlidir.

### *Kimdən uzaqlaşmaq?*

Rəsulullahın (s) rəftarı bizim hamımız üçün örnək, öncül və höccətdir. O həzrət öz mehribançılıq, böyüklük və çalışqanlığı ilə əksər camaatın bütpərəst olduğu hicazlılara islamı qəbul etdirməyi bacarmışdır.

Islamı qəbul etdikdən sonra onlardan bəziləri münafiqcəsinə o həzrətlə qarşılaşmağa başladılar. Rəsulullah (s) isə onlarla müharibə etməyə əmr olundu. Onlar zahirdə islamı qəbul edib, niyyət və əməldə o əzəmətli şəxsiyyətlə mübarizə edən şəxslər idilər. Bununla belə Peyğəmbər onlarla sülh yolu ilə davranırdı. Onun bu işdə məqsədi məmuriyyətini başa çatdırması, Qurani Kərimi tanıdıb, onun hökmlərini icra etmək idi. Bu, elə məsum imamların qarşıya qoyduqları yol idi və onlar heç bir zaman müsəlmanlar arasında müxalifətçiliyə razı olmazdılar.

Biz Əlinin (ə) "Nəhcül-Bəlağə"də özündən öncəki xəlifələri qınadığının şahidi olsaq da belə, digər mövqelərdə onları təriflədiyini də müşahidə edirik. Bu

isə yalnız imamiyyə etiqadının genişlənməsi və fikir azadlığı yaratmaq xatirinə idi. Belə nəticəyə gəlmək olar ki, indiki əsrdə şiə və sünnü ixtilaflarını araşdırmağın fayda vermədiyi bir halda, hətta əvəzolunmaz zərərlərlə də nəticələnməsi mümkündür.

Əslində şiə və sünnü arasında birlik və vəhdət hər iki məzhəbin, xüsusilə, özünün fikir, mədəniyyət, fiqh, təfsir və əqidəsini məhdudlaşdırmayan şiənin mənafeyinə daha uyğundur. Müsəlmanları olan ölkələrə diqqət etmək bu deyilənləri təsdiqləyir. Çünki, şiənin böyük alimləri, o cümlədən Şeyx Mufid, Şeyx Tusi, Əlllamə Hilli və Təbatəbai və Ustad Mütəhhəri kimi alimlərin kitabları bu ölkələrdə daha çox gözə çarpır.

Şiə və sünnü məzhəbinin birliyi sayəsində şiə mədəniyyəti və təfəkkürünün islam dünyasında yayılması, nəticədə isə bu iki firqənin bir-biri ilə daha da yaxınlaşması yolları açılacaqdır.

Vahabilər digər firqələrdən daha çox belə birlikdən qorxurlar. Bu səbəbdən, həcc mərasimi zamanı bütün dini kitabların, o cümlədən Quran (fars dilində tərcüməsi), təfsir, tarixi və rəvayi kitablar, hətta İranın qəzet və jurnallarının ölkəyə daxil olmasının qarşısını alırlar. Onlar bu kitabların içində onların siyasətlərinə, xüsusilə etiqadlarına zidd olan həqiqətlərin olduğundan qorxurlar. Halbuki bunlar heç də islamın həqiqətləri ilə təzadlı deyildir.

Onlar dünyagörüşü nöqteyi-nəzərindən həm şiə və həm də sünnnə əhlinin dörd firqəsi ilə də müxalifdirlər. Elə bu səbəbə görə də şiə və sünnə əhlinin vəhdətinin

əleyhinə kitablar yazır, təbliğat aparır və bu məsələnin mümkün olmadığını cilvələndirirlər. Onlar: "Biz Quran ayələrini mənalandıran və iki Şeyxə ehtiramsızlıq göstərən şəxslərlə heç vaxt anlaşmayacağıq" iddiasındadırlar.

### *Nə üçün Vahabiyyət tanınmalıdır?*

Vahabiyyətin vəhdətçilik anlayışı ilə ziddiyyətli olan hərəkat "vəhdət həftəsi"ndə özünün ən yüksək nöqtəsinə ucalır. Onların bu fitnəli niyyətlərinə ən gözəl cavablardan biri həc və ziyarət karvanları ruhanlərinin daha çox vəhdətə çağırmaları, onlarla qarşılaşdıqda necə rəftar etmələri barədə məlumata sahib olmaları, mübahisə yaxud müzakirə zamanı düşünərək necə tutarlı cavab vermələridir.

Sünnə əhlinin ardıcılları olan bəzi həmvətənlərimizin də onların rəhbərlərinin nəzərlərini dəqiqliklə müqayisə etmələri gərəkdir. Ona görə ki, bu şəxslər vahabilərin onlarla da əks fikirdə olduqlarını bilməlidirlər. Hətta onlar bir çox sünnə etiqadının şirk, ya küfr olduğunu söyləyirlər. Həqiqətdə vahabiyyət siyasi bir hərəkat olub, özünü məzhəb şəklində sünnə əhlinə qovuşdurmaqla islami məzhəblərin vəhdətlərinin qarşısını almaq, müsəlman millətlərinə müstəmləkəçi hakimiyyətini əbədiləşdirmək, xüsusilə iki əsas firqə olan şiə və sünnü firqəsi arasında ayrılığı daha da gücləndirmək istəyir.

Təəssüflər olsun ki, vahabiyyət Ərəbistanın qızıl yataqları olan torpaqlarına sahib olmaqla, Allahın bəxş

etdiyi çoxlu sərvətlərə arxalanmaqla qüdrətli cərəyan kimi fəaliyyət göstərməyə nail olmuşdur. Həmçinin, dünyada öz məramlarını həyata keçirib təbliğ etmək üçün saysız-hesabsız təşkilat və müəssisələr yaratmışdır. Çox zaman fəqirlik və maddi imkansızlıqdan əziyyət çəkən İran və Pakistanın sünnə əhli yerləşən regionlarda kapital qoyuluşu edirlər. Onlar elmi mədrəsələr tikir və tələbələr üçün külli miqdarda pullar xərcləyərək onları vahabiçilik siyasətinə tərəf cəzb edirlər. Beləliklə də İranın sərhəd zonalarında yaşayan sünnə əhli çox zaman istismarşı vahabiyyətin təbliğatı təsirinə məruz qalırlar.

Ələvi şiəsi ilə Məhəmməd (s) sünnəsinin əl-ələ verib düşmənə qarşı ayağa qalxdığı, istismarçı qüdrətini vahabiyyət simasının arxasında aşkarcasına müşahidə etdikləri bir gündə şiə və sünnü alimlərinin vahabiyyət barəsində lazımi tədqiqat aparmaları zərurəti duyulur. Alimlər bu yeni dəstənin (vahabiyyət) yalnız şiə ilə deyil, sünnə əhli ilə də müxalif olduqlarını bilməlidirlər. Vahabilər həmişə sünnü qardaşların tərəfdarı olub onlarla dost və əlbir olduqlarını göstərməyə çalışırlar. Habelə, alimlər vahabiləri şiə ilə ayıran məsələlərin şiə və sünnü arasında ümumi və müştərək məsələlər olduğunu, vahabidənsə, sünnə əhlinin şiəyə daha yaxın olduğunu nəzərə almalıdırlar.

## *Vəhdət və rəhbərlər*

Keçmiş onilliklərdə müsəlmanların birliyini öz məqsədi və şüarı edən şəxslər də var idi. Onlar ya bu dəyərli arzuya nail olmadılar, ya da ki, bu arzunu həyata

keçirmək üçün atdıqları addım zəif və ibtidai idi. Son zamanlarda Ayətullah Brucerdi (rəhmətullah) “Cameətut-təqrib beynəl məzahibul islami” şüarı və istəyinə müsbət cavab vermişdir. Digər alim və fəqihlər də bu alimin seçdiyi yola öz müsbət nəzərlərini bildirirlər. Bu sahədə İmam Xomeyninin (rəhmətullah) səyləri heç kəsə gizli deyildir. Indiki dövrdə isə Ayətullah Xameneyi bu vəhdətin daha da yayılması üçün “Cameətut-təqrib” və vəhdət barəsində özü-özlüyündə böyük və ümidverici yeni nəzəriyyələr irəli sürmüşdür.

Qeyd etmək lazımdır ki, keçmiş şiə fəqih və alimləri (o cümlədən, şeyx Tusi, Şeyx Mufid və Seyid Murtuza Ələmul Huda) şiə və sünnü məzhəblərinin vəhdətinə təkidlə yanaşaraq bu sahədə dəyərli kitablar yazmışlar. Məsələn, “Əl-Xilaf” kitabı bu iki məzhəbin əqidəsindəki müştərək məsələləri sadalayır. Ya da Əllamə Hilli şiə və sünnə əhlinin dörd firqəsinin fiqhi əsasında “Təzkirətu-Fuqəha” adlı kitabını yazmışdır.

Bütün bunlar fiqhi nəzəriyyələrin qovuşub yaxınlaşması və fiqh alimlərinin bir-birlərini anlaması istəyidir. Əlbəttə, hal-hazırda sünnə əhli tərəfindən də Fürud-din və fiqh sahəsində şiə və sünnü nəzəriyələri külliyyatı olan ensiklopediyalar yazılmışdır. “Mosuətu Cəmalu Əbdun Nasir vəl fiqhu ələl məzahibul xəmsə” və bu kimi kitabları nümunə gətirmək olar.

# İKİNCİ SÖHBƏT

## *Şeyx və İbn Səudun həyatı*

### Şeyx və İbn Səudun həyatına qısa baxış

Bu fəsldə Şeyx adı ilə tanınmış Məhəmməd bin Əbdül Vəhhab və Məhəmməd Səudun həyatı barəsində söhbət açmağı münasib bildik.

Şeyxin övladları və nəvələri hal-hazırda Ərəbistanda yaşayırlar. Onlardan bəziləri Ali Şeyx adı ilə məşhurlaşmışlar. Məhəmməd Səudun övladları isə (bəziləri) Ərəbistan hökümətində vəzifə sahibi olmaqla Ali Səud adı ilə tanınırlar. Bu dövlət əvvəllər Hicaz adlanırdı. Lakin Məlik Əbdül Əzizin dövründə "Məmləkətul Ərəbiyyətus Səudiyyə" (Səudiyyə Ərəbistan Məmləkəti) adını aldı.

Şeyx Məhəmməd Əbdül Vəhhab hicri-qəməri tarixinin 1114-cü ilində Nəcd şəhərinin Eyniyyə adlı məntəqəsində anadan olmuşdur. Atası Şeyx Əbdül Vəhhab o zaman o məntəqənin alim və qazısı idi. Bu səbəbdən də Şeyx Məhəmmədin əqidəsinin atasından mənşələndiyi deyilir. Şeyx Məhəmməd ibtidai dini məlumatları atasından öyrəndikdən sonra Məkkəyə gedib oranın alimlərindən də elmi məlumatlar almışdır.

O, bəzi etiqadi məsələlərdə şəxsi nəzərləri və Mədinə alimləri ilə müxalifətçiliyi nəticəsində o şəhərdən ixrac olunduqdan sonra İraqa gedərək Bəsrə şəhərində

məskunlaşır. Bu şəhərdə Şeyx Məhəmməd Məcmun adlı bir şəxslə tanış olub öz fikirləri barəsində onunla söhbət edir və sonunda onların hər ikisi xüsusi eyni bir əqidəyə etiqad bəsləyirlər.

Əksəriyyəti Fars əhalisindən olan Bəsrə alimləri və möminləri ona qarşı çıxaraq onu Bəsrədən qovurlar.

Şeyx Məhəmməd Bəsrədən qovulduqdan sonra Dəməşqə gedir. Lakin orada da yöndəmsiz və dağınıq əqidə sahibi olduğuna və yaşayış problemlərinə görə ab-havası gözəl olan bu şəhərdə də yaşaya bilməyir. Digər tərəfdən isə Mədinə ya Məkkəyə də qayıda bilmədiyi üçün şəhərin alimi olan atası Əbdül Vəhhabın yanına gəlir.

Şeyxin əqidə baxımından onunla müxalif olan Şeyx Salman bin Əbdül Vəhhab adlı bir qardaşı var idi. Qardaşı ilk şəxs idi ki, Məhəmmədin əqidəsinin rədd və inkarı haqqında kitab yazmışdı. Atası da Şeyx Salmanın tərəfini saxlayaraq onun fikirlərinə öz müxalif fikrini bildirdi. Bu şəhərdə də atası, qardaşı və digər alimlərin keşməkeşli nəzərləri ilə qarşılaşır və nəhayət, bu hal atasının vəfatına qədər davam edir.

### *Atasının vəfatından sonra Şeyxin həyatı*

Şeyx Məhəmməd atasının vəfatından sonra öz əqidə və fikirlərini yaymaq üçün daha çox azadlıq əldə edir. Bu səbəbdən digər şəhərlərə səfərlər edir. Eyniyyə şəhərinin valisi Osman ibn Əhməd ibn Məhəmmədlə tanış olaraq onun qızı Cövhərə ilə ailə həyatı qurur. Bəzilərinin onun əqidəsini qəbul etdiklərindən asılı

olmayaraq adətləri ayaq altına alınıb, ənənələri pozulduğuna görə o şəhərdən də onu qovurlar. Məsələn, Ömərin qardaşı Zeyd ibn Xəttaba aid olan günbəzin sökülməsini və o şəhərdə camaatın diqqətini cəlb edən qoca ağacın kəsilməsini əmr etmişdi.

Xülasə, Şeyx xüsusi əqidəyə sahib olduğu, o cümlədən sünnə əhlinin başçılarına qarşı etinasızlıq etdiyi, xalqın gözündən düşərək onların qəzəblərinə səbəb olduğu üçün oradan Dəriyyə adlı bir yerə getməli olur.

Hal-hazırda ziyarətçilər Ərəbistanda Osmanlı hökumətinin tarixi abidələrini ziyarət edirlər. Rəsulullahın (s) məqbərəsinin günbəzi və ətrafındakı zərih, Məscidun Nəbinin çıraqları və bu müqəddəs məscidin tavanındakı yazılar buna aşkar nümunədir.

### *Şeyxin övladları və şagirdləri*

Şeyxin bir neçə qız və oğlan övladı var idi. O, qızlarından birini tayfa başçısı olan Məhəmməd bin Səuda ərə verir. Oğlanları Hüseyn, Abdullah və İbrahim isə atalarından sonra hakimlik (qazı) vəzifəsinə sahib olurlar. İndiki dövrdə də övladları bir-birinin ardınca Səudiyyə Ərəbistanının bəzi dini vəzifələrini öz əllərində saxlayırlar.

Şeyx öz həyatı zamanı şagird yetişdirməkdən əlavə, bu günkü gündə ölkənin alim və tələbələrinin diqqətini cəlb edən kitablar yazmışdır. Bu kitablar bunlardan ibarətdir:

Onun əqidəsinin külliyyatı olan “Tovhid” kitabı.

Sünnə əhli müqabilində öz əqidəsini müdafiə edən “Kəşfuş-Şubəhat”.

Bəzi Quran dastanlarından çıxardığı nəticə və məsələlər.

Böyük günahlar barəsində yazdığı “Kitabul Kəbair”.

Ərəbistan cahiliyyət əqidəsini öz zamanı ilə uyğunlaşdırdığı “Məsailul cahiliyyə”.

“Sirətur Rəsul” adı ilə məşhur olan “Fəvaidur Sirətur Rəsul” kitabı. Bu kitabda o, peyğəmbərin bəzi səhabələri, onun döyüşləri, o zamanda yayılmış etiqadlar barəsində söz açmışdır.

“İxtisaruş Şərhul Kəbir”.

“Adabul məşyi iləs səlat”. Bu kitab fiqhi məsələlər və füruuddin barəsindədir.

Bu kitabların külliyatı hal-hazırda kitabxanalarda mövcuddur.

## *Şeyxin vəfatı*

Şeyx Məhəmməd dini-siyasi keşməkeşlərdən, İslam şəhərlərinə uzun sürən səfərlərindən və alimlərin qəzəb və acıqlı rəftarlarına dözüb tab gətirdikdən sonra indi Vahabi adı ilə tanınmış həmməslək və həmfikir tapa bilir.

Tarixin yazdığına əsasən Şeyx Bəsrə, Nəcəf və Kərbəla (İsfahan və Şiraz da ehtimal olunur) şəhərlərinə səfərindən sonra hicri-qəməri tarixinin 1206-cı ilində, 92 yaşında elə həmin Dəriyyə şəhərində vəfat edir.

Beləliklə, Şeyxin ölümündən sonra onun əqidə və nəzəriyyələri daxili və xarici himayədarlar tərəfindən müxtəlif yollarla təbliğ edilib yayılmağa başladı. İndiki

dövrdə isə Ərəbistanın hakimləri, dini alimlər və şəriət hakimləri (qazılar) onun ardıcılları hesab olunurlar. Bəzi müsəlman dövlətləri də Pakistan, İran və Əfqanıstanın sərhəd şəhərləri sakinləri bu etiqad növünün təsiri altına düşüblər. Vahabilər bu məsləklərini Avropa, Amerika, Asiya dövlətlərində məscid, kitabxana tikməklə, Quran çap edib sabit dini təbliğatçılar göndərmək və sairə ilə genişləndirirlər.

Bu etiqada Şeyxin atası ilə bağlayaraq - vahabi adı verilmişdir. Şeyx zahirdə Hənbəli məzhəbində olduğuna baxmayaraq, digər alimlər kimi olmayıb heç kəsə təqlid etmir, özünü azad təfəkkürlü, din seçməkdə əqidə sahibi hesab edirdi. O, özünü yeni əqidə ixtiraçısı kimi qələmə verərək aşağıdakı fikirlərin sahibi idi:

1. Bütün müsəlmanları kafir ya şirk əhli hesab edirdi. Lakin özünü həqiqi müsəlman təsəvvür edirdi.

2. Qəbir daşları, günbəz və məqbərələri, Peyğəmbərin səhabə və övladlarına aid olan qəbir daşlarının ziyarətini haram sanırdı.

3. Övliyaların məzarları kənarında qurban kəsib nəzir paylamağın haram olduğunu deyirdi.

4. Övliyaullahları bir vasitə kimi qəbul edib onlardan yardım diləməyi haram sayırdı.

5. Özünün etiqadı ilə müxalifətçilik edənlərlə cihad etməyi vacib kimi qələmə verir və deyirdi: “Kafirlər və müşriklərlə fitnəni məhv edənə, xalis ilahi din əbədi qalana qədər vuruşun”.

وَ قاتلوهُم حَتى لا تَكُون فِتْنَةٌ

Şeyxin bu ayədəki müsəlmanlarla cihad və “xalis ilahi din” də məqsədi öz etiqadı idi.

Bu, Şeyx Məhəmməd Əbdül Vəhhabın “Kitabut Tovhid bil luğətil farsiyyə” (27-ci nömrə, səh. 16-34) adlı jurnalından çıxarılmış qısa həyatı və fikirlərinin xülasəsi idi. Əlbəttə, sonrakı söhbətlərimizdə digər mövzulara da toxunacağıq.

### *Yeni fikirlərin yaranmasına səbəb olanlar*

Şeyx Məhəmməd Məkkə və Mədinədə yaşadığı müddətdə yeni təfəkkürünün formalaşmasında boyük rol oynayan kitablarla tanış olmuşdur. O cümlədən, Əhməd ibn Hənbəlin, xüsusilə də “Müsnəd” kitabı, İbn Qəyyim Covzi və İbn Teymiyyənin kitablarını misal çəkmək olar. Sünnə əhli alimlərinin əksinə olaraq, tarix və fiqh kitabları arasında bu şəxslərin yeni əqidə və nəzəriyyələrinin izahına rast gəlmək olardı. Əlbəttə, Şeyx hamıdan çox İbn Teymiyyənin etiqadının təsiri altına düşmüşdü.

İbn Teymiyyə 8-ci əsrdə yaşamış və 3-cü əsr alimi Əhməd bin Hənbəlin əqidə ardıcıllarından idi. İbn Teymiyyə Allahın bir növ cisim olduğunu sanırdı. Yəni, Allahın əli, ayağı, gözü, dili, ağzı və hansısa bir məkanda olduğunu təsəvvür edirdi. O, öz sözünü sübut etmək üçün Quran ayələrinin zahiri mənasına pənah aparırdı. O, Allahın göydə taxt üzərində əyləşdiyinə inanırdı.

İbn Teymiyyənin ad və ləqəbi Əbul Abbas Təqiyuddin Əhməd bin Əbdül Həlimdir. O, Türkiyənin Hərran şəhərində dünyaya gəlmiş, sonra atası və ailəsi

ilə Dəməşqə gedərək dini-məzhəbi sahəsində məlumat almışdır. Bir çox fikri və etiqadi məsələlərdə ifrat və təfritə düçar olmuşdur. O, Allahın cisim olduğuna etiqadı olmasından əlavə qəbir daşlarının ziyarəti, peyğəmbərə təvəssül etməyi qadağan edərək İmam Əli ibn Əbitalibə (ə) nalayiq sözlər deməyi rəva bilmişdir. Bunlardan əlavə, fiqhi sahədə dörd məzhəbin rəhbəri ilə müxalifət etməkdən çəkinmişdir. Deyilənlərdən belə nəticəyə gəlmək olar ki, Şeyx bu növ etiqada sahib olan ilk şəxs deyildir. Həqiqətdə belə mövzulara toxunan İbn Teymiyyə kimi şəxslər də var imiş. İbn Teymiyyə də Şeyx Məhəmməd kimi öz zamanının alimlərinin şiddətli qəzəb və tənqidinə düçar olmuşdu. Bir müddət Misirə sürgün olunur, ancaq zamanın hökumətinin köməyi ilə yenidən Dəməşqə qayıdır. Ömrünün sonunda Dəməşq alimləri ilə fikir ixtilafı üzündən zindana düşərək Dəməşq qülləsində ömrünü sona çatdırır və elə oradaca torpağa tapşırılır.

### *İbn Səud*

Münasib suyu və havası olan dağlıq zona sayılan Hicazın Dəriyyə məntəqəsində Məhəmməd ibn Səud adlı tayfa başçısı var idi. Şeyx, Məhəmməd bin Səudla tanış olduqdan sonra özünün yeni etiqadı haqqında ona məlumat verir. O da Şeyxin etiqadını qəbul edir. Onlar birlikdə məntəqədə güclü hökumət qurmaq qərarına gəlirlər: Dini, qəzavət, təbliğ və cümə namazına başçılıq vəzifələri Şeyxin, siyasi, ictimai, nizam-intizam və əmniyyət məsələləri isə İbn Səudun öz öhdəsinə düşür.

Qeyd etmək lazımdır ki, Hicazda əvvəllər tayfa başçılıq sistemi və köçəri həyat hökumətçiliyi hakim idi. Digər İslam dövlətləri kimi dövlətin paytaxtı və mərkəzi indiki Türkiyə olan Osmanlı hökuməti altında olmuşdur. Məhəmməd ibn Səudun hakimiyyətinin güclənməsi ilə Hicaz Osmanlı hakimiyyətindən xaric olub, zaman keçdikcə İngiltərə istismarçılarının qüdrəti altına düşdü. Əlbəttə, bu hakimiyyətin döndərilməsində İngiltərənin fəaliyyətinə də göz yummaq olmaz.

# ÜÇÜNCÜ SÖHBƏT

## *Şiə və Vahabi nöqteyi-nəzərində tovhid*

### Vahabiyyət məktəbində təfəkkürün qadağan olunmasının nəticəsi

Vahabiyyət məktəbində etiqadi məsələlərdə bir növ fikir donuqluğu müşahidə olunur. Şeyx Məhəmməd bin Əbdül Vəhhab özünü açıq fikirli bir şəxs kimi qəbul etdiyinə, Sünnə əhlinin dörd məzhəbi, hətta Şiə etiqadına irad tutub Quran ayələrini yozduqlarına görə qınadığına baxmayaraq, özü Mütəal Allahı tanımaq sahəsində cüzi məsələlərə ehmalla yanaşaraq Təbarək və Taala Allah üçün bir növ cisim olduğunu təsəvvür edir və bu barədə Quranın ayələrinin zahirinə kifayətlənirdi.

Onun tərəfdarları da ayə və rəvayətlər haqqında düşünməkdən uzaq durub əqli, fəlsəfi və ürfan elmlərini inkar etdikləri üçün donuq, məhdud nəzər və fikir tərzinə düçar olmuşdurlar. Belə ki, ayə və rəvayətlərin buyurduqlarını zamanın tələbinə uyğunlaşdırmağa qadir deyildilər. Elə buna görə də ilk öncə telefon, ümumi rabitə vasitələri və sairəni haram elan edib bunlarla mübarizəyə qalxaraq, lakin sonda təslim olmağa məcbur oldular.

Şəfaət, təvəssül, peyğəmbərlik isməti kimi məfhumları bu günkü idrakları ilə uyğunlaşdırmağa qadir olmadıqları üçün bütün peyğəmbərlər, xüsusilə

İslam Peyğəmbəri və övliyalar haqqında düşüncələri məhdud olub, onların mənəvi məqamlarını digər şəxslərlə bərabər hesab edir, onları öldükdən sonra puç və heç olduqlarını zənn edirlər. Ancaq şiə və bəzi islami firqələr həmən şəxslərin hər bir işdə hazır olub nəzarətçi olduğuna inanırlar. Nəticədə vahabilər peyğəmbərlər və övliyalara sığınıb, onlara təvəssül edib, şəfaət istəməyi bir növ bidət və şirk hesab edirlər.

### *Şəhid Mütəhhərinin dilindən eşidək*

Şəhid Mütəhhəri deyir:

"Vahabilər Allahın iki hakimiyyət dairəsinə malik olduğunu təkid edirlər: Birincisi, Allahın zatına aiddir və heç kəs bu dairəyə daxil ola bilməz. İbadətlə təvəssül də Allaha aid olaraq bu dairəyə daxildir. İkincisi, dünyanın təbii və adi işlərinə aiddir ki, insanların adi işlərinin bir hissəsidir. Bu, insana aid olub, onun ixtiyar və iradəsinə tabedir. Bu sahədə Allahın heç bir ifası yoxdur".[1]

O, sözünə davam edərək deyir:

"Bizim nəzərimizcə, Varlıq üçün hakimiyyət dairəsi fərzi, Allahın hakimiyyət sərhədinin bir tərəfdə, digər varlıqların, xüsusilə insanın hüdudlarını başqa bir tərəfdə təsəvvür etməklə bu iki sərhədi bir-birindən ayırmağın özü qeyri-məqbul və bir növ şirk sayılır. Allahın işlərini digər varlıqların işlərindən ayırmaq lazım deyil. Çünki bizim:

---

1 "Tovhid ideologiyası", 2-ci cild, səh. 116

"ان القوة لله جميعاً" və "لا حول و لا قوةَ الا بالله العلي العظيم"
etiqadımız vardır".

Mütəhhəri sonra belə davam edir:

"Vahabiçilik əqidəsi, yayılmış təsəvvürün əksinə olaraq, imamətin ziddinə olan bir nəzəriyyə deyildir. Əslində imamətin ziddinə olmaqdan öncə tovhidə zidd və insaniyyətin əksinə olan nəzəriyyədir. Bir növ gizli zati şirk etiqadı ilə bərabər xaliqlə məxluq işlərini bir-birindən ayırdığı üçün anti-tovhid əqidəsi, insanı mələklərdən üstün seçən, Quranın buyurduğuna əsasən, mələkləri ona səcdə etməyə məmur edən "xəlifətullah"ı insanlıq istedadını dərk etmədiyi, onu bir heyvan həddində alçaltdığına görə anti-bəşər etiqadıdır".

### *Tovhid filosofların nəzərində*

Allahın zat və sifətlərini tanımaq haqqında mübarək "Tovhid" surəsindən bu məsələləri qeyd etmək olar:

Zati Tovhid: Allah Taala kamil zat, kamal və camal sifətlərinin toplusudur. Elə buna görə də bu zatın Əhəd və Vahid olması lazımdır. Yəni Əhədiyyət və Vahidiyyətdəki mənasını Onun zatında da nəzərdə tutmalıyıq. Belə bir zatın vücudunu etiraf edənlərin Zatı Tovhidə etiqadları vardır.

Zatı Şirk: Allah Taalanın iki ya çox zata sahib olduğunu qəbul etmək Zatı Şirk adlanır. Allah zat baxımından təkdir və heç bir şəriki və tayı-bərabəri, yaxud övladı olduğuna və ya Onun kiminsə övladı olduğuna inanan şəxslər Zatı Şirk əqidəsini daşıyırlar.

Qurani Kərim bu növ əqidəni tamamilə rədd olunmuş əqidə hesab edir.

Sifət Tovhidi: Allahın zatı Onun əlamətləri vasitəsi ilə tanıdığımız sifətlərə malikdir. Məsələn, Əlim (çox elmli), Həyy (həyatda olması), Həkim (hikmətli) və Qəyyum. Bu kimi sifətləri zatla əlaqələndirərək Təbarək və Taala olan Allahın zat və sifətininin Əhəd olduğunu söyləyirik. Çünki bütün bu sifətlər Allahın zatına qayıdır. Sifətdə çoxluq yoxdur və bütün sifətlər vahid bir sifətdir. Hər bir sifət digər sifətin eynidir; Məsələn, Onun elmi elə Onun qüdrətidir. Lakin bizim əlamətlər vasitəsi ilə düşüncə və dərkimizcə çoxluq təşkil edən sifətlər elə o Vahid zata aiddir. Beləliklə də Onun sifət və zatı, vahid bir zatın bir neçə sifətlə tərkib olunduğu kimi deyil, Vahiddir.

Əfali Tovhid: Əfali Tovhid Sifət Tovhidi kimidir. Belə ki, varlıq aləmində hər bir işin mənşəyi Pak Allahın zatı olaraq sonda Onunla tamamlanır. Əlbəttə, Onunla əlaqələndirib Ona bağladığımız hər bir iş Onun həmən başqa işinin eyni olacağını bilməyimiz lazımdır. Allahın işləri arasında heç bir ayrı-seçkilik və fərq yoxdur. Allahın işlərindəki ikilik, ya çoxluğun müşahidəsi isə bizim məhdud dərkimizə qayıdır.

"وَ لا تَقولنَّ لِشَيىء إنّي فَاعِلٌ ذَلِكَ غَداً * إلا أنْ يَشاءَ اللهُ وَ اذْكُرْ رَبَّكَ إذا نَسِيْتَ"[1]

"Heç vaxt sabah o işi edəcəyəm demə, Allah qoysa de. Unutduqda isə Pərvərdigarını yad et".

1 Kəhf (18), 23 və 24-cü ayələr.

Beləliklə, bizim bütün iradəmiz Onun iradəsi əhatəsində olub bütün işləri (əfalı) vahiddir (La hovlə və la quvvətə illa billah). Belə etiqad sahibləri, yəni bütün işləri Allahda tamamlandıran şəxslər Əfalı Tovhid əqidəsini daşıyırlar.

Əfali Şirk: Məxluqlar üçün ilahi iradədən asılı olmayan müstəqil iradə təsəvvür etməkdir. Belə ki, məxluqun gördüyü hər bir işin Allahın iradə dairəsindən xaric olduğunu təsəvvür etməkdir. Allah Taala Qurani Kərimdə bütün əfal və işlərin özünə aid olduğu haqqında belə buyurur:

"وَ مَا رَمَيْتَ اذْ رَمَيْتَ وَ لَكِنَّ اللهَ رَمى"[1]

Bu məsələ bizim Peyğəmbərimizin özünün Bədr savaşında düşmənə sarı torpaq və daş atdığını çox gözəl bildiyimiz halda belə düzgündür.

İbadi Tovhid: İndi ki, Allahın zatı, sifəti və əfalı haqqında söz açdıq, Haqq həzrətlərinin İbadi Tovhidi barəsində danışmaq lazım gəlir. Belə ki, tənha Onun zatı ibadətə layiqdir. Ona ibadətdə digərini şərik seçəriksə, bütpərəstlər və s... kimi İbadi Şirkə düçar olarıq. Aşağıdakı ayələr İbadi Tovhidə işarədir:

"ايّاكَ نَعْبُدُ وَ ايَّاكَ نَسْتَعِينُ"[2]

“Yalnız sənə ibadət edir və yalnız səndən kömək diləyirəm”.

Bu mövzuda başqa bir ayədə buyurur:

"قُلْ انَّ صَلَاتِي وَ نُسُكِي وَ مَحْيَايَ وَ مَمَاتِي للهِ رَبِّ الْعَالَمِينَ" [1]

1 Ənfal (8), 17-ci ayə.
2 Həmd (1), 5-ci ayə.

“De! Həqiqətdə mənim namazım, (digər) ibadətlərim, həyat və ölüm Aləmlərin pərvərdigarı Allah üçündür”.

İbadi Tovhid انَّ صَلَاتِي وَ نُسُكِي və Rübubi Tovhid isə مَحْيَايَ وَ مَمَاتِى cümlələrindən anlaşılır.

### *Vahabi əqidəsində Tovhid*

Vahabilər Tovhidin üç hissədən ibarət olduğuna əqidəlidirlər:

Rübubi Tovhid;

Üluvi Tovhid;

Ad və SİfətTovhidi;

Rübubi Tovid: Təkcə Allahın zatı bütün mütləq sifət və kamala malikdir. Başqa sözlə desək, Rübubi Tovhid mərifət, ideologiya və Allahı isbat etmək deməkdir. Buna dəlil olaraq “Kafirun” surəsindəki ayələr, həmçinin

“ قُلْ يَا أَهْلَ الْكِتَاب تَعَالُوا الَى كَلِمَةٍ... ”

Və digər ayələri nümunə gətirmək mümkündür.

**Ad və SİfətdƏ** Tovhid: Allahın SİfƏt və Adları Qədimdir.[2] Vahabilər bu tovhid növünü Sifət, ibadi və Əfali Tovhidin əvəzinə işlədirlər. Bu əqidə ikinci əsrin filosoflarının fikrincə Allahın sifət və adının qədimliyinə etiadı olan Əşairə əqidəsinə qayıdır. Vahabilər bu əqidəyə əsasən Quranın Allahın əfali sifəti olduğunu da qədim hesab edirlər. Onlar əlifba hərflərinin də qədim olduğunu qələmə verirlər.

---

1 Ənam (6), 162-ci ayə.

2 Burada Qədim, yeni sözünün qarşılıqlı və antonim mənasında deyildir. Həqiqətdə “hadis” sözünün antonimi olub, yəni, əvvəl olmayıb sonradan yaranmışdır.

Eyn, Nəfs, Həyat, Səmi, Bəsir, Vəch, Kəlam, Qidəm, Ricl (Vahabilər Allahın əl-ayağı olduğuna etiqadları vardır), Mülk, Əzəmət, Kibriya, Üluvv, Rəhmət, Qüdrət, Hikmət və bu kimi sifətlərin zatı Sifət, Təəccüb, Zihk (gülüş), Razılıq, Qəzəb, Kərahət, Məci (Qiyamət günü Allahın zühur etməsi), Nüzul (onların Allahın Ərş üzərində sakin olub səhər çağı asimandan yerə endiyinə inancları vardır), Xoşagəlməzlik və Sevincəklik kimi sifətləri isə Əfali sifət hesab edirlər.[1]

## *Vahabi firqəsində şirk və onun hüdudları*

Vahabiçilik əqidəsində şirk: Allahın şəriki olduğunu təsəvvür edib, Ondan başqasına müstəqillik verməkdemək dir. Habelə onlar peyğəmbərlərdən yardım diləyib, övliyalara sığınıb təvəssül etməyi də şirk hesab edirlər.

Belə bir təfəkkürə əsasən, Məsum İmamlar və peyğəmbərlərin qəbirlərini ziyarət etmək şirk olaraq bidətə səbəb olub haram sayılır.

Vahabilərin nəzərincə şiə müşrikdir və ya əqidəsinə bir növ şirk sirayət edərək daxil olmuşdur.

## Vahabi əqidəsi baxımından şirk və tovhidin siyasi-ictimai nəticələri

Məhəmməd Cavad Muğniyə yazır:

“Vahabilərin etiqadınca İslama daxil olmaq üçün yalnız ***“La ilahə illəllah”*** və ***“Əşhədu ənnə Muhəmmədən***

1 “Fəthul-Məcid”, səh. 33, 41 və 57.

***rəsulullah”*** demək kifayət deyildir. Həqiqətdə insanın bunları qəbul etdikdən sonra Allahdan özgəsinə sığınmaması, Peyğəmbəri ziyarət etmək qəsdi daşımaması, onun mübarək qəbrinə toxunub öpməməsi, ona and içməməsi, onu çağırmaması və ***“ya rəsulullah”*** ya ***“ya seyyidi”*** deyərək xitab etməməsi lazımdır”.

Məhəmməd ibn Səud (Səudiyyə hakimlərindən biridir) Məkkə şəhərində səltənəti zamanı nitqlərindən birində belə söyləmişdir:

“Vahabilərdən başqa bütün müsəlmanlar müşrikdirlər. Onların Vahabiçiliyi qəbul etmələri üçün qılıncla islah olmaları gərəkdir”. Lakin onun dediklərinin əksinə olaraq Vahabilərin o zamankı sultanı olan Məlik Feysəl 1342-ci ildəki bəyənatında vahabilərə xitab edərək deyir:

“Misirli, Hindistanlı və ... olmasından asılı olmayaraq bütün müsəlmanlar sizin qardaşlarınızdır”.

Bu sözün mənası budur ki, sizin müsəlmanlara qarşı bədbin olmamanız lazımdır və Məhəmməd ibn Əbdül Vəhhabın bu əqidəsi əsasında rəftar etməməniz gərəkdir.

Vahabilərin bu əqidəyə sadiq qalmaları, ictimai-siyasi cəhətdən bütün müsəlmanları müşrik hesab etmək, fitnə və qalmaqal prinsiplərini yaymaqdan başqa bir şeylə nəticələnməyəcəkdir. Belə bir əqidə isə istismarçılıq və anti-islam etiqadından başqa bir şey deyildir.

## Vahabiçilik və Şiə ideologiyasının Tovhid məsələsindəki fərqləri

Keçən söhbətlərdən aydın oldu ki, Vahabiçilik və Şiə məktəbinin Tovhid məsələsində kəmiyyət və keyfiyyəti arasında fərqi olduğu kimi, bu bölümün vahabilərin nəzərincə böyük əhəmiyyətə malik olan siyasi yönəm daşıdığının da şahidi olacayıq.

Vahabilərin bu bölgülərinin problemsiz olduğuna bəzi bəhanələr gətirmək mümkündür. Ona görə ki, bu məsələ yalnız əqli və intellektual nöqteyi-nəzərindən məhdudlanmış, İslam arif və filosofları arasında da münaqişələr nəzərə çarpır. Ancaq məna və məfhumların fərqli mənalarına göz yummaq olmaz.

Şiə alimləri Tovhidi Zati, Sifati, Əfali və İbadi hissələrinə, vahabi alimləri isə Rübubi, Üluvi, Sifət və Ada bölmüşlər.[1]

Islamşünaslar Allahın adlarının xüsusi və ümumi hissəyə bölündüyünü söyləyirlər. Xüsusi ad yalnız Allah Taalanın zatına məxsusdur. Məsələn, Allah xüsusi addır. Ümumi ad məfhum baxımından Allahın sifətləri ilə müştərək məna daşıyaraq Onun bəndələri üçün də işlənilir. Məsələn, Rəhman, Rəhim və Kərim. Bu sifəti insan ağılı çıxarış edib Allaha mənsub etmişdir.

Bu fərqlər sırf etiqadi cəhət daşıyarsa, bir o qədər də şiddətli və qıcıqlandırıcı deyildir. Amma bəzilərinin

1 Məhəmməd ibn Əbdül Vəhhab, "Ət-Tovhid vəl qoulus sədid fi məqasidit tovhid", səh. 13.

siyasi mənfəət əldə etmələri məqsədini nəzərə alaraq təhlil edib araşdırmaq lazımdır.

Vahabilər Tovhid mərhələlərinin bu növ bölümünü İbn Teymiyyədən, aldıqlarına o özü isə Əhməd ibn Hənbələ təqlid etdiyindən beləcə mənşələnmişdir.

Həmçinin, vahabilər Sifəti, Əfal və Zata bölməklə Allahın əl-ayaq, heyvani (maddi cisimlər kimi) get-gəl etmək əqidəsinə sahibdirlər ki, bu da onların Quran ayələrinin zahiri mənası ilə qane olmaları, əqli təhlil və dərkə arxalanmamaları nəticəsindədir. Onlar, xüsusilə Məsum İmamlar və Peyğəmbərin ali təlimlərindən ilhamlanan şiələrin "müəvvəlun" (yozulmuşlar) ünvanında tam tərdidlə yanaşdıqları Qiyamət günündə Allahı görmək, eşitmək, əl, ayaq, gəlmək və ... bu kimi məna verən ayələri yozmalarına müxalifdirlər. Nümunə olaraq, şiələr

على العرش استوى ayəsini Ərşdə həqiqi mənada oturmaq mənası kimi deyil Ərşdə ilahi hakimiyyət və müdiriyyət kimi yozumlayırlar.

## DÖRDÜNCÜ SÖHBƏT

### *Şiə və Vahabiçilik etiqadı əsasında təvəssül, ölüm və şəfaət*

### Vahabiçilik və təvəssül

Bu fəsldə vahabi nəzərincə təvəssül məsələsi araşdırılacaqdır. Bu firqənin alimləri deyirlər:

"Allahdan qeyrisinə təvəssül etmək, insanın hansısa bir qəbirlə üzbəüz dayanıb namaz qılması Rübubi Tovhidlə uyğun gəlmir". Onların nəzərincə Tovhidin tələb etdiyi şey Allahdan başqasına, hətta İslam Peyğəmbərinə (s) belə təvəssül olunmamasıdır. Çünki təvəssül, şəfaət və bu kimi məfhumlar Peyğəmbər adəti və salehlərin sünnəsi olmamaqla yanaşı Quran da belə bir əqidəni şirk hesab etmişdir.[1]

"Tovhid bil luğətil farsiyyə" kitabında yazılır:

"Allahdan başqa kimsədən kömək istəmək şirkdir. Ondan digərinə təvəssül edib ona pənah aparmaq belə şirk məsələsinə aiddir..... Allahın sözləri Onun eyni zatı kimi qədimdir (yəni məxluq deyil, yaradılmamışdır). Elə bu səbəbə görə də o sözlərə sığınmaq və pənah aparıb kömək istəmək olar. Qeyri surətdə şirk hesab olunur".[2]

Həmən kitabda bu mövzunun ardınca deyilir:

1 "Fəthul-Məcid", səh. 98.
2 Səh. 140.

“Mübarək “Cin” surəsinin 6-cı ayəsindən belə nəticəyə gəlmək olar ki, Allahdan başqa hətta cinlərdən belə kömək istəmək olmaz. Beləliklə, ilahi peyğəmbərlər də belə qaydadan müstəsna olmamışlar. Yəni, onlardan da yardım istəmək olmaz”.[1]

Bu şübhəyə belə cavab vermək olar:

Birincisi, bu ayə cinlər barəsində nazil olmuşdur. Bu ayənin nazil olmasına səbəb olan məsələ o zaman cahil ərəblərin cinlərin biyabanlarda yaşadığını sanması idi. Onlar elə bilirdilər ki, şəhərdən çıxmaq üçün cinlərin başçısından kömək diləyib ona “Ey cinlərin padşahı, bizi cinlərin şərrindən xilas et və bizi onlardan qoru” demək lazımdır.

Əlbəttə, şübhəsiz cindən yardım istəmək haramdır. Çünki, Allah birbaşa bu işi qadağan etmişdir. Bundan əlavə Allahı qəbul etməyən kəsdən yardım istəməyən kəsdən yardım diləməyin özü açıq-açkar xilafdır.

Ikincisi, Allahla birbaşa rabitədə olan, vəhyin nazil olma məkanı sayılan peyğəmbərlərlə Allahı tanımayan cinlərin çox fərqi vardır. Beləliklə də, İslam əqidəsi Mütəal Allahdan mədəd diləyib Ona yaxın olanları şəfaətverici kimi qəbul etməyi tələb edir.

Bundan öncə vahabi alimlərinin Allahdan qeyrisinə təvəssülün haram olması barəsində nəzəriyyələrini qeyd etmişdik. Indi isə onların bu barədə dəlillərini nəzərinizə çatdırırıq:

---

1 ”و انَّهُ كَانَ رِجَالٌ مِنَ الإنْس يَعُوذُونَ برِجَال مِنَ الْجِنِّ فَزادُوهُمْ رَهَقاً"

Birinci dəlil:

"قُلْ ادْعُوا الَّذِينَ زَعَمْتُمْ مِنْ دُونِهِ فَلا يَمْلِكُونَ كَشْف الضُّرّ عَنْكُمْ وَ لَا تَحْوِيلًا * أُولئكَ الَّذِينَ يَدْعُونَ يَبْتَغُونَ اِلى رَبِّهِمْ الْوَسِيلَةَ أَيُّهُمْ أقْرَبُ وَ يَرْجُونَ رَحْمَتَهُ وَ يَخَافُونَ عَذَابَهُ اِنَّ عَذَابَ رَبِّكَ كَانَ مَحْذُوراً"[1]

“Ey peyğəmbər! Allahdan başqasına etiqadı olanlara de: Onlar sizin çətinlik və narahatçılığınıza çarə tapıb həll etməyə qadir deyildirlər. Bəli, bu şəxslər Allahın onlara daha yaxın olduğunu bilə-bilə Ondan qeyrisini Onunla özləri arasında vasitə edirlər. Allahın rəhmətinə ümidvar olduqları halda Onun əzabından qorxurlar (qorxmaları lazımdır). Çünki Onun əzabı qorxuludur”.

Onlar bu mübarək ayələrə istinad edərək Allahdan başqa heç bir kəsə təvəssül edib yardım istəməmək nəticəsinə gəlmişlər.

Bu ayələrin təhlili: Bu iki ayə digər ayələri nəzərdə tutmamaq və onların zahiri ilə kifayətlənməmək şərti ilə vahabi alimlərinin sözünü təsdiqləyir. Çünki, Pərvərdigarın kəlamı əsasında insan Ona yaxınlaşmaqdan ötrü daha yaxın vasitəni qoyub zərəri uzaqlaşdırmağa qadir olmayan uzaq vasitəyə, yəni “min dunillah”a (Allahdan qeyrisinə) təvəssül edib Allahı unudarsa, Rübubi Şirk sərhədində dayanmışdır. Xatırlamaq lazımdır ki, Allahın izni ilə başqalarına da təvəssül etmək haqqında digər ayələr də mövcuddur. Belə halda Allahın təsdiqlədiyi şəxslərdən kömək istəməklə yanaşı şirk məsələsinin meydana gəlməsinə

1 İsra (17), 56 və 57-ci ayələr.

heç bir şərait yaranmır. Əgər vahabi alimləri başqa ayələri də nəzərə alsaydılar, heç vaxt belə bir böyük səhvə yol verməzdilər.

## Zəifin güclüdən kömək istəməsi

Təvəssül yaranış aləminin qanunlarından olub məqsədə çatmaq üçün ən yüksək vasitədən kömək istəmək mənasını daşıyır. Təvəssülün bir nümunəsi hadisə zamanı körpə uşağın anasına təvəssül etməsidir. Bu məna bəşərin ictimai, siyasi, etiqadi, maddi və mənəvi sahələrində işlənir. Allaha təvəssül etmək isə elə kamil qüdrət və qüvvətə sığınmaqdır. Peyğəmbərlər və övliyaullahlara təvəssül etmək zəiflərin güclüdən kömək istəməsidir. Bu cəhətdən peyğəmbərlər digər insanlara nisbətən üstündürlər. Beləliklə də onlara təvəssül edib onların sünnə adlanan rəftar tərzlərini örnək kimi qəbul etmək olar.

## Quranda təvəssül

Müxtəlif ayə və rəvayətlər övliyalara təvəssül etmək mövzusuna toxunmuşdur. Nümunə olaraq Yəqub peyğəmbərin övladlarına aid olan ayəni qeyd etmək olar:

"يَا أَبَانَا أَسْتَغْفِرْ لَنَا ذُنُوبَنَا انا كُنَّا خَاطِئِين * قَالَ سَوْفَ أَسْتَغْفِرُ لَكُمْ رَبِّي إِنَّهُ هُوَ الْغَفُورُ الرَّحِيم"[1]

"Atacan, bizim üçün bağışlanmaq tələb et. Çünki biz xəta etmişik. Ataları (Yəqub) cavabında dedi: Sizin üçün

1 Yusuf (12), 97 və 98-ci ayələr.

bağışlanmaq (istiğfar) tələb edərəm ki, həqiqətən də Pərvərdigar Bağışlayan və Mehribandır”.

Bu ayədə Yəqubun övladları atalarına təvəssül edirlər. Onlar bir neçə xəta etmişdilər: Birincisi, Allahın iki peyğəmbərinə (Yəqub və Yusuf) əziyyət edərək onları kədərləndirmiş, atalarına yalan söyləmişdilər. İkincisi, valideynləri əziyyətə salmamaq və yalan danışmamaq barəsində Allahın fərmanından boyun qaçırmışdılar. Bu xətalar əfv olunmalı xəta olduqları üçün övladlar atalarını şəfaətverici seçirlər və bu da Quran tərəfindən rədd yaxud inkar olunmamışdır.

Allah dərgahının ən yaxınları sayılan o iki nəfərə təvəssül edən Yəqubun övladlarını Pərvərdigarın bu işdən çəkindirməməsindən belə nəticəyə gəlmək olar ki, peyğəmbərlərdən kömək istəməyin heç bir eybi yoxdur. Çünki onların ülvi rütbələri və əzəmətli məqamları heç kəsə gizli deyildir.

Bu mövzuda şahid gətirəcəyimiz digər ayə isə budur:

" وَ لَوْ أَنَّهُمْ إِذْ ظَلَمُوا أَنْفُسَهُمْ جاءُوكَ فَاسْتَغْفِرُوا اللهَ وَاسْتَغَفر لَهُمُ الرَّسُولُ لوجَدُوا اللهَ تَوَّاباً رَحِيماً". [1]

“Əgər onlar özlərinə zülm etdikdən sonra sənin yanına gəlsəydilər və Allahdan əfv tələb etsəydilər və peyğəmbər (də) onların bağışlanması üçün xahiş etsəydi, yəqinliklə Allahı tövbələri qəbul edən və Mehriban görərdilər”.

1 Nisa (4), 64-cü ayə.

Bu ayədən alınan nəticə günahların bağışlanmasında Peyğəmbərə (s) təvəssül etməyin mümkün olmasıdır.

İlk ayə barəsində Yəqub peyğəmbərin övladlarının atalarına onun sağlığında təvəssül etdikləri iradı tutula bilər. Yəni, ölmüş insanlara deyil, diri adamlara təvəssül etmək olar. Bu xüsusda təbərrük mövzusunda söhbət açacayıq.

Ikinci ayədən alınan nəticəyə əsasən demək olar ki, Peyğəmbərə (s) təvəssül etmək ümumi və küllidir. Yəni həm onun həyatı dövründə və həm də ölümündən sonrakı zamana şamil olur. Burada həyatı dövrünə aid olması barədə qeyd zikr olunmamışdır.

Bəzilərinin bu aşağıdakı ayəyə istinadı əsasında bütpərəstliyi pisləyib onun bir növ şirk olduğunu deyir, Allahdan qeyrisinə təvəssülü də azğınlıq hesab etmələri imkanı da vardır:

"وَ قَالُوا لا تذرُنَّ آلِهَتَكُمْ وَ لا تَذرُنَّ وَدّاً وَ لا سُواعاً وَ لا يَغُوثَ وَ يَعُوقَ وَ نَسْراً * وَ قَدْ اضَلُّوا كَثِيراً وَ لا تزد الظَّالِمِينَ الا ضَلَالاً"[1]

“Dedilər məbada öz allahlarınızı, nə ***“Vəddəni”***, nə ***“Sovanı”*** , nə ***“Yəğusu”*** və nə də ***“Yəuqu”*** əldən buraxmayın. Və bir çoxlarını yolundan azdırdılar. (İlahi) zülmkarların azğınlığını çox et”.

Onlara cavabında deyirik: Əgər Allahdan qeyrisi dedikdə bütlər nəzərdə tutularsa, bu sözə irad tutmaq olmaz. Ancaq əgər Allahdan qeyrisi dedikdə ilahi övliyalar və peyğəmbərlər nəzərdə tutlarsa, problemlə rastlaşarıq. Çünki, bu şəxslər Allahın etimadlı kəsləri və

1 Nuh (71), 23 və 24-cü ayələr.

***“Xəlifətullah”***dırlar. Bundan əlavə bütlər Allahla paralel bir cərgədə, Haqq həzrətlərinin qarşısında nəzərdə tutulur. Lakin övliyalar Ondan sonrakı cərgədə (elə həmən sırada), Onun feyz vasitəçiləridirlər. Həmçinin bütlər Hagg yolundan azdıran, peyğəmbərlər isə yolgöstərici və sadiqlik simvoludurlar. Peyğəmbərlərə və bütlərə təvəssül etməyi müqayisəsi fərqlilik müqayisəsi olaraq batildir.

Başqa bir məsələ isə bütlərin Allaha yaxınlaşmaq vasitəsi deyil, ibadətin əsl mövzusu olmasıdır. Allaha yaxınlaşmaq vasitələri iki növdür: Peyğəmbərlər və övliyalar hesab olunan şəri, dinin insanlara qadağan etdiyi büt kimi qeyri-şəri növü.

## Vahabilərin nəzərincə ölüm nə deməkdir?

Ölüm haqqında müxtəlif versiyalar irəli sürülmüşdür. Biz isə burada vahabilərin bu barədə fikirlərini nəzərinizə çatdırmaq istəyirik. Ibn Qəyyim Covzidən belə nəql olunur:

“İslam Peyğəmbəri (s) olmuş olsa da belə meyitə təvəssül etmək çirkdir. Ona görə ki, Quranın buyurduğuna əsasən meyit puç olmuş hesab olunur.

"اِنَّكَ مَيِّتٌ وَ اِنَّهُمْ مَيِّتُونَ" [1]

“Sən ey peyğəmbər, vəfat edəcəksən, onlar da vəfat edəcəklər”.

Sonra sözünün davamında belə deyir:

---

1 Zümər (39), 30-cu ayə.

“Ölülərdən yardım diləyib, ***“ya seyyidi”*** (ey mənim ağam), ***“ya rəsulallah unsurni”*** (ey rəsulallah mənə kömək et) ***“ya seyyidi Əli ibn Əbi Talib əğisni”*** (ey mənim ağam Əli ibn Əbi Talib mənə yardım et) və bu kimi sözləri dilə gətirmək şirkdir”.[1]

Çox maraqlıdır ki, İbn Qəyyim və vahabilər Quranın Bərzəx əhli üçün onların diri olduqlarını təkid[2] etdiyi halda belə necə Bərzəx həyatına inanmır və ölülərin digər adamlarla ruhi və mənəvi rabitədə olmadıqlarını güman edirlər?! Ya da Quranın şəhidlər barəsində ***“Allah yolunda öldürülmüşləri ölü hesab etməyin. Əslində onlar sağdırlar və Pərvərdigarları tərəfindən ruzilənirlər”*** [3] dediyini bildikləri halda belə necə şəhidlərin ölü olduğunu sanırlar.

Şeyx Məhəmməd bin Əbdül Vəhhab Qurani Kərimin

"فَكَشَفْنَا عَنْكَ غطَاءَكَ فَبَصَرُكَ الْيَوْم حَدِيد"[4]

“Və biz sənin (gözlərin önündən) pərdəni götürdük və bu gün baxışın itidir”.

Ya digər yerdə:

"وَ لَهُمْ رِزْقُهُمْ فِيهَا بكرة وَ عَشِيّاً"[5]

“Onların ruziləri (Bərzəx əhlinin) səhər və axşam orada hazırdır” buyurduğunu bilə-bilə necə “ölən hər kəs puç olur” deyə fikirləşə bilirlər?!

Bu ayələrə diqqətlə nəzər saldıqda Bərzəx dünyasında gecə-gündüzün olduğu üçün dünyadan

1 “Fəthul-Məcid”, səh. 197.
2 Mömin (40), 46-cı ayə.
3 Ali-İmran (3), 169-cu ayə.
4 Qaf (50), 22-ci ayə.
5 Məryəm (19), 35-ci ayə.

köçmüşlər ruzilənirlər və buna görə də o aləm (Bərzəx) sakinlərini puç hesab etmək olmaz. Əlbəttə, gecə və gündüz Bərzəx əhlinə aiddir. Çünki Qiyamətdə bu versiyaların təsəvvürü üçün Günəş yoxdur. Bununla da belə nəticəyə gəlirik ki, ölüm puçluğa qovuşmaq deyildir və vahabilərin bu barədə nəzəriyyəsi isə özü-özlüyündə batildir.

## Müqəddəs vücudlara təvəssül etmək izni

Qurani Kərim bu ayədə İlahi dərgaha yaxınlaşmaq üçün Haqq həzrətlərinin seçilmişlərinə təvəssül edib onlara pənah aparmağı rəva bilərək izn vermişdir:

"يَا اَيُهَا الَّذِينَ آمَنُوا اتَّقُوا اللهَ وَابْتَغُوا اِلَيْهِ الْوَسِيلَةَ وَ جَاهِدُوا فِى سَبِيلِهِ لَعَلَّكُمْ تُفْلِحُونَ"[1]

"Ey iman gətirən şəxslər, Allahdan qorxun və Ona (təvəssül edib) yaxınlaşmağa çalışın və Onun yolunda cihad edin, bəlkə xilas olasınız".

Bu ayədə vasitələrlə təvəssül cəhd etmək ümumi halda deyildiyinə baxmayaraq, Quran ayələrində və rəvayətlərdə qeyd olunan digər analogiyaya əsasən demək olar ki, bu vasitələrin ən aşkar nümunəsi peyğəmbərlər və övliyalardır. Ayənin məfhumunu nəzərə alaraq belə bəyan etmək olar:

Allaha sığınmağın özünün feyzin nəticəsi olduğunu nəzərdə tutaraq kamilliklə təqvaya riayət edin. İxlas və təqva nəticəsində məqamlar əldə edən, təvəssül olunan

1 Qaf (50), 22-ci ayə.

şəxslərin müstəqil olmaması mümkündür. Lakin sizin də təvəssül etmək üçün təqvaya riayət etməniz lazımdır.

### Həyatda olanlara təvəssül edib yardım diləmək

Bu dünyada ömür sürənlərdən yardım diləyib kömək istəmək də olar. Bunu şirk hesab etmək olmaz. Bu, Quran dastanlarının düzgün bilib təsdiqlədiyi məsələlərdəndir. Məsələn, Yusif peyğəmbər zindanda olarkən öz zindan yoldaşına azad olan kimi onun vəziyyəti barədə zamanın padşahı ilə söhbət etməsini xahiş edir.[1] (اذكرني عند ربك) Yaxud da Xızır peyğəmbərlə Musa (əleyhiməssəlam) bir kəndə çatdıqları zaman o kəndin camaatından xahiş etdilər (فَانْطَلَقَا حَتَّى إِذَا أَتَيَا اهل قريه اسْتَطْعَمَا أَهْلَهَا[2]) Beləliklə, kəndə gedib oranın camaatına çatdılar. Oranın adamlarından kömək istədilər.

Bu üç böyük şəxsiyyətin belə rəftarları şirk olmadığı halda belə hətta ağıllı bir rəftar sayılaraq onların isməti ilə heç bir təzadı yoxdur. Bu sözləri təsdiqləmək üçün Peyğəmbərə (s) olunan bu xitab ayəsinə istinad etmək olar:

“Onlar özlərinə zülm etdikləri zaman sənin yanına gəlib Allahdan bağışlanmalarını istəsəydilər və peyğəmbər (də) onlar üçün əfv olunmalarını istəsəydi, yəqinliklə onlar Allahın Mehribanlığının şahidi olardılar”.[3]

---

1 Yusuf (12), 42-ci ayə.
2 Kəhf (18), 77-ci ayə.
3 Nisa (4), 64-cü ayə.

Bu ayəyə əsasən Peyğəmbər (s) günahkarların şəfaət vericisi olması icazəsi verilmişdir. Şiə etiqadına əsasən isə bu vasitəçilik yalnız Peyğəmbərin (s) həyatı dövrünə aid olmayıb hələ də davam edir.

## Allahın zatına təvəssül üstündürmü?

Bu mövzuda söhbətimizi bitirməzdən öncə bu suala cavab vermək istərdik: Allahın zatına təvəssül etmək üstündür yaxud övliyaullahların? "أَيُّهُمْ أَقْرَبُ" ayəsindən Allah Taalaya olan təvəssülün öncə olduğu nəticəsinə gəlmək olar. Yəni imkan olduğu qədər yalnız Allahdan yardım istəmək lazımdır. Bu islamçı ariflərin sadiq qaldığı bir üsuldur. Lakin insanlar çox zaman həyat keçidində ağıl, fitrət və digər vasitələrdən istifadə etdikləri kimi, mənəvi dəyərlər və yaxın ilahi münasibətlərdən də kömək umurlar.

## Təvəssül elə bəndəliyin özüdür

Peyğəmbərlər və ilahi övliyalara təvəssül etmək Allahın fərmanı ilə mələklərə səcdə etmək kimi olduğu üçün bu şəxslərə təvəssül etmək elə bəndəliyin və ibadətin özü deməkdir. Müsəlman firqələri arasında təvəssül və onun ibadi xüsusiyyətlərinə etiqadı olmayan yalnız vahabiçilikdir. Qeyd etmək lazımdır ki, bu məzhəbi firqənin başçıları özünün səhv və düzgün olmayan təfəkkürünə hakimiyyət bağışlamaq istəyirlər.

Sadəcə olaraq biz vahabilərin təvəssül barəsində nəzəriyyələrinin düzgün bir fikir olmadığını iddia edib

onlarla müxalifətçiliyimizin səbəbini etibarlı rəvayət və hədislərin əsasında bu firqə etiqadının əksini isbat etmək istəyirik. Nümunə olaraq bu hədisi diqqətinizə çatdırmaq istəyirik: Peyğəmbərin (s) vəfatından sonra ərəblərdən bir nəfər Peyğəmbərin (s) türbətinə (qəbrinə) yaxınlaşır və türbətin üzərinə yıxılaraq qəbir torpağını başına tökərək belə xitab edir: Ey Rəsulallah, sizdən

" وَ لَوْ أَنَّهُمْ إِذْ ظَلَمُوا أَنْفُسَهُمْ جَاءُوكَ"[1]

Bu ayəni eşitmişəm. İndi isə özümə qarşı zülm edib günahlarımın bağışlanması üçün buraya gəlmişəm". Hədisin sonunda bu hadisə haqqında belə deyilir:

"فَنُودِي مِنَ الْقَبْرِ قَدْ غَفَرَ لَكَ"

"Qəbirdən nida gəldi ki, Allah səni əfv etdi".

Digər rəvayətdə deyilir: Bir dəfə Məkkədə qıtlıq olur. Səhabələrdən olan Bilal ibn Haris Peyğəmbərin (s) qəbri üstünə gəlir və deyir: Ey Rəsulallah, bir neçə vaxtdır ki, yağış yağmır. Allahdan bizim üçün rəhmət yağışını göndərməsini xahiş et. Həmin gecə Peyğəmbər (s) yuxu aləmində ona deyir: Tezliklə ilahinin rəhmət yağışindan bəhrələnəcəksiniz.

Yeri gəlmişkən, sünnə əhlinin görkəmli şəxslərindən olan Məhəmməd ibn İdris Şafei Əhli Beytə təvəssül etməyə izn verdiyi məsələ haqqında söhbət etmək faydasız olmazdı. O deyir:

"آل النَبي ذَرْعَتِي وَ هُمْ إِلَيْهِ وَسِيلَتِي"

"Peyğəmbərin (s) Əhli Beyti mənin dirəyim və Allah Taalaya yaxınlaşmaq üçün vasitələrimdirdər".

1 Nisa (4), 64-cü ayə.

Fatimeyi-Zəhra (s) barəsində belə bir rəvayət nəql olunur:

"أن فَاطِمَةَ – سلام الله عليها – جَاءَتْ فَوَقَفَتْ عَلَى قَبْرِ رَسُولِ الله (ص) فَاَخَذَتْ قَبْضَةً مِنْ تُرَابِ الْقَبْرِ فَوَضَعتها عَلَى عيْنَهَا فَبَكَتْ"

“Fatimə - salamullah əleyha – Rəsulullahın (s) qəbri üstünə gəldi və o həzrətin qəbirindən bir miqdar torpaq götürüb gözünə sürtdükdən sonra ağladı”.

Bu hədisdən belə məlum olur ki, Peyğəmbər (s), Məsum İmamlar və din başçılarına ehtiyac əli uzatmaq heç də dini etiqadın əksinə deyildir. Çünki, Fatimeyi Zəhra kimi bir şəxsiyyət əziz atasının qəbri üstə gedərək ona təvəssül etdiyi halda nə üçün digərləri üçün qadağan olmalıdır?! Bu məzmunda belə bir rəvayət də vardır:

“Yağıntı olmadığından qıtlıq çəkənlərdən bir neçə nəfər (Peyğəmbərin (s) həyat yoldaşı) Aişənin evinə gəlib ondan məsləhət istədilər. Aişə onlara dedi: Peyğəmbərin (s) hörmətinə görə yağış yağması üçün onun mübarək məqbərəsinin tavanından qəbirin səmadan görünəcəyi qədər bir dəlik açın”.

Səhabələrin şəfa tapıb təbərrük etmək üçün Peyğəmbərin (s) türbətinə təvəssül etmələri barədə ***“Əttəbərrok”*** [1] adlı kitabda çoxlu hədislər nəql olunmuşdur.

---

1 Ayətullah Əhmədi Miyanci, “Əttəbərrok”, səh. 147-151, Beyrut çapı.

## Əbdül Vəhhab və İbn Teymiyyənin nəzərində şəfaət

Şeyx Məhəmməd bin Əbdül Vəhhab, İbn Teymiyyə və digər vahabilər bir neçə ayə əsasında Allahdan qeyrisindən yardım diləmək, ya onlardan şəfaət tələb etməyi şirk sayırlar. Onların əsas dəlilləri Yunus surəsinin 18-ci ayəsindəki "من دون الله" sözüdür. Vahabilər peyğəmbərlər, övliyalar, bütlər, cinlər və ölüləri bu ayənin açıq-aşkar nümünəsi hesab edirlər.

Onlar həqiqətdə Peyğəmbərin bu dünyadan köçərək əlinin hər yerdən kəsildiyi, bir iş görə bilməyəcəyi təfəkkürü ilə cahillik dövründə onların babalarının diqqətini özünə cəlb edən cahillik bütləri ilə Peyğəmbərin o böyük şəxsiyyəti arasında fərq qoymurlar. Elə bu səbəbə görə də Qiyamət günü yalnız Allahın şəfaətini müsbət, Peyğəmbərin özünün və digər övliyaların şəfaətini isə mənfi cilvələndirirlər.

Vahabilərin sözlərinin zahirindən belə çıxır ki, bu firqə tam surətdə şəfaəti inkar edir. Amma onlar şəfaəti də iki hissəyə: müsbət və mənfi şəfaətə bölürlər.

1. Müsbət şəfaət yalnız Allah Taalaya məxsusdur və bir çox ayələr buna sübutdur. Şəfaətin bu növü haqqında heç bir mübahisə yoxdur.

2. Mənfi şəfaət, Allahdan qeyrisinə məsələn, peyğəmbərlərə, övliyalara olan şəfaət - əlbəttə onların həyatda olmadıqları halda - yaranır;

Vahabilərin bu etiqadlarının əsas dəlili bu mübarək ayədir:

"وَ يَعْبُدُونَ مِنْ دُونِ اللهِ مَا لا يَضُرُّهُمْ وَ لا يَنْفَعُهُم وَ يَقُولُونَ هَؤُلاءِ شُفَعَائُنَا عِنْدَ اللهِ"[1]

“Allahın əvəzinə onlara nə ziyan verən və nə də mənfəət verən şeylərə sitayiş edirlər və deyirlər: Bunlar Allah dərgahında bizim şəfaətvericilərimizdir”.

Şərif ayənin təhlili: Ayənin zahiri mənasından Allah Taalanın insanların şəfaətini deyil, bütlərin şəfaətini inkar etdiyi sübut olunur. Bir başqa sözlə desək من دون الله sözünü deməkdə məqsəd bütlərdirlər. Haqqın qəbul etmədiyi şəfaət bütlərin edəcəyi şəfaətdir. Aşağıdakı ayə isə bu məzmunu təsdiqləyir:

"وَ لا يُقْبَلُ مِنْهَا شَفَاعَةٌ وَ لا يُؤخَذُ مِنْهاَ عَدْل وَ لا هُمْ يُنْصَرُونَ"[2]

“Ondan nə şəfaət qəbul ediləcək, nə onun əvəzi götürüləcək və nə də yardım ediləcəkdir”.

Qurani Kərimdə çox işlənən "من دون الله" kəlməsindən ümumiyyətlə, mütləq surətdə şəfaətin inkar olunduğu istifadə olunur. Lakin bu ümumilik və mütləqlik digər ayələr vasitəsi ilə azalaraq şəfaətin müəyyən şəraitlərə sahib olan şəxslər tərəfindən də olunmasına gətirib çıxarır. Aşağıdakı ayələr bu məsələyə işarədir:

"وَ لا تَنْفَعُ الشَّفَاعَةُ عِنْدَهُ إلَا لِمَنْ اَذِنَ لَهُ "[3]

“Onun dərgahında Onun izni olmadan heç bir şəfaətverici fayda verməyəcək”.

"مَنْ ذَا الَّذِى يَشْفَعُ عنده اِلا بِاِذْنِهِ"[4]

---

1 Yunus (10), 18-ci ayə.
2 Bəqərə (2), 48-ci ayə.
3 Səbə (34), 23-cü ayə.
4 Bəqərə (2), 255-ci ayə.

“Allah dərgahında onun izn verdiyi şəxslərdən başqa şəfaətveici kimdir?”.

"يَوْمَئِذٍ لا تَنْفَعُ الشَّفَاعَةُ اِلا مَنْ أَذِنَ لَهُ الرَّحْمَنُ وَ رَضِي لَهُ قَوْلاً"[1]

“Rəhman Allahın, sözünü bəyənib icazə verdiyi kəsdən başqa O gündə heç bir şəfaət fayda verməz”.

"وَ لا يَشْفَعُونَ اِلا لِمَنِ ارْتَضَى..."[2]

“Onun razılıq verdiyi kəsdən başqa heç kəs şəfaət verməz”.

Beləliklə, da bu ayələrdən belə nəticəyə gəlmək olar ki, yalnız İlahi iznə sahib olanlar şəfaət verə bilərlər.

Burada belə bir sual meydana çıxır. Peyğəmbərlər və övliyaların şəfaətini inkar edənlər bu ayələri görməyə bilərlərmi yaxud bu iddiaları üçün digər dəlilləri vardırmı?

Cavabında demək lazımdır ki, vahabilərin şiələrlə inadkarlıqları onları şəfaəti təsdiqləyən deyil, inkar edən ayələrə diqqət etməyə vadar etmişdir. Onlar bu siyasət metodları ilə islam dünyasını şiənin əleyhinə qaldırmaq üçün onları küfr damğası ilə ittiham etmək istəyirlər. Beləliklə də vahabilərin bəzi məzhəbi etiqadlarında istemarçıların gizlin uzanan əllərini müşahidə etmək olar.

Bu etiqad növünün müqabilində Quran və Peyğəmbər sünnəsinə arxalanan, Qiyamət günündə peyğəmbərlərin və övliyaların şəfaətini qəbul edib onların müqəddəs türbətlərinə ehtiramla yanaşan,

1 Taha (20), 109-cu ayə.
2 Ənbiya (21), 28-ci ayə.

xüsusilə Peyğəmbərə (s) xüsusi hörmət bəsləyən şiə əqidəsi belə bir etiqadı bir çox maddi və mənəvi təsirlərin mənşəyi hesab edir. Vahabilər (bu əqidəni nöqsanlı etməkdən ötrü) yalnız təvəssül edib qəbir daşlarını ziyarət etməyi haram və şirk hökmünü vermək deyil, tamamilə şəfaətin əsaslarını inkar edirlər.[1] Bu iş Peyğəmbər (s) və Məsum İmamlardan uzaqlaşmaqla nəticələnəcəkdir ki, bir növ İslamın əleyhinə gizli mübarizədir.

## Təvəssül və şəfaətin inkarı tarixi

Sünnə əhlinin hicri-qəməri tarixinin 7-ci əsrində yaşamış Hənbəli alimlərindən olan İbn Teymiyyə təvəssül və şəfaət barəsində belə deyir:

"Allahı nəzərdə tutmadan - hətta peyğəmbər olmuş olsa belə - ölüdən kömək istəmək, ya ölmüş şəxsdən Allahdan bizim hacətimizi yerinə yetirməsini istəmək, ya Allahdan: Ey Allahım, hansısa bir şəxsin məqamına xatir bizim hacətimizi yerinə yetir... və bu kimi sözlər demək qadağan olub məsləhət görülmür. Bunların hamısı sonda ibadətdə şirklə nəticələnir".[2]

Vahabilərin təfəkkür özülçüsünün İbn Teymiyyə olduğunu gördüyümüz kimi Məhəmməd ibn Əbdül Vəhhab xüsusilə təvəssül və şəfaətin inkarı əqidəsini daha şiddətli təəssübkeşliklə müzakirə edir. Fürsət

---

1 Daha çox məlumat almaq üçün Seyid İbrahim Ələvinin "Tarixçeye nəqd və bərresiye vahabiyan" kitabının 257-353 səhifələrinə və digər kitablara müraciət edin.

2 Mahmud Mehdi Əl-İstanbuli, İbn Teymiyyənin "Bətələl islahud-diniy", Əl-Məktəbul İslami nəşriyyatı, Beyrut, səh. 136 və 139.

güdən [1] istemarçı qüvvələr də vahabilərin digər məzhəblərlə təzadlı təfəkkür tarixindən bəhrələnmək üçün həmişə çalışıb və çalışmaqdadırlar. Belə isə, vahabi etiqadının azyaşlı tarixinin özü vahabiçilik cərəyanının məzhəb olmamasına aşkar dəlil olduğuna görə bu firqəni İslami firqələrdən saymaq düzgün deyildir. Çünki elə ilk günlərdən müsəlman milləti, xüsusilə də sünnə əhli İbn Teymiyyə və onun davamçılarının təfəkkürünü dinin xilafına və bidət olduğunu söyləmişdilər.

## İbn Teymiyyənin fikirləri və sünnə əhlinin etirazı

Təqiyyuddin Əbul Abbas Əhməd ibn Teymiyyə hicri-qəməri tarixinin 661-ci ilində Türkiyənin kürdlər yaşayan zonası Urfa şəhərində anadan olmuşdur. Tatarların İslam dövlətlərinə həmləsi zamanı, o, ailəsi ilə Dəməşqə gedir və orada Hənbəli mədrəsəsinə daxil olub Quran əzbərləməyə başlayır. Bu dövrdə o, İbn Hənbəlin "Müsnəd" və Təbərinin "Əlmocəm" kitablarını oxuyaraq digər elmləri öyrənməklə məşğul olur. Deyirlər gözəl hafizə və fövqəladə istedad sahibi imiş.[2]

Həddən artıq bacarıq və zövqü onu təhsil illərində bir çox fikri problemlərlə qarşılaşdırır. Ustadlarının nəzər-cavabları ilə qane olmayan İbn Teymiyyə yavaş-yavaş

1 Bulanlıq sudan balıq tutanlar (kitabda bu atalar sözü istifadə olunmuşdur).

2 Mahmud Mehdi Əl-İstanbuli, İbn Teymiyyə "Bətələl islahud-diniy", Əl-Məktəbul İslami nəşriyyatı, Beyrut, səh. 16.

zamanın alim və fəqihlərinin etirazına səbəb olaraq həbsə alınıb sürgün düşməsi ilə nəticələnir.

İbn Teymiyyə tövbə etdikdən sonra dövrün hakimi olan Əl-Sultan Nasir hicri-qəməri tarixinin 709-cu ilində onu yenidən Dəməşqə göndərir. O isə alimlər və fəqihlər ilə sülh yolu ilə davranır.[1] Hicri-qəməri tarixinin 720-ci ilində yenə də fəqihlərlə "talaq" məsələsi barəsində nəzəriyyəsinə görə zindana düşərək 721-ci ildə Sultanın məktubu əsasında azad olunur.

Azadlığa çıxandan sonra isə bu dəfə də verdiyi fitvalara görə ölkəsinin şiə və sünnü alimləri ilə ixtilafa düçar olaraq zamanın hökumətinin fərmanı ilə Dəməşq qülləsində zündana düşür.

Bu dəfə hökümət onun fitva verməsini qadağan edərək Şafei hakiminin fitvası əsasında onun bütün şagirdlərini, o cümlədən İbn Qəyyim Covzini, həbsə alırlar. Yeri gəlmişkən demək lazımdır ki, camaat ondan çox narahat olduqları üçün hətta onu öldürmək qərarına da gəlmişdilər.

## Alimlərin İbn Teymiyyə ilə müxalifətçiliyi

İbn Teymiyyə peyğəmbərlər və salehlərin qəbrini ziyarət məqsədilə səfərlərə çıxmağın düzgün olmadığını demişdir. Belə səfərləri günah hesab edir, bu səfərdə namazların tam surətdə (kamil) qılınmasına hökm verdiyinə görə Şafei alimləri onunla müxalifətə qalxmışdılar.

---

1 Mahmud Mehdi Əl-İstanbuli, İbn Teymiyyə Bətələl islahud-diniy, Əl-Məktəbul İslami nəşriyyatı, Beyrut, səh. 30.

Ibn Teymiyyə öz əqidəsinin sübutlu olduğunu göstərmək üçün belə bir dəlil gətirirdi: Peyğəmbər və səhabələr kiminsə qəbri üstə gedib təvəssül etməmiş, onlara tabe olanların da bu işi görməmiş, heç bir müsəlman da bu işin müstəhəb olduğunu deməmişdir. Beləliklə də bu işi görən hər kəs müsəlmanların ümumi təfəkkürünə qarşı çıxmış olur. İbn Teymiyyə bu fitvanı verdikdən sonra Peyğəmbərdən nəql olunan aşağıdakı hədislərin saxta olduğunu deyir:

"مَنْ حَجَّ وَ لَمْ يَزُرْنِى فَقَدْ جَفَانِى"

“Həccə gəlib məni ziyarət etməyən şəxs doğrudan da mənə cəfa etmişdir”.

"لا تشَدُّ الرِّحَالُ الا إلَى ثَلاثَة مَسَاجِدَ: اَلْمَسْجِدُ الْحَرَامِ وَ مَسْجِدِى هَذَا وَالمَسْجِدُ الْأقْصَى"

Üç məkandan başqa heç yerə ziyarət üçün səfər etməyin: Məscidul-Həram, mənim məscidim və Məscidul-Əqsa”.

Belə nəzəriyyələr sünnü alimlərinin müxalifçilik hisslərini oyatığından məlum olur ki, o zamana qədər bu barədə heç bir ixtilaf yox imiş. Bu münaqişənin yaranmasına səbəb olan ilk şəxs İbn Teymiyyə olmuş, öz etiqadını təsdiqləmək üçün isə kitablarını zindanda yazmışdır.

Dəməşq qülləsi zindanında həbsdə keçirdiyi iki il və bir neçə aydan sonra hicri-qəməri tarixinin 728-ci ilində vəfat edir və Babus-Səğir qəbristanlığında qardaşının qəbri yanında basdırılır. Şeyx Abbas Qumi ***“Əl-Konyə vəl əlqab”*** adlı kitabında onun İordaniyada basdırıldığını

deyir. Sonralar İbn Teymiyyə Təqiyuddin Əhməd bin Əbdül Həlim Əl-Hərrani Dəməşqi adı ilə məşhurlaşmışdır.

Bu günkü zamanda onun qəbirindən əsər-əlamət qalmamış, yazdığı kitablar haqqında isə - ***"Bətələl islahud dini"*** kitabında olan məlumata əsasən - 17 kitabdan ibarətdir.

Şəfaət mövzusunda söhbətlərimiz İbn Teymiyyənin ***"Bətələl islahud dini"*** kitabından götürülmüşdür və bu mövzuda Məhəmməd bin Əbdül Vəhhabın ***"Ət-Tovhid"*** adlı kitabına yazılmış şərh olan ***"Fəthul Məcid"*** kitabında da məlumatlar vardır. Son zamanlarda yazılmış ***"Ət-Tovhid bil luğətil farsiyyə"*** ünvanlı kitabda bu məsələlərə şiə əqidəsi müqabilində azca nizam və ehmallıqla yanaşılmışdır. Kitabın ilk səhifələrində haqqında danışdığımız bu kitab hicri-şəmsi tarixinin 1374-cü ilində Cəddə hava limanında şiələr[1] arasında pulsuz paylanmışdır. Lakin o, şəfaət barəsində deyir: Şəfaət yalnız Allaha məxsusdur və Haqq həzrətlərinin Lütf və Kərəmi sayəsində bu xüsusiyyət bəzi bəndələrinə verilmişdir". Bu kitab İbn Teymiyyənin bəzi fikirlərini də nəql etmişdir ki, onun sözlərinin sonunda bu cümləni demişdir:

"لا تَكُونُ الا لأَهْلِ التَّوْحِيد وَ الإخْلاص"

"Şəfaət xalis və müvəhhid insanlara şamil olacaqdır və şəfaət Allahın izni ilə bu şəxslərə veriləcəkdir".

1 Şiə dedikdə məqsəd İranlı şiələr nəzərdə tutulmuşdur.

Müəllif bu kitabda sözünə belə davam edərək yazır: “Şiə nöqteyi-nəzərincə ixlas və tovhidin ən gözəl nümunələri peyğəmbərlər, övliyalar və Məsum İmamlardırlar (ə) ki, yuxarıda nəql olunduğuna əsasən, Qiyamət günü şəfaət verməkdə üstün, məziyyətli hüquqa malik olmaları gərəkdir”.

# BEŞİNCİ SÖHBƏT

## *Şiə və Vahabiçilikdə ziyarət, qəbiristanlıq və məscid*

### Şiə və sünnü firqəsində ziyarət məfhumu

Qeyd etdiyimiz kimi vahabilər ziyarət etməyi təvəssül və şəfaət kimi şirkə qoşulmaq və dindən çıxmaq kimi qəbul edirlər. Lakin Sünnə əhli nöqteyi-nəzərindən ziyarətə icazə verilmişdir. Vahabilər bir çox əqidələr də sünnülərlə münaqişədədirlər.

Onlar nadir və qeyri-adi fikirlərə arxalanmaqla – sünnə əhli də onlara öz etirazlarını bildirmişlər – belə ki, vahabiçilik etiqadını bir məzhəb kimi tanıtmaq istəyirlər. Ancaq müsəlmanlar, xüsusilə sünnülər bu dəstəni islami firqələr içinə qəbul etmək istəmirlər.

### İbn Qüdamənin nəzəri

Sünnə əhlinin fəqih və başçılarından olan İbn Qüdamə ziyarəti - əzadarlıq kimi - islam dininə aid olduğunu söyləyir, amma bu barədə izahat verərək deyir: Qadınlar üçün ziyarət məkruh, kişilərə isə icazə vermişlər”. O, sözünü sübut etmək üçün aşağıdakı rəvayətə işarə edir:

"لَعَنَ اللهُ زُوَّارَاتِ الْقُبُور الْمُتَّخذَات عَلَيْهِنَّ الْمَسَاجِدَ وَالسُّرَجَ"

“Allah qəbirlərin ziyarətinə gedən qadınlara lənət etsin. Xüsusilə məzar üstündə çıraq yandırıb oranı öz səcdəgahı, yaxud məscidi edən qadınlara”.

O, davam edərək belə deyir:

“Rəvayətdə “Allah lənət etsin” cümləsi bu işin məkruh (yəni xoşagəlməz) olduğunu çatdırır. Bəzi məsləhətlərə görə qadınların ziyarətindəki xoşagəlməz hal daha da şiddətlidir. Çünki qadınların evdən kənara çıxıb cəmiyyətdə iştirak etmələri onun həyat yoldaşlarının bəzi hüquqlarının pozulmasına gətirib çıxara bilər. Ziyarət edən qadınların lənət olunmasının dəlili isə cahillik dövrünün adamlarının qəbirləri ziyarət etməyə getməsi, bir neçə vaxtdan sonra isə onların üzərində heykəllər düzəldib şəkillər çəkmələri, sonra isə onların qarşısında büt kimi sitayiş etmələri idi ki, beləliklə də lənət sahibi olurdular. Bu problemlərlə üzləşməməkdən ötrü qadınların ziyarət etmələri qadağan olundu”.

Ibn Qüdamə digər yerdə belə deyir:

“Kişilərin ziyarət etməsi müstəhəbdir. Lakin qadınlar üçün məkruh olub-olmaması haqqında iki rəvayət vardır. Bir rəvayətə əsasən müstəhəbdir. Lakin kişilər kimi qəbir üstündə Tovhid, Yasin və Ayətul Kürsü ayələrini oxumaq şərti ilə. Başqa bir rəvayətə görə isə qadınların qəbirləri ziyarət etmələrinə icazə verilmir. Izn verildiyi halda isə qadın və kişilərə aşağıdakı kimi salam vermələri lazımdır:

"السَّلامُ عَلَيْكُمْ أَهْلَ الدِّيَارِ مِنَ الْمُؤمِنِينَ وَ الْمُسْلِمِينَ اِنَّا اِنْ شَاءَ اللهُ بِكُمْ لاحِقُونَ نَسْأَلُ اللهَ لَنَا وَ لَكُمْ الْعَافِيَةَ"[1]

1 İbn Qüdamə, “Əl Moğni”, 2-ci cild, səh. 43.

İbn Qüdamə qadınların ziyarətini qadağan edən rəvayət barəsində belə deyir:

"و تكره للنساءِ لاَنَّ النَّبِي قال: لعن الله زوارات القبور"

"Qadınların ziyarət etmələri məkruhdur. Çünki, Peyğəmbər (s) buyurmuşdur: "Qəbirləri ziyarət edən qadınlara Allahın lənəti olsun".".

O, Peyğəmbərin (s) ilk növbədə qadınların ziyarət etmələrini qadağan etdiyini düşünür. "Allahın lənəti olsun" cümləsi bu məsələni təsdiqləyir. Ancaq sonra qadınların ziyarət etmələrinə izn verərək buyurur:

"كنت نَهيتُكُم عَنْ زيارة القُبُور فَزَوِّرُوهَا"

"Mən keçmiş zamanda sizin (qadınları) ziyarət etmənizi qadağan etmişdim. Amma indi onları (qəbirləri) ziyarət edin".

Ibn Qüdamə davam edir:

"و رَوَى التَّرْمِذي أَنَّ عَائشَة زارَتْ قَبْرَ أَخيهَا"

"Termezi rəvayət edirdi ki, Aişə qardaşının məzarını ziyarət etdi".

Ibn Qüdamə sözünün sonunda qadınların qəbirləri ziyarət etmələri haqqında verilən haram və icazə hökmlərindən bu işin məkruh olduğu nəticəsinə gəlmişdir.

## Əllamə Məclisinin versiyası

O, bu sahədə öz fikrini belə bildirir:

"Ziyarət kişilər üçün yaxşı bir iş olaraq müstəhəbdir... lakin qadınların ziyarət etmələri barəsində iki versiya mövcuddur: Birincisi, qadınların ziyarət etmələri

məkruhdur.... İkincisi, naməhrəm qarşısında hicablarını qorumaları şərti ilə icazə verilir”.[1]

Şiə əqidəsinə əsasən möminlərin ziyarətə getmələri Peyğəmbər sünnəsidir. Bütün müsəlmanlar təsdiqləyirlər ki, möminlərdən biri vəfat etdikdə Peyğəmbərimiz (s) onun məzarına gedib əza sahibinə təsəlli verər və bu barədə onların hamısı ortaq fikir razılığına gəlmişlər. Qurani Kərim bu haqda belə buyurur:

"وَ لا تُصَلِّ عَلى أَحَدٍ مِنْهُمْ مَاتَ أَبَداً وَلا تَقمْ على قَبْرِهِ اِنَّهُمْ كَفَرُوا بِاللهِ وَ رَسُولِهِ وَ مَاتُوا وَ هُمْ فَاسِقُون"[2]

Bu ayə münafiqlər barəsində olub bu mənanı daşımaqdadır:

“Ey peyğəmbər, möminlərin qəbirlərini ziyarət etdiyin kimi, münafiqlərin məzarlarını görməyə getmə. Onların cəsədlərinə namaz qılma və qəbirləri üstündə dua etmə. Çünki, onlar Allaha və Onun rəsuluna küfr ediblər və fasiqdirlər”.

Ziyarətin xüsusiyyətləri haqqında İslami mənbələr arasında cüzi fərqlərin mümkün olmasına baxmayaraq onun qəti bir üsul olduğu və möminlərin də bir-birilərinin məzarlarına getdiyinə heç şəkk yoxdur.

## Məzarları ziyarət etmək gözəl adətdir

Sünnə əhlinə aid olan tarix kitablarında yazılır:

---

1 Əllamə Məclisi, “Meratul uqul”, 14-cü cild, səh. 191.

2 Tövbə (9), 84-cü ayə.

“Peyğəmbər hər il Ühüd şəhidlərinin ziyarətinə gedər, belə bir ziyarətnamə oxuyardı:

"السلام عليكم بما صَبَرْتُمْ فنعم عُقْبى الدَّار"

Əbu Bəkr və Ömərin də Peyğəmbər kimi ziyarət etdikləri deyilir. Peyğəmbərin qızı Fatimeyi Zəhra (s) həftənin iki gününü Ühüd şəhidlərinin ziyarətinə gedərmiş. Peyğəmbər şəhidləri, xüsusilə Həmzə (ə) və Müsəb ibn Ömeyri ziyarət edərkən bu ayəni oxuyarmış:

"رجالٌ صَدَقُوا مَا عَاهَدُوا اللهَ عَلَيْهِ"[1]

Bundan əlavə “Əs Səhih” kitabında yazılır:

“Əbu Səid Xidri Həmzənin (ə) qəbri üstə gələrək salam verdi... Ummu Sələmə - Peyğəmbərin hörmətli xanımlarından biri – Əbu Hüreyrə, Fatimə Xozaniyyə və Abdullah bin Ömər əl Xəttab kimi şəxslər də şəhidləri belə ziyarət edərdilər”.[2]

“Əl-Qədir” kitabında, Əbu Hənifənin fəzilətləri haqqında fəsildə deyilir:

“İmam Şafei Bağdadda olduğu zaman Əbu Hənifəni ziyarət etməyə gedərdi. O, zərihin kənarında dayanıb salam verər, hacətlərinin yerinə yetməsi üçün Allaha təvəssül edərdi. Əhməd bin Hənbəl də ustadı (Şafei) ilə belə edərdilər. Belə ki, onun bu rəftarına oğlu təəccüb edərdi. Əhməd bin Hənbəl oğluna İmam Şafeinin insanlar üçün dünyada mənfəətli günəş olduğu üçün

---

1 Vaqedi, “Əl Məğazi”, 1-ci cild, səh. 312.

2 Seyid Cəfər Murtuza, “Əs Səhih fi sirətun nəbi”, 4-cü cild, səh. 318.

problemlərin həll olunmasına görə ona təvəssül etməyin heç bir eybi olmadığını izah etmişdi”.[1]

Şafei və Əbu Hənifənin Məsum İmamların (ə) əzəmətini etiraf edərək Əli ibn Əbu Talibin (ə) məqamını allahlıq dərəcəsinə çatdırdıqları halda, görəsən Peyğəmbər (s) və Əhl Beyt Şafei kimi insanlar üçün faydalı deyildilər?

Sünnə əhlinin bu iki imamının belə rəftarı onların davamçılarına höccət deyilmi? Ziyarəti şirk hesab edən vahabilər sünnü alimlərini də müşrik hesab edirlər?

Ziyarətin müstəhəb olması haqqında şiə və sünnü rəvayətlərinin olmasına baxmayaraq, İslam Peyğəmbərindən (s) də birbaşa rəvayət vardır ki, buyurub: “Hər kəs qəbiristanlığa gedib “Yasin” surəsini oxuyarsa, ölünün əzabından azalar”. Bununla belə vahabilər “Qəbirləri ziyarət edənlərə Allahın lənəti olsun” hədisini şüar edib Bəqi qəbiristanlığının giriş qapısından asıblar.

Irad: Sünnü imamları ziyarətin düzgün olduğunu söyləyərək bu işin müstəhəb olduğuna hökm vermişlər. Vahabilərin əks fikirdə olmaları istemarçılıq və müsəlmanların vəhdətinin pozulması məqsədini güdürdümü? Bu, dini başqa cür – hətta xilaf olsa belə - təfsir edib islami məzhəblərin bir qolundan olmalarını sübut etmək həqiqəti deyildirmi?

Əgər onlar kişilərin ziyarətə getmələrinin iradsız olduğunu deyirlərsə, nəyə görə kişi ziyarətçiləri bütün

---

1 Əllamə Əmini, “Əl Qədir”, 5-ci cild, səh. 194.

saatlarda istədikləri vaxtda deyil, müəyyən saatlarda Bəqi məzarlığına getmək məhdudiyyəti ilə üzləşirlər?

Yaxud nə üçün vahabilər bütün müqəddəs qəbirləri xarab etmək istəyirlər? Məsələn, hicri qəməri tarixinin 1216-cı ilində Səud ibn Əbdül Əziz nəyə görə atasının fərmanı ilə Kərbəlaya hücum edib qətl və qarətçilikdən sonra müqəddəs hərəmi xaraba qoymuşdu? Yaxud nə üçün hicri qəməri tarixinin 1217 və 1218-cı illərində Məkkəyə həmlə edib oradakı mübarək tarixi abidələri viran etmişdilər? Yaxud nəyə görə hicri qəməri tarixinin 1220-cı ilində "Müşrikləri öldürün" şüarı altında Nəcəf Əşrəfi xarabalığa çevirmişdilər? Nə üçün sonrakı illərdə Mədineyi-Münəvvərəyə hücum edərək o mübarək torpağın müqəddəs qəbirlərini yerlə yeksan etmişdilər?! (Peyğəmbərin atası, həyat yoldaşları və bu kimi böyük şəxslərin qəbirlərini nümunə gətirmək mümkündür.)[1]

Bu sualların cavabını vahabilərin Bəqidəki məzlum İmamlar və islam dininin həqiqəti ilə düşmənçilikdə axtarmaq lazımdır.

## Qəbirlər və məscidlərin hökmü nədir?

Vahabilər qəbirləri abadlaşdırıb onları ziyarət etməyə bir o qədər də rəğbətli deyildirlər. İşarə edəcəyimiz bəzi rəvayətlər əsasında onlar qəbirləri ziyarət etməyin haram hökmünü verərək onların xarab edilib uçurulmasına icazə vermişlər. Bu təfəkkürün əsası İbn Teymiyyə və Şeyx Məhəmməd bin Əbdül Vəhhabdır.

1 Əli Dəvani, "Ferqeye vahabi", səh, 32-40.

Bu iki nəfərin fikirlərinin meyar olması nəticəsində bu günkü Ərəbistan qəbiristanlığında bir nəfər belə ziyarətçi yoxdur. Əlbəttə, digər sünnü məzhəbinin davamçıları və şiələr bir neçə saatlığa Ühüd şəhidləri və Bəqidəki digər qəbirləri ziyarət edə bilərlər.

Vahabilər özlərindən din yaradıb hökmləri məqsədlərinə uyğun təfsir etmək üçün xəlifələr, səhabələr və tabe olanların davranışlarından ilhamlanmaq gərəkdiyini iddia edirlər. Bu isə sadəcə olaraq bir iddiadır. Ziyarət məsələsində əqidələri isə səhabələrin rəftar və dediklərinin əksinədir. Çünki, səhabələr yalnız Bəqi qəbiristanlığı və Ühüd şəhidlərinin deyil, hətta fəth edib tutduqları torpaqların belə qəbirlərinə ehtiramla yanaşmışdılar. Məsələn, ikinci xəlifənin dövründə Suriyanı tutduqları zaman Yəhya və Zəkəriyya (ə) peyğəmbərin qəbirlərini saxlayaraq ehtiram etmişdilər. Yaxud İslam ölkələri siyahısına Beytül Müqəddəsi əlavə edərkən, Məscidul Əqsa ətrafındakı peyğəmbərlərin qəbirlərini kimsə xarab etməmişdi.

Vahabilərin insanların şəxsi evlərində, yaxud məscid kənarında basdırılması ilə müxalif olmaları - onların iddialarının əksinə olaraq səhabələrin yolundan sapındıqları üçün - bu həqiqətin digər sübutlarından biridir. Çünki, elə o səhabələr, xüsusilə Əli (ə) Peyğəmbəri öz evində torpağa tapşırmışdılar. Yaxud deyilənlərə əsasən, vahabilərin ən böyük səhabələrdən hesab etdikləri Fatimeyi Zəhra (s) öz evində basdırılmışdır. Bu əqidənin düzgün olmaması bizim

üçün tarixi sitatlara əsasən bir çox peyğəmbərlərin Həcəri İsmail və Beytül Müqəddəsdə dəfn olunduğunu – dəfn zamanı bu iki müqəddəs məkanın ibadətgah olmasını nəzərə almadan - qəbul etdikdən sonra daha da aydın olacaqdır.

## Nə üçün vahabilər Peyğəmbər və iki şeyxin məzarını dağıtmırlar?

Bu qədər səhabənin davamçıları olduqlarını iddia edən vahabilər nə üçün heç vaxt Peyğəmbərin (s) və iki Şeyxin qəbirlərini söküb dağıtmayıblar? Ona görə ki, belə rəftar Peyğəmbər səhabələrinin davranışına uyğun deyildir. Bundan əlavə, belə etməklə İslam dünyasının onlara qarşı çıxmalarından qorxurlar.

Lakin şiələrə müxalif olduqları, ziyarətçilərin çox gəldikləri və Məscidun Nəbidən uzaq olduğu səbəbindən Bəqi qəbiristanlığını sökməyə nail ola bilmişlər. Onlar hicri qəməri tarixinin 1344, hicri şəmsi tarixinin 1302-ci ilində Mədinənin ətrafında olan bütün günbəzləri yerlə yeksan etdilər. Bunların arasında dörd Məsum İmam (ə), Peyğəmbərin qardaşları və əmisi Abbas, atası Abdullah, Osman ibn İfan, İsmayıl ibn Cəfər əs-Sadiq və Maliki[1] də nümunə gətirmək olar.

Beləliklə, onlar peyğəmbərlər və övliyaların müqəddəs qəbirlərinə etiqadları olmadığı üçün ziyarəti də şirk və insanın Allahdan uzaqlaşması kimi qəbul edirlər. İnsanları bu işi görməkdən uzaqlaşdırmaq

1 Əli Əsğər Fəqihi, "Vahabilər", səh. 407.

istəyir, məqbərələr və ziyarətgahların məhv edilməsinə etiqad bəsləyirlər.

## Məscid tikib qəbir önündə namaz qılmanın haram edilməsi

Vahabilər qəbir kənarında namaz qılmağı qəbir sahibinə olunan ibadət kimi bilir, bunun üçün də bu işi şirk hesab edirlər. Eləcə də, Əbu Hüreyrədən olan aşağıdakı hədisi sitat gətirərək qəbirlərin kənarında məscid tikintisinin düzgün olmadığı və dinin söyləmədiyi bir iş olduğunu zənn edirlər:

"لا تَجعلوا بيوتَكُمْ قبوراً و لا تجعلوا قَبْري عيداً و صَلّوا عَلَيَّ فَانَّ صَلاتَكُمْ تَبْلغني حيث كنتم"

“Evlərinizi məzarlığa çevirməyin. Mənim qəbrimi görüş yeri etməyin. Mənim üçün salam göndərin ki, sizin harada olmanızdan asılı olmayaraq mənə yetişər”.

Bu hədisin rəvayətçisinə diqqət yetirdikdə məlum olur ki, onun saxta hədislər danışmağını - kiçikli-böyüklü – hamı bilir. Beləliklə, bu hədisin heç bir etibarı yoxdur və təhlil etmədən onu qəbul etmək olmaz. Təhlili isə belə etmək olar: "لا تَجعلوا بيوتَكُمْ قبوراً" bəlkə də bu həqiqəti bəyan etmək istəyir ki, Haqq həzrətlərinin zikri, sözü unudulan, mənəviyyatın məhv olub gedən yer heç bir sər-sədası olmayan qəbiristanlıq kimidir. Eləcə də "لا تجعلوا قَبْرى عيداً" cümləsi, bəlkə də bu mənayadır ki, çox vaxt adamlar bayram günləri şadlıq və şənlik etməyə çalışdıqlarına görə, bu şadlıqda dinin əksinə olan rəftarların edilməsi, yaxud bir neçə anlığa haqq

yolundan qəflət ehtimalı vardır. Elə buna görə də peyğəmbərlərin ağasının (s) müqəddəs türbəti kənarında belə şənliklərin keçirilməsi düzgün deyildir. Çünki o müqəddəs türbəti ziyarətin şərtlərindən biri qəlbin hüzuru, Allah Taalanı anıb zikr etməkdir.

"صَلُّوا عَلَيَّ" Cümləsini belə mənalandırmaq da mümkündür: Peyğəmbər öz ardıcıllarından onun üçün salam göndərmələrini istədiyi zaman bir növ səhabələr və dostların daha çox mənəvi hədiyyəyə olan ehtiyacını bəyan etmək istəyirmiş.

"لا تَجعلوا بيوتَكُمْ قبوراً" isə gigiyena-sanitariya məsələsinə olan xəbərdarlıq kimi qəbul etmək olar. Çünki, insan cəsədi basdırılmazsa, bir neçə saatdan sonra onun üfunət qoxusu hər yeri bürüyərək müxtəlif xəstəliklər və zərərlərin yayılmasına səbəb olar. Əgər meyid evin yaxınlığında dəfn olunarsa, xoşagəlməz iylərin məhəllə camaatı üçün problemlər yaratması ilə nəticələnməsi ehtimalı da vardır. Əlbəttə, Quran ayəsinə istinad olunaraq Peyğəmbər (s) və Pak İmamlar (ə) bundan istisna olunurlar:

"اِنَّمَا يُرِيدُ اللهُ لِيُذْهِبَ عَنْكُمُ الرِّجْسَ أَهْلَ الْبَيْتِ وَ يُطَهِّرَكُمْ تَطْهِيراً"[1]

Onların ruhları və cisimləri pakdır, heç bir xəstəliklər və ziyanlar yaratmaz.

Kim bu rəvayətin istinadlar edib Peyğəmbər (s) və Fatimeyi Zəhranın (s) evdə dəfn olunmasına öz etirazını bildirərsə, bu iradın Əbu Bəkr və Ömərə də aid olduğunu bilməsi lazımdır. Ona görə ki, onlar Əhli

1 Əhzab (33), 33-cü ayə.

Beytin üzvlərindən olmadıqları üçün “Təthir” ayəsi onlara şamil olmamışdır. Nəticədə, vahabilər ölülərin dəfni məsələsinin xırdalıqlarına varırlar və qəbir kənarında namaz qılmağı şirk hesab edirlər. Bu hesabla səhabələrin hamısı müşrikdirlər. lakin heç vaxt belə olmadığı hamıya məlumdur.[1]

## Kəhf surəsinin buyurduqları

Kəhf surəsinin 21-ci ayəsinə əsasən, Kəhf səhabələri yenidən yuxuya getdikdən sonra camaat onların yatdıqları məkan barəsində münaqişə ilə üzləşdilər. Amma sonunda, ziyarətçilərin oranı ziyarət etdikləri zaman ibadət də etmələri üçün məscid tikmək qərarına gəldilər. Vahabilər öz əqidələrini qəbul etdirmək üçün qəbirlərin üzərində məscid tikilməsinin qeyri-şəri olduğunu əldə bayraq tutmuşlar. Lakin bu ayədə vahabilərin əqidəsini təsdiqləyən işarə belə yoxdur. Ayədə belə buyurulur:

"وَ كَذَلِكَ أَعْثَرْنَا عَلَيْهِمْ لِيَعْلَمُوا أنَّ وعْدَ اللهِ حَقّ وَ أنَّ السَّاعَةَ لا رَيْبَ فِيهَا اذْ يَتَنَازَعُونَ بَيْنَهُمْ أمْرَهُمْ فَقَالُوا ابْنُوا عَلَيْهِمْ بُنْيَاناً رَبُّهُمْ أَعْلَمُ بِهِمْ قَالَ الَّذِينَ غَلَبُوا عَلي امْرِهِمْ لَنَتَّخِذَنَّ عليهم مَسْجِداً"[2]

“Beləliklə (o diyarın adamlarını) öz vəziyyətləri ilə agah etdik və Allahın vədəsi doğrudur. Qiyamətin (yaxınlaşmasına) şəkk yoxdur. Onlar öz aralarında münaqişə etdikləri vaxt bəziləri dedilər: Onların üzərində bina tikin. Pərvərdigarları onlar(ın vəziyyətini)

1 “Fəthul Məcid”, səh. 261.

2 Kəhf (18), 21-ci ayə.

daha yaxşı bilir. (Sonunda) qələbə çalan şəxslər dedilər: "Hökmən onlar üçün məscid tikəcəyik".

## *Digər bir istidlal*

Vahabilərin məscid tikib qəbir ziyarət etməyin qeyri-şəri bir iş haram hesab etdiklərini xatırlatmadan öncə, öz etiqadlarını isbat kürsüsündə yerləşdirməkdən ötrü - zəif də olmuş olsa belə - hər ələ düşən rəvayəti dəlil gətirirlər. Hələ bu rəvayətin düzgünlüyü isbat olmamış bunu öz dayaqları sanırlar.

"لَعَنَ الله الْيَهُود وَ النَّصَارى اتَّخذوا قبور انبيائهم و صالحيهم مساجد" [1]

“Yəhudilər və məsihilərə - peyğəmbərlərinin və salehlərinin qəbirlərini məscid etdiklərinə görə - Allah onlara lənət etsin”.

Yəhudilər və məsihilər - fikir baxımından çox boyük xətaya yol verdiklərinə baxmayaraq heç vaxt qəbirlərə ibadət etməyiblər. Bundan başqa əgər düzgün olsa belə, bu hədis müsəlmanlara aid deyildir. Çünki, müsəlmanlar yəhudi və məsihilər kimi heç vaxt qəbirin üstində məscid tikməyiblər. Əgər qəbir kənarında namaz qılsalar belə, Haqq Taalanın razılığına nail olmaq məqsədi ilə ibadət edir, o namazın savabını qəbir sahibinə hədiyyə edirlər. Məzar sahibi əgər övliya olarsa, Allah Taaladan onun izzət və məqamının daha artıq olmasını istəyirlər.

Göründüyü kimi İbn Teymiyyə, xüsusilə Məhəmməd bin Əbdül Vəhhab belə müxalifətçilik etməklə özlərinin

1 “Fəthul Məcid”, səh. 267.

açıq fikirli, geniş təfəkkür tərzinə malik olduqlarını nümayiş etdirmək istəyirdilər. Lakin islamın həqiqi mənası, müdiriyyəti, ictimai məişət, elmi-tədqiqat müəssisələri tikməyə təşviq etmək, istemarçılıqla mübarizə və bu kimi işlərlə də təfəkkürlərinin əzəmətini sübut edə bilərdilər.

Indiki zamanda da bəzi savadlılar və savada yeni qədəm qoyanlar öz elmlərini nümayiş etdirmək üçün imamzadələr, ziyarətgahlar və duaları sözlərinin dirəyi edərək istər-istəməz istemarçıların məqsədlərinə uyğun rəftar edir, həqiqətdə düşmənin dəyirmanına su tökürlər. Lakin bunu bilmələri lazımdır ki, ziyalı olmaq, ziyarəti xurafat hesab, dualara rişxənd etmək demək deyil, əslində onlar müsəlmanların ehtiramlı və təmtəraqlı keçmişini xatırlamaq, hegemonların əlindən qurtuluş yolunu, həqiqi dini onlara göstərməklə, bu metodu öz proqramlarına salmaları ilə mənalandırmalıdırlar.

### *Qəbir kənarında məscidin tikilməsi*

Şiə alimləri sadalayacağımız şəraitlərlə peyğəmbərlər və salehlərin məqbərələri, məzarları kənarında məscid inşaatında fikir ortaqlığına gəliblər. Sünnü alimlərinin bəziləri icazə verir, bəziləri isə məkruh olduğunu söyləyirlər. Ancaq vahabilər İbn Teymiyyə və Şeyx Məhəmməd bin Əbdül Vəhhaba tabe olaraq bu işin haram olduğunu güman edirlər. Onlar öz əqidələrini sübut etmək üçün - zəif olmuş olsa da belə - hər bir rəvayətə əl atırlar. Eləcə də qeyd etdiyimiz kimi, Kəhf

surəsinin 21-ci ayəsinə istinad etdiklərinə baxmayaraq, onların etiqadlarının düzgün olmasına heç bir dəlil yoxdur.

Yeri gəlmişkən, Əllamə Məclisi və Şeyx Tusi kimi bəzi şiə alimləri məscidin dəqiqliklə qəbir üzərində tikilib namazın onunla üzbəüz surətdə qılındığı halda, məqbərə kənarında məscidin tikilməsinin məkruh olması hökmünü vermişlər. Belə olmadıqda, İmam Rza (ə) və Fatimeyi Məsumənin (s) hərəmləri kimi, kənarında məscid tikilməsinə müxalif rəy verməmişlər. Hətta bəzi alimlərdən məzarlar kənarında məscid tikintisinin müstəhəb olmasını söyləyən də vardır.

Əllamə Məclisi dediyimiz şəraitdə məscid tikintisinə müsbət rəy verərək namaz qılan şəxsin məkanının İmamların məzarı kənarında olmasının mümkünlüyünü təsdiqləyərək bəzi rəvayətləri sitat gətirir:

"والله لَتَقْتُلَنَّ بِأَرْضِ الْعِرَاقِ و تُدْفَنُ بِهَا! قَلْتُ يَا رَسُولَ الله: مَا لِمَنْ زَارَ قُبُورَنَا وَ عَمَّرَهَا وَ تَعاهَدَهَا؟ فقال لي: يا أبا الحسن! اِنَّ الله تَعَالَى جَعَلَ قَبْرَكَ و قَبْر وَلَدِكَ بُقَاعاً مِنْ بُقَاع الْجَنَّة وَ عَرْصَةً مِنْ عَرَصاتِهَا"[1]

Peyğəmbər (s) buyurur: “And olsun Allaha, səni İraq torpağında öldürəcəklər və orada da dəfn olunacaqsan. Həzrət dedi: Ey Allahın rəsulu! Bizim qəbrimizi ziyarət edən, abadlaşdırıb onun qorunmasını öhdəsinə götürən şəxsin əcri nədir? Həzrət (s) cavab verir: Allah Taala sənin və övladlarının məzarını Cənnət meydanlarının sərdabələrindən edəcəkdir.

1 “Biharul Ənvar”, 100-cü cild, səh. 120.

Bu şərif hədisdən belə nəticəyə gəlmək olar ki, İmamların (ə) qəbirlərini təmir etmək müstəhəbdir, onları ziyarət etməyin axirət savabı vardır və o müqəddəs məkanda namaz qılmağın heç bir iradı yoxdur.

## Qəbir daşlarının ucaldılması

Vahabilər bir rəvayətə əsaslanaraq qəbir daşlarının yer səthindən yuxarıda ucaldılması, yaxud məzarlar önündə məqbərələr tikilməsinə etiqadları vardır. Əbil Elhiyac Həzrət Əlidən (ə) belə rəvayəti eşitdiyini nəql edir:

"أَلا أُبْعِثُكَ عَلَى مَا بَعَثَنِى عَلَيْهِ رسُولُ الله (ص) أَنْ لا تَدَعْ قَبْراً مُشْرِفاً اِلَّا سَوِيَّتَه و لا تِمْثَالاً اِلَّا طَمَسْتَهُ" [1]

"Ey Elhiyac! Agah ol. Səni Rəsulullahın mənə tapşırdığı bir iş ardınca göndərirəm. Yer səthindən yuxarı olan qəbirləri yerlə yeksan edib heykəlləri məhv etmək sənin vəzifəndir".

Sonra "Fəthul Məcid" kitabının müəllifi belə nıticəyə gəlir ki, günbəzlər, heykəllər, hündür və görkəmli qəbir daşları tikmək düzgün deyil və onların viran olmaları gərəkdir.

Cavabında demək lazımdır ki, birincisi, "Təhzibul təhzib" kitabına əsasən bu hədis istinad edilməyə qadir deyildir. Ikincisi, bu rəvayətdə heykəllərin məhv və qəbirlərin yerlə yeksan edilməsinə hökm verilmişdir. Bu hökmü günbəzlərə və .... aid etmək olmaz.

1 "Fəthul Məcid", səh. 493.

Şiə və sünnü firqələri də qəbirlərin ucaldılmasının düzgün olmadığını söyləmişlər. Ancaq alimlər və salehlərin məzarları üzərində məqbərələrin tikilməsinə də icazə vermişlər. “Əl Qədir” kitabında deyilir: “Malik ibn Ənəs hicri qəməri tarixinin 179-cu ilində vəfat etmişdir. Onun məzarı Bəqi qəbiristanlığında kiçik günbəzli yığcam tikilidən ibarətdir.

"عليه قبَّةٌ صَغِيرَةٌ مختَصَر البنَاء"[1]

Beləliklə, Maliki alimləri nöqteyi-nəzərincə günbəz və məqbərə tikmək caizdir. “Əl fiqh əla məzahibil ərbəə” kitabında qəbir tikintisinin keyfiyyəti haqqında belə yazılır:

"و يندب ارتفاع التراب فوق القبر بقدر شبرٍ"[2]

“Qəbrin yerdən bir qarış hündürlükdə olması müstəhəbdir”

## Vahabilərin məscid və müqəddəs məkanların bəzənilməsi haqqında düşüncələri

Vahabi firqəsinin əsas məsələlərindən biri də bir mövzu barəsində sənəd, ya rəvayət olmadıqda onun qadağan olunmasıdır. Bu səbəbdən onlar Məscidul Həram və Məscidun Nəbi kimi məscidlərin çilçıraq və lampalarla bəzədilməsini düzgün hesab etmirlər. Ona görə ki, bu barədə hədis əldə etməmişlər. Onlara belə demək lazımdır: Əgər siz bu meyarın önəmli olduğunu söyləyirsinizsə, onda gərək yeni sivilizasiya

1 “Əl Qədir”, 5-ci cild, səh. 195.
2 “Əl fiqh əla məzahibil ərbəə”, 1-ci cild, səh.420.

vasitələrindən istifadə etməyəsiniz. Çünki, avtomobil, telefon və bu kimi əşyalar haqqında heç bir rəvayət yoxdur. Bundan əlavə, belə məsələlər haqqında rəvayətin olmaması bəlkə elə onlardan bəhrələnməyin mümkün və mübah olmasına işarədir?! Bununla da, məscidlərin bəzədilməsi camaatın namazda fikir qarışıqlığı ilə nəticələnməzsə, müsəlmanların məscidə get-gəl etmələrinə səbəb olarsa problemsiz olaraq caiz hesab edilər.

## Məscidləri ziyarət etmək üçün səfərə çıxmaq

Məhəmməd bin Əbdül Vəhhabın davamçıları bir rəvayətə əsasən məscidləri görmək üçün edilən səfərlərin haram olduğuna inanırlar. Onların mühüm dəlili Əbi Səidin Peyğəmbərdən (s) nəql etdiyi hədisdir:

"لا تّشَدُّ الرِّحَالُ الا إلَى ثَلاثَةَ مَسَاجِدَ: اَلْمَسْجِدُ الْحَرَامِ وَ مَسْجِدِی هَذَا وَالمَسْجِدُ الْأقْصَی"

“Yalnız üç məscidi – Məscidul Həram, Mənim məscidim və Məscidul Əqsa – ziyarət üçün səfərə çıxın”.

Vahabilər bu hədisdən digər məscidləri ziyarət etməyin qeyri-şəri olması nəticəsinə gəlmişlər. Məhəmməd bin Əbdül Vəhhab bu barədə deyir:

"مَن سافر لمجرد زيارة قبور الأنبياء و الصالحين فهو مشرك"[1]

“Yalnız peyğəmbərlər və salehlərin qəbirlərini ziyarət etmək məqsədi ilə səfərə çıxan şəxs müşrikdir”.

Əlbəttə, bu hədis deyilən üç məscidin əhəmiyyətli olmasını təkid edir, lakin digər məscidlərin ziyarətinin

1 “Fəthul Məcid”, səh. 261.

haram olması qənaətinə gəlmək olmaz. Müsəlman ölkələrində tikilmiş məscid binalarını ziyarət etmək iradsızdır belə ki, hətta bizi müsəlmanların əzəmətli keçmişi ilə tanış edir və o dahi izzətə yol tapmaq üçün maraq yaradır.

# ALTINCI SÖHBƏT

## *Övliyaların kəraməti*

Vahabilərin sünnü və şiə firqəsi ilə müxalif nəzəriyyələrindən biri də kəramət məsələsidir. Quran bu mövzunu açıq-aşkar söylədiyinə görə bütün islami firqələr Peyğəmbərin (s) möcüzə və kəramət xüsusiyyəti olduğunu deyirlər. Lakin onları kəramət sahibi kimi qəbul etməyən, imtiyaza malik olmadıqlarını deyən, onları digər adi şəxslərlə bərabər hesab edən yeganə firqə vahabilərdir. Şiə, Pak İmamları (ə) möcüzələr və kəramətlər sahibləri və qüdrətli şəxsiyyətlər kimi tanıyaraq bu həqiqətin dini-tarixi rəvayətlərə əsasən təsdiqləndiyini iddia edir. Əgər bir şəxs möcüzə ilə kəramət arasında fərq qoyar və desə ki, möcüzə Quranın peyğəmbərlərə əta etdiyi xüsusiyyətdir, lakin kəraməti isə rəvayətlər Pak İmamların sahib olduğunu söyləyir, demək lazımdır ki, onlardan başqa bu qüvvə heç kəsdə yoxdur və bu qüdrətin kəramət yaxud möcüzə adlandırılmasının bir fərqi yoxdur. Yeri gəlmişkən, bəzi həqiqi ariflər və Allah adamlarında bu qüvvənin zəif dərəcələrini müşahidə etmək olar.

"Fəthul Məcid" kitabında deyilir:

"Övliyaullahların kəraməti ilahi lütf və vergidir. Bu məsələ şəxsiyyətdən, elmdən ya məqsəddən asılı deyildir. Məsələn, Əlinin (Allah ondan razı olsun) çox yerlərdə göstərdiyi kəramətlər kimi, yaxud Ömərin (Allah ondan razı olsun) İrana gedib Şuş şəhərində

Daniyal peyğəmbərlə etdiyi söhbətləri, Mədinə şəhərindəki qıtlıq zamanı yağış namazında iştirakından sonra yağışın yağması kimi nümunələri göstərmək olar".

Qeyd etmək lazımdır ki, Ömərin İranın Şuş şəhərinə getməsi barəsində etibarlı tarixi sənəd əldə etməmişik. Lakin əslində İranın Şuş şəhərinə gedib Daniyal peyğəmbərlə söhbət edən Əli ibn Əbi Talib olmuşdur.

Ancaq qıtlıq məsələsinə gəldikdə isə demək lazımdır ki, mötəbər sənədlər Ömərin xahişi ilə Peyğəmbərin (s) əmisi Abbasın bu namazı qıldığını təsdiqləyir.

Sonra kitabın müəllifi davam edərək deyir ki, belə kəramətlər faydasızdır. Mənfəətli olmuş olsa da belə yalnız o zaman üçün faydalı olmuşdur. Uzun sözün qısası, kəramət sahiblərinin ölümündən sonra bu kəramətin heç bir dəyəri yoxdur. Elə buna görə də insan gərək belə şeylərlə könlünü sevindirməsin.[1]

Beləliklə, vahabilər İmamlar, səhabələr və dini başçıların kəramət sahibi olmalarına bir növ inandıqlarına baxmayaraq, bu kəramətin onların həyatda olduqları zamana qədər dəyərli olmasını söyləyirlər. Çünki, onların fikrincə insan öldükdə onun vücudu digər mövcudlar, hətta cansız əşyalar kimi məhv olub gedir. Bu versiyanı isbat etmək üçün isə Quran ayəsindən nümunə gətirirlər:

"اِنَّك ميت و اِنَّهُمْ ميِّتونَ"

Bu ayədən Peyğəmbərin vəfatı ilə övliyaların vəfatının bərabər tutulduğu qənaətinə gəlirlər. Eləcə də,

---

1 "Fəthul Məcid", səh. 93, 137, və 169.

bu ayədə peyğəmbərlərlə övliyalardan yardım istəməyin bihudə və əbəs iş olduğunu, qəbirləri ziyarət etməkdən çəkinməyi düşünürlər.

## *Nəfsin razılığı və təqvanın təsiri ilə övliyaların kəraməti*

"مَن يتق الله يجعل له مخرجاً"[1]

"اِنَّ اللهَ لا يُضِيعُ أَجْر المحسنين"[2]

Bu ayələrə əsasən ilahi təqvanı öz peşəsi seçib yaxşı söhbətlər edən, gözəl rəftarı olan, ehsan edən və Allah razılığı üçün səy göstərən şəxsə Allah dünya və axirət problemlərindən çıxış yollarını göstərər, hər iki dünyada onu bəhrələndirər. Dünya adamları onun gözəl əməlləri nurundan bəhrələnərsə, ona da layiqli mükafat çatacaqdır. Buna istinad olaraq kəramət xüsusiyyətinin xüsusi bir dəstəyə aid olduğunu təsəvvür edənlər bu kəramətin onların həyatda yaşadıqları vaxta qədər təsirli, dəyərli olduğunu zənn edənlər düzgün fikirdə deyildirlər. Çünki, bu ayələr xüsusi və müəyyən qruplara işarə etməmişdir. Həqiqi möminlər suya bənzəyirlər. Həyatda yaşadıqları zaman hamı onların vücudundan mənfəətlənir, vəfat edib torpağa qovuşduqları zaman isə yeraltı mineral suların müxtəlif vasitələrlə çıxarıldığı kimi, mənəvi rabitələr yaradıb onlara təvəssül etmək də mümkündür.

1 Talaq (65), 2-ci ayə.
2 Tövbə (9), 120-ci ayə.

Belə olduğu surətdə, vahabilər bir şəxsin, hətta peyğəmbər belə olsa, dünyadan köçdüyü zaman vücudunun heç bir əlaməti ya təsiri olmadığına inanırlar. Varlığının təsiri olmayan şəxsin isə təvəssül edilmək ləyaqəti yoxdur. Nəticədə onu ziyarət etmək faydasız və xeyir və mənfəət verməyən şəxsi görmək isə puç və bihudə işdir.

### *Ehsan, sədəqə və nəzir*

Vahabilərin şirk hesab etdikləri məsələlərdən biri ölü üçün verilən sədəqə və nəzirdir. "Fəthul Məcid" kitabı bu barədə deyir:

"Ziyarət, ehsan və nəzir yığılan müqəddəs məkanlar, şərafətli abidələr və övliyaların qəbirləri şeytan yuvasıdır. Zeynəbiyyə, Rəəsul Hüseyn, Suriya, Kərbəla, Nəcəf şəhərləri kimi yerlərdə dayanmaq belə haramdır".

Bu kitabların şərhçisi isə belə deyir:

"Əvvəllər Hicazda belə məkanlar var idi. lakin əlhəmdulillah, Məlik Əbdül Əziz Ali Səudun qüdrəti ilə viran oldu və qalanların da dağılmasına ümüd edirik".[1]

Şiənin müqəddəs məkanlarda nəzir, sədəqə paylaması yalnız Allah razılığını əldə etməkdən ötrü olub heç bir şirklə bulaşığı yoxdur. Zehnə gələn şey budur ki, nə üçün cavanların fitnə-fəsada batdıqları zaman, İslam dövlətlərinin sərvətinin qarət olunduğunu, İslam mədəniyyəti, sivilizasiyasının unudulub məhv olduğunu qulaq ardına alıb özlərini

1 "Fəthul Məcid", səh. 137.

görməməzliyə vururlar, lakin daim ehsan, sədəqə, din xadimlərinin qəbirlərini ziyarət etmək xırdalıqlarına vararaq bütün müsəlmanların problemlərinin bundan mənbələndiyini təkid edirlər?! Nə üçün onlar Avropa xadimlərinin cəsədlərinin mumiyalandıqları, ixtiraçıların çürümüş sümüklərinin belə qorunub saxlanması, alimlərin xatirəsini əbədi yaşatmaq səylərini bildikləri halda belə, din xadimləri, xüsusilə hidayət və ziya çeşməsi olan Məsum İmamların (ə) məqbərə və abidələrini xarabalığa çevirməyə çalışır, onların ziyarətinin tərəqqiyə mane olduğunu söyləyirlər?!

### *Müqəddəs daşları təbərrük etmək*

Vahabilərin təkid etdikləri problemlərdən biri də bəzi daşların müqəddəs hesab edilməsi və onlara təvəssül olunmasıdır. Çünki, bu təvəssülü bir növ bütpərəstlik zənn edirlər. Bu səbəbdən də onların nəzərincə, bu daşlara təvəssül, nəzir edərək, şəfaətverici kimi qəbul edən hər bir şəxs müşrikdir.

"و يقولون هؤلاء شفعاؤنا عند الله"[1]

Bu mövzudakı kitablarda belə deyilir:

“Camaatın təbərrük kimi nəzir verdiyi daşların yerdə qalması halal deyildir. Hər bir müsəlmana imkan dairəsində onları xarab etməsi vacibdir”.[2]

Heç bir İslam ölkəsində müqəddəs daşlara ehtiramla yanaşıb şəfaət diləməyən müsəlman tapmaq olmaz. Bəzi

---

1 Yunus (10), 18-ci ayə.
2 “Fəthul Məcid”, səh. 274.

müsəlmanların qəflət və cahillik üzündən daşa, köhnə ağaclara izzət bağışlaması hallarına rast gəlmək mümkündür. Lakin belə rəftarları bütün müsəlmanlara aid edib ümumiləşdirmək olmaz.

Məkkədə az miqdarda Quranın müqəddəsliyinin təsiri nəticəsində müsəlmanların əziz hesab etdikləri bir neçə alçaq dağlar və daşlar vardır:

1. Həcərul Əsvəd: (Qara daş) Bu daş Kəbənin əsas hissəsində olub təvafın əvvəli və sonunu təyin edir.

2. İbrahim Məqamı: Quran müsəlmanlara bu məkanda namaz qılmağı sifariş etmişdir:

"واتَّخذوا من مقام ابراهيم مُصلّى"[1]

"İbrahim Məqamını özünüz üçün namazgah edin".

3. Səfa və Mərvə dağı: Quran bu iki dağ haqqında buyurur:

"انَّ الصَّفَا وَالْمَرْوَة من شعائر اللهِ" [2]

"Səfa və Mərvə Allahın əlamətləridir (Onu xatırladandır)".

Insanların bu daşlara hörmət etmələri, İslam Peyğəmbəri (s), İmamlar (ə), Quran və mənəvi şəxsiyyətlərə izzət gözü ilə baxmalarının səbəbi onların Allah şüarı olmalarıdır. Onları yad etmək qəlblərin paklığından söhbət açır:

"و من يُعَظِّمْ شَعَائِرَ اللهِ فَإِنَّهَا مِنْ تَقْوَى الْقُلُوبِ"[3]

---

1 Bəqərə (2), 125-ci ayə.

2 Bəqərə (2), 158-ci ayə.

3 Həcc (22), 32-ci ayə.

“Allahın xüsusi əlamətlərini əziz bilən hər bir şəxs həqiqətdə qəlblərinin paklığından xəbər verir”.

### *Peyğəmbər (s) və onu xatırladan hər şeyin təbərrük olması*

Bütün müsəlmanlar, istər sünnü və istərsə də şiə, Peyğəmbər (s) və onu xatırladan hər şeyi böyük sayıb ehtiram etmək haqqında ortaq bir fikrə gəlmişlər. Təsdiq üçün bir çox tarixi rəvayətlərə müraciət edib böyük sünnü alimlərinin dediklərinə istinad etmək olar. Məsələn, Həzrət Zəhra (s) və digər səhabələr Rəsulullahdan (s) təbərrük istəyirdilər. Yaxud əhl sünnə rəvayət edir ki, Abdullah bin Ömər Allah Rəsulunu (s) xatırladan hər şeyi qorumağa çalışırdı. Hətta o, Peyğəmbərin kölgəsində əyləşdiyi ağacı belə mühafizə etməyə can atardı. Əhməd bin Hənbəl Rəsulullahın hər bir əşyasının bərəkət bəxş etməsinin mümkün olduğunu demişdir. Sünnə əhli fəqihləri:

"زيارة القبر أفضل المندوبات"

“Qəbirləri ziyarət etmək ən yaxşı müstəhəblərdəndir” deyə öz nəzərlərini bildirmişlər.

Xatırlatmaq lazımdır ki, Peyğəmbər, onun əşyaları, canişinləri vəhyin həqiqəti və dinin cilvələri olduğu üçün onlara hörmət etmək lazımdır.[1]

---

1 “Səhih Buxari”, 1-ci cild, səh. 59, 105, 7-ci cild, səh. 199, “Fəthul Bari”, 1-ci cild, səh. 256, 264, 408, Əllamə Əmini “Əl Qədir”, 3-cü cild, səh. 170, Əhməd Əhmədi Miyancinin “Ət təbərrok bil asarir rəsul” , səh. 66-nın nəqli əsasında.

## YEDDİNCİ SÖHBƏT

### *Quranda təvil*

Quran ayələrinin möhkəm və mütəşabih, nasix və mənsux hissələrə bölündüyünə əsasən, bəzi ayələri anlamaq üçün onların zahiri mənaları ilə qane olmaq olmaz. Çünki bu ayələr şübhələrə bais olub çaşdırmaq qabiliyyətinə malikdirlər. Rəvayətlərin dediyinə görə də Quranın hamının anlaya bilməyəcəyi batini və dərk qatları vardır. Bu səbəbdən bəzi ayələri dərk etmək üçün digər ayələrə müraciət etmək zəruridir. Məsələn:

"ألرحمانُ عَلَى العَرْشِ اسْتَوَى"[1]

"و جاءَ رَبُّك وَالْمَلَكُ صَفَّاً صَفَّاً" [2]

Bu ayələri təfsir etmək üçün aşağıdakı ayələrə müraciət etmək lazımdır:

"لَيْسَ كَمِثْلِهِ شَيءٌ"

"لَمْ يَكُنْ لَهُ كُفُواً أَحَدٌ"

"وَ كَانَ اللهُ بِكُلِّ شَيءٍ عَلِيماً"

Belə ayələrin qarşısında iki dəstə mövcuddur: Zahir əhli ayələrin zahiri mənası ilə kifayətlənirlər. Təvil əhli isə bu növ ayələri təhlil etmək üçün digər ayələrə diqqət yetirir, təvil etməyə etiqadlıdırlar. Məsələn: Zahir əhli عَلَى العَرْشِ اسْتَوَى ayəsini "Ərş Allahın xüsusi kürsüsüdür" kimi mənalandırırlar.

---

1 Taha (20), 5-ci ayə.

2 Fəcr (89), 22-ci ayə.

Lakin Təvil əhli bu ayənin mənası barəsində iki ehtimal vermişlər:

1. Ərş uzunluq, en, hündürlüyü olan bir şeydir.

2. Ərş əşyalıq xüsusiyyəti olmayan bir həqiqətə kinayədir.

Yeri gəlmişkən, Əllamə Təbatəbai (rəhmətullah) birinci ehtimalı, Mərhum Şərani isə ikinci ehtimalın düzgünlüyünü qəbul edirlər. Təkid etmək lazımdır ki, bu növ ayələrin təfsirində onların zahiri mənası ilə qane olan şəxslər böyük xətaya düçar olmuşlar. Çünki, عَلَى العَرْشِ اسْتَوَى bu ayənin zahiri mənasını əsl mənası olduğunu təsəvvür edib, bu məfhuma qane olanlar Allahın maddi cisim olduğunu fərz etmək məcburiyyətindədirlər. Lakin Allah cisim deyildir.

### *Vahabilərin nəzərincə təvil nə deməkdir?*

Əbdül Əziz Məhəmməd Sultan adlı vahabi yazıçısı təvil sözünün üç mənası olduğunu söyləyir:

1. Təvil, raceh (üstün) mənasını mərcuh (qeyri-üstün) mənaya çevirməkdir.

2. Təvil, istər müvafiq, istərsə də əks mənada sözün təfsiridir.

3. Təvil, yalnız Allaha məlum olan məchul həqiqət və keyfiyyətdir".

Yazıçı sözünə belə davam edərək deyir: "Hansı halda olursa olsun, təvil xoşagəlməz bir işdir. Zahiri mənanı batini və daxili mənaya çevirmək olmaz. Ağıllı və gerçək

həyat ilə müxalif olsa da belə, zahiri qorumaq lazımdır”.[1]

Ancaq şiə məzhəbinin əqidəsinə əsasən bir sözün zahiri mənasını - qəbul olunma qabiliyyətli müəyyən şəraitlər vasitəsi ilə - hallandırmaqla onun batini və real mənasını əldə etmək olar. Bu barədə Quran ayələri ilə rəvayətlərdən şahid göstərmək mümkün olduğuna baxmayaraq, bizim kitabın mövzusuna uyğun olmadığı üçün bu məsələyə toxunmuruq.

Bir gerçəkliyə işarə etməyimizə ehtiyac duyulur: Vahabilərin ayənin heç bir şeyi nəzərə almadan quru və donuq mənalarla razılaşmaları çox xətərli vəziyyətdir. Onlar belə təfəkkürlə yəqin ki, ürfani-fəlsəfi məsələlərdə problemlərlə üzləşəcəklər.

### *Şiələrin Cəhimi olmaları*

Vahabilər Quran ayələrini təfsir edib yozanları, ayələri yozmaqla məşğul olduğuna görə ikinci əsrdə yaşamış Cəhim ibn Sifvanın adı ilə bağlı “Cəhimi” deyə adlandırırlar. Şiələr vahabilərin təsəvürrlərinin əksinə olaraq Quran ayələrini belə mənalandırmaqda bir şəxsə deyil, saysız-hesabsız ayəni təvil edən Məsum İmamlara (ə) tabe olmuşlar.

Quran özü təvil barəsində söz açmış, Yusif (a) peyğəmbərin dilindən bu kəlməni işlədərək buyurur:

"قَالَ يُوسفُ لابيهِ يَا أبتِ اِنِّي رَأَيْتُ أَحَدَ عَشَر كَوْكَباً والشَّمسَ والقَمَرَ رايتهم لِي سَاجدين"[1]

---

1 “Əl əsilə vəl əcvibətul usuliyyə”, səh. 46.

“Yusif atasına dediyi zaman: Ey ata! Mən (yuxuda) on bir ulduz, Günəş və Ay gördüm. (Onların) mənə səcdə etdiklərini gördüm”.

Yusif (a) zindandan azad olduqdan sonra Misirin görkəmli məqamlarını əldə etdi. Bu zaman Fələstin və Misiri qıtlıqla quraqlıq bürümüşdü. Yəqubun övladları buğda almaq üçün Yusifin yanına gəlirlər. Bir-birilərini tanıdıqdan sonra Yusif onlara ataları ilə birlikdə Misirə qayıtmalarını tapşırır. Yəqub (ə) həyat yoldaşı ilə övladları Yusifin (ə) o böyüklük və əzəmətini gördükdə ona səcdə (təzim) edirlər. Bu zaman Yusif (ə) uşaqlıqda gördüyü yuxunu xatırlayıb dedi:

"يَا ابتِ هذا تأويل رؤياي من قبل"

“Ata! Bu mənim keçmişdəki yuxumun yozumudır”.

Yusifə (ə) səcdə edən Ay, Günəş və on bir ulduz Yəqub, xanımı və on bir övladı ilə yozulmalıdır.

Əlbəttə bu yuxunun yozumu əvvəlcədən Yusif (ə) üçün məlum deyildi. Amma bir neçə ildən sonra bu yuxunun gerçəkliyi onlara aşkar oldu.

Beləliklə, təvil bu mənanı verir: Ayənin məfhumu aydın olmazsa digər etibarlı rəvayətlər və ayələrin köməyi ilə real mənaya yaxın məfhumu seçmək lazımdır.

## *Vahabilər ziyalıların yolu ilə getmədilər*

Hal-hazırda vahabilərlə bəzi şiə alimləri xətərli son ilə nəticələnə biləcək, onların cəmiyyətdən kənara çəkilməsinə səbəb, şəri və intellektual suallara cavab

1 Yusuf (12), 4-cü ayə.

verməyə aciz edən dar düşüncələrlə irəliləyirlər. Bu yol, ayə və rəvayətlərin zahiri mənasına qane olmaq, fəlsəfi dəlillərlə fəlsəfə, ürfanı etibarsız saymaq, yeni elmləri, tərəqqini nəzərə almamaqdır. Lakin bu həqiqətə də inanmaq lazımdır ki, Quran hər dövrdə insan təfəkküründən üstündür. Elə buna görə də onun zahirinə qane olmayaraq onun ehtimalları ilə yozulması gərəkdir. Çünki, insanın zehni, fikri və dərki günbəgün tərəqqi edərək yeni həqiqətlər kəşf etməkdədir. Beləliklə, məbada bəşər Quranı dərk etməkdə acizdir bəhanəsi bu ilahi yadigarı öpüb kənara qoymaqla nəticələnməsin. Həqiqətdə onu düzgün anlamaq üçün imkan dairəsində çalışmaq lazımdır.

## SƏKKİZİNCİ SÖHBƏT

### *Şiə və vahabilərin şənlik edib yas saxlamaq haqqında fikirləri*

Bayramlar və şənliklər

Vahabilər övliyaların təvəllüd ya vəfat üçün günü təşkil edilən məclisləri onlara edilən ibadət hesab etdiklərinə görə bunu bütə edilən pərəstişlə bərabər sayırlar:

"هي نُوعٌ من العبادة لهم و تعظيمُهُمْ..."[1]

Onlar öz sözlərini sübuta yetirmək üçün cahil ərəblərin rəftarına işarə edərək onların hər münasibətdə, istər döğum yaxud vəfat günləri, pis ya yaxşı xatirələr üçün bütxanalara yığışıb sevinc yaxud qəmlərini bölüşdüklərini misal gətirirlər. Cahil ərəblər Tək Allaha inandıqlarına baxmayaraq, öz əlləri ilə düzəltdikləri şeyləri yer üzündə hərtərəfli qüdrətə sahib bilib ona təvəssül edirdilər.

"و يقولونَ هؤلاءِ شُفَعاؤُنَا عِنْدَالله"

“Onlar bu şeylərin Allah yanında bizim şəfaətvericilərimiz olduğunu deyirlər”.

Yəqinliklə demək lazımdır ki, təkcə vahabilər deyil, əslində bütün müsəlmanlar şirklə qarışıqlı məclislərə qarşı ziddirlər. Maraqlı burasıdır ki, nə üçün vahabilər şirk qarışıqlı olmasa da belə məclislərin qurulmasına

---

1 “Fəthul-Məcid”, səh. 154.

qarşı çıxırlar? Görəsən bunun səbəbi bəzi müsəlmanların əqidəsinə rişxəndlə yanaşıb təfəkkürlərinin dinin ziddinə olduğunu söyləmək deyilmi?

## Vahabilərin qəbul etdikləri iki bayram

"Fəthul Məcid" kitabının müəllifi ümumiyyətlə, vahabilərin iki bayramı rəsmi surətdə qəbul etdiyini deyirlər: Fitir bayramı və Cümə günləri. Onlar Cümə günü bayramı barəsində Peyğəmbərdən (s) olan hədisə istidlal edirlər.

"اِنَّ هَذَا يَوم ٌ جعله اللهُ للمسلمين عيداً"

"Həqiqətən Allah bu günü (Cümə) müsəlmanlar üçün şənlik və bayram günü etmişdir".

Onların nəzərincə, bu iki gündə şənlik edib sevinmək rəvadır. Çünki, Peyğəmbər bu iki bayrama təkid və sifariş etmiş, digər bayramlara etina etməməyi tapşırmışdır. Bu barədə isə bizim əlimizdə rəvayət yoxdur.[1] Müəllif sözünü Sabit ibn Zəhhakın dilindən nəql olunan rəvayətlə isbat edir: Zəhhak deyir: Günlərin birində Peyğəmbərə dəvə qurban kəsmək, nəzir vermək və... haqqında sual verdim. Peyğəmbər buyurdu: Orada büt olmazsa və o nəzir günaha və cahiliyyət adətlərini yaşatmağa səbəb olmazsa, eybi yoxdur.

1 "Fəthul-Məcid", səh. 153

"قال: نذر رجلٌ أن ينجر اِبلاً ببوانة. فسأل النبي (ص) فقال: هل كان فيها وثنٌ من اوثان الجاهلية يُعبَد؟ قال: لا. فهل كان عيدٌ من اعيادهم؟ قال: لا. فقال (ص): فَاِنَّه لا وفاء لنذر في معصية الله"[1]

“Dedi: Ey Allahın rəsulu, bir şəxs “Bəvanədə” qurban kəsməyi nəzir edib. Həzrət sual verdi: Orada cahillik dövründə pərəstiş edilən bütlərdən varmı? Dedi: Xeyr. Həzrət yenə sual etdi: Orada cahillik dövründə keçirilən bayramlardan keçirilirmi? Cavab verdi: Xeyr. Həzrət dedi: Nəzirin düzgündür, onu yerinə yetir. Çünki, yalnız günahla ilə nəticələnə biləcək nəzirlərə əməl etmək lazım deyil.[2]

## Əziz olan məkanlar və zamanlar

Quranın öz ardıcıllarına verdiyi tapşırıqlardan biri ilahi günləri xatırlayıb əziz saymaqdır. Ilahi günləri xatırlamaq insan taleyində dəyərli ifası olan, haqqın, yaxud ədalətin bərpa edilib bidətin söndüyü gündür. Bu səbəbdən müsəlmanlar yalnız ilahi günləri xatırlamır, həqiqətdə zülmətin tünd qaralığını söndürən, haqla həqiqətin bir növ şölələnən məkanlarına belə ehtiram edirlər. Buna Cümə günü, Fitir və Qurban bayramları, yaxud Rövzətun Nəbi, Ərəfat, Mina, Məşərul Həram, İbrahim Məqamı, Səfa və Mərvə kimi yerləri nümunə göstərmək olar. Əlbəttə, bu məkanlardan başqa Şiənin İmam Hüseyn (ə) və Əlinin (ə) hərəmləri, Tasua və

1 “Fəthul-Məcid”, səh. 153

2 Fəthul-Məcid, səh. 153

Aşura günləri kimi ikram etdikləri digər müqəddəs günlər, ziyarətgahlar və xüsusi tarixlər vardır. Çünki bu müqəddəs məkan və günlərin hər biri təklikdə İslam səsinin ucalması yolunda böyük insanların zəhməti və cihadının göstəriciləridir.

Beləliklə, vahabilər belə müqəddəs yerləri ziyarət edib ilahi günlərin təntənəli surətdə qeyd olunmasına dini-mənəvi təsirlərin olmadığı halda etiraz edə bilərlər. Eləcə də Haqq həzrətlərinə qarşı üsyan (günah) olduğu halda mərasim və bayramların keçirilməsinə irad tuta bilərlər.

Qeyd etdiyimiz kimi, onların belə şadlıqların keçirilməsinə tutduqları iradın yeganə dəlili:

"لا يتخذوا قبري عيداً"

hədisidir. Bu hədisi isə biz belə mənalandırmışdıq ki, Peyğəmbərin öz davamçılarının müqəddəs torpağı kənarında belə şənlik və bayram məclislərinin qadağan etməsinin səbəbi müsəlmanların o əziz məkanda Haqqın razılığından uzaq və qəbir sahibinin şəninə uyğun olmayan hörmətsizlik ehtimalıdır.

Böyük şiə alimlərindən olan Seyid Möhsün Əmin “Kəşful irtab”, Seyid Abdullah Şübbər “Misbahul ənvar” kitabında yuxarıdakı məsələni təsdiqləməklə yanaşı bu hədisin belə mərasimlərin haramlığına dəlil olmadığını söyləmişlər.[1]

---

1 Abdullah Şübbər, “Misbahul ənvar”, 2-ci cild, səh. 191.

## Bayram və Quran

Quran ayələri barəsində diqqətlə fikirləşərkən günlərin iki hissəyə bölündüyünin şahidi oluruq:

1. **Mübarək və bayramsayağı günlər**: İnsanlara maddi və mənəvi nemətlərin bağışlandığı günlər. Adamların bu nemətləri qoruyub şənlik etməsi, Allaha şükür etməsi günüdür. Məsələn, İsa Məsihin (ə) öz qövmü üçün azuqə istəyi ilə nemətin nazil olduğu gün kimi. Qurani Kərim bu barədə buyurur:

"رَبَّنَا أَنْزِلْ عَلَيْنَا مَائدَةً مِنَ السَّمَاءِ تَكُونُ لَنا عِيْداً لِأوَّلِنَا وَ ءَاَخِرِنَا وَ ءَاَيَةً منك وَارْزُقْنَأ و أنْتَ خَيْرُ الرَّازِقِينَ"[1]

"Pərvərdigara! Səmadan bizim üçün ilk və son bayram və Səndən bir nişanə olaraq bir süfrə nazil et və öz tərəfindən bizə ruzi ver ki, Sən ən yaxşı ruzi verənsən".

Həmçinin, Musanın qövmünün rəhmətə bürünüb, Haqq Taalanın düzgün yoluna düşüb azğınlıqdan qurtulduğu günlər, Musanın (ə) isə belə günləri xatırladıb yada salması üçün məmur olunmasını örnək gətirmək mümkündür:

"و ذَكِّرْهُمْ بِأيّام اللهِ اِنَّ فِي ذَلِكَ لَآيَـــاتٍ لِكُلِّ صَبَّارٍ شَكُورٍ"[2]

"Allah günlərini onlara xatırlat ki, doğrudan da bu yada salmaq da hər dözümlü və şükür edən şəxs üçün ibrətlər vardır".

2. **Nəhs və uğursuz günlər**: Bunlar Allahın rəhmət və lütf qapılarının bəndələrin üzünə bağlanıb onların əzab

---

1 Maidə (5), 114-cü ayə.

2 İbrahim (14), 5-ci ayə.

və bəlaya düçar olduqları bir gündür. Məsələn, səkkiz günlük möhkəm əsən külək Ad qövmünü həlakətə uğratdı:

"فَأَرْسَلْنَا عَلَيْهِمْ رِيحاً صرصراً فِي أَيَّامٍ نَحِسَاتٍ"[1]

"Beləliklə, onlara nəhs gündə güclü külək göndərdik".

Nəticədə Quranın dediyinə əsasən Rəsulullahın (s) Besət gününü mübarək, vəfat gününü isə uğursuz gün hesab etməyin heç bir eybi yoxdur. Əgər vahabilər bu nəticə ilə müxalifdirlərsə, onlardan soruşmaq lazımdır ki, Quran Musanın qövmünün irşad edilib düz yola düşdükləri günü ilahi gün hesab edərək belə günün əziz olduğunu vacib bilirsə, Rəsulullahın dünya insanlarını hidayət etməyə seçildiyi gün mübarək deyilmi? Nə üçün belə bir günün xatırlanmasına ehtiramla yanaşıb şənlik etməyək?!

## Islami rəvayətlərdə bayram günləri

Quranın bayram haqqında buyurduqlarını aydınlaşdırdıqdan sonra bu kitabın hüdudlarından xaric olan zaman tələb etdiyinə görə, bu mövzunu tarix və hədislərdə araşdırmaq zərurəti duyulur. Lakin İmamların (ə) nöqteyi-nəzərində bayramın mahiyyətinin necəliyini Əlidən (ə) nəql olunan rəvayətlə göstəririk:

"انَّمَا هُو عِيْدٌ لِمَن قَبلَ اللهُ صيامَه وَ شَكَرَ قيامه و كُلُّ يَوْمٍ لا يُعصَى اللهُ فِيه فَهُوَ عِيد"[2]

1 Fussilət (41), 16-cı ayə.
2 "Nəhcul Bəlağə", Qısa kəlamlar 427.

“Bu, Allahın orucunu qəbul edib namazına təşəkkür etdiyi şəxsin bayramıdır. Allah fərmanından kənara çıxılmayan hər gün bayramdır”.

Ümumiyyətlə, hədis alimlərinin düzgünlüyünü təsdiqlədiyi - İmamlardan (ə) nəql olunmuş - rəvayətlər İslamda dörd bayramın olduğunu təkid edir: Qurban bayramı, Fitir Bayramı, Cümə günü və Qədir Xum bayramı.

Xatırlatmaq lazımdır ki, şiə və sünnülər yalnız sonuncu bayram haqqında ixtilafa düçardılar. Yalnız şiələr bu günə izzətli və əzəmətli surətdə əhəmiyyət verirlər. İmam Sadiq (ə) bu bayramı bütün bayramlardan böyük, daha fəzilətli hesab edərək öz davamçılarına dörd işi vəzifə təyin edir: Allahı zikr etmək, oruc tutmaq, ibadət etmək, Məhəmməd və Ali Məhəmmədi əzəmətlə xatırlamaq.

Sonra Həzrət (ə) davam edərək buyurur: Bu, yalnız Peyğəmbərin (s) Əliyə (ə) sifariş etdiyi gün deyil, əslində digər peyğəmbərlər də öz vəsilərini belə günləri bayram etməyə çağırırdılar.[1]

Beləliklə, Allah, Peyğəmbər və İmamların adı və xatirəsi ilə keçirilən bayram və şənlik məclislərini qeyri-şəri və qanunsuz hesab etmək olmaz.

Həzrət Əli (ə) Qədir Xum bayramının cümə gününə təsadüf etdiyi vaxt: “Bu gün iki bayram bir yerdə cəmlənmişdir” deyə buyurmuşdur.[2]

---

1 “Əl Qədir”, 1-ci cild, səh. 286.

2 “Əl Qədir”, 1-ci cild, səh. 284.

## Marudinin dediklərindən

Altıncı əsrdə yaşamış Əbu Əli Marudi Bəni Abbas hakimiyyəti dövründə yüksək məqam sahibi olmuşdur. O, ölkədə hökumət sistemi, camaat qarşısındakı vəzifələri barəsində danışarkən bayramlar haqqında belə yazır:

"Hökumətin vəzifələrindən biri Cümə və bayram günlərində ibadətin təşkil olunmasına xüsusi diqqət yetirilməsi, cihada aid olan məsələlərdə və onların şərtlərinə toxunulmamasına səy göstərməsidir. Çünki, bunlar Allaha məxsus hüquqlar olduğu üçün mühafizə olunması gərəkdir".[1]

Marudinin dedikləri o zamanın xəlifələrinin də bayramların keçirilməsinə diqqətlə yanaşdıqlarını çatdırır. Yoxsa bayramlar və onların şərtləri haqqında danışmaq bihudə iş olardı".[2]

## Vahabilərin bayram və əza məclislərinə olan həssaslıqlarının dəlili

Keçən mövzuların mütaliəsindən sonra bir sıra suallar meydana çıxır: Nə üçün vahabilər bayram və əza məclislərinin qurulmasına həssasdırlar? Nə üçün onlar bu qədər müsəlmanı belə məclislərdən çəkinmələrinə vadar edirlər? Müsəlmanların öz peyğəmbərlərinin doğum yaxud besət günündə şadlanmalarının, o əziz

1 "Əhkamus soltaniyyə", "Vilayət məzalim"

2 Bayramlar haqqında daha çox məlumat almaq üçün: Nəviri "Fununul ədəb", 1-ci cild, səh. 177, Müqrizi, "Xətət", 2-ci cild, səh. 222, Əllamə Əmininin "Əl Qədir" 1-ci cild, səh. 288-ə müraciət edin.

şəxsin vəfat günündə ağlamalarının nə eybi vardır? Birincisi, əgər onlar bu mövzuda rəvayətlərin yoxluğunu bəhanə gətirirlərsə, bu işlərin Peyğəmbərin əmri, yaxud sərəncamına ehtiyacı olan ibadi xüsusiyyəti daşımasını xatırlatmaq lazımdır. Ikincisi, Peyğəmbərin səhabələri və davamçıları belə məclislərin qurulmasını haram hesab etməmişlər. Şiə kitablarında günah olmadığı surətdə belə mərasimlərin keçirilməsinin mümkünlüyünə hökm vermişlər.

Bəzi yazıçılar vahabilərin zidd mövqelərinin dəlilini belə göstərmişlər ki, məbada Qədir Xum bayramı üçün edilən şadlıqlar Kərbəla müsibəti kimi hər yerə yayılıb rövnəqlənsin.

## Islamda və vahabiçilikdə matəm

Əzədarlıq və matəm İslamda yeni bir fenomen deyildir. Elə ilk günlərdən müsəlmanlar əzizlərinin vəfat, yaxud şəhadəti üçün göz yaşı axıtmışlar. Seyyiduş Şuhəda Həmzənin şəhadəti, yaxud Xədicənin (s) vəfatını nümunə göstərmək olar. Eləcə də sonralar İmam Hüseyn (ə) üçün olan təziyə və müsibət məclislərini misal çəkmək olar.

Vahabilər - matəm və əza məclislərinin dini qadağası olmadığı bir halda - digər ölülər üçün ağlayıb ah-zar etməyi, əlbəttə, İslamın əvvəllərindəki əzadarlıqları istisna etmək şərtilə, haram və cahillik dövrünün əməllərindən olduğunu söyləyirlər. Onlar bu iddialarını sübuta yetirmək üçün Peyğəmbərdən nəql olunan rəvayətə sığınırlar:

"اِنَّ رَسُول الله قَالَ: أربَعٌ أُمَّتِي مِنْ أَمْر الْجَاهِلِيَّة لا يُتْرِكونَهُنَّ: الفخر بالاحتساب والطعْنُ فِي الْأنساب والاستسقاء بالنجوم والنياحة" [1]

"Mənim ümmətimdə tərk olunmayan cahillik xüsusiyyətlərindən dörd xüsusiyyət vardır: Keçmişdəkilərlə fəxr etmək, dədə-babalarının eyiblərini deyib irad tutmaq, nücum və ulduzlar vasitəsilə yağış tələb etmək və nəhayət, ölülərə matəm saxlamaq".

Sonra "Ən-Niyahə" sözünün təfsirində belə deyilir:

"النياحة أي رفع الصوت بالنّدب عَلَى الميّت... و ذلك ينافي الصبر الواجب و هي من الكبائر لشدة الوعيد والعقوبة عليها"

"Ən-Niyahə" barəsində belə yazırlar: vəfat etmiş şəxs üçün hündür səslə nohə oxumaq deməkdir.... Bu növ əzədarlığın səbirlə təzadı vardır və çoxlu əzab və cəzalarla nəticələndiyi üçün böyük günahlardan hesab olunur.

## Bu rəvayətin tənqidi

Bu rəvayətin sənədinin hələ düzgün olub-olmamasını nəzərə almadan qeyd etmək lazımdır ki, bu rəvayətin canlı nümunəsi cahillik dövründəki bəzi qadınların nohə oxumalarıdır. Bu qadınların iş-peşələri başına müsibət gələn şəxslərin evinə yığışıb xüsusi formalarda əzədarlıq etmək imiş. Bu qadınların namünasib rəftarları bizim Peyğəmbərimizin onlar kimi şivən salmağı qadağan etməsinə səbəb olmuşdur. Belə

1 "Fəthul-Məcid", səh. 154.

olmadığı halda sırf əzədarlıq etməyin islami nöqteyi-nəzərindən heç bir eybi yoxdur.[1]

Etiraf etmək lazımdır ki, möminlərin xüsusiyyəti sayılan səbirin bəyənilmiş bir xasiyyət olmasından asılı olmayaraq bu işin vacib olmasına heç bir dəlil yoxdur. Yəni başına müsibət gələn şəxs əgər səbir edə bilməzsə, böyük günah işlətməmişdir.

## Vahabilərin digər dəlili

Vahabilərin Rəsulullahdan (s) nəql edərək onu əllərində bayraq tutub arxalandıqları hədislərdən biri də budur:

"انّ الميِّت ليُعَذَّبَ ببُكاءِ الحَيِّ عليه... و مِثل أنَّ الميّتَ يُعذّبُ فِي قبره بالنِّياحة عليه..."[2]

"Ölülər dirilərin göz yaşından əzab çəkirlər... Eləcə də ağlayış demək onların əzab-əziyyət çəkməsinə səbəb olur".

Bu hədisin tənqidində iki məsələyə diqqət etmək lazımdır:

1. Bu hədisin rəvayətçisi hədis əhlinin onun sözlərinə çox da etibar etmədiyi Müğeyrə bin Şöbədir.

2. Seyid Murtuza belə buyurmuşdur: Əzədarlığın qeyri-şəri olduğu fərz olunarsa, ölülərin təqsirləndirilməsi yalnız ağılla deyil, Quranın buyurduqları ilə də ziddir.

"و لا تَزِرُ وازرة وزر أُخرى"[1]

1 "Fəthul Məcid", səh. 154.

2 Fəthul-Məcid, səh. 154..

Beləliklə, vahabilərin əza, ah-zar etmək barəsində etiqadları yalnız ağıl, ayə və rəvayətçilərlə deyil hətta İslamın özü ilə də müxalifdir ki, bəyənilməz metodları İslam cəmiyyətindən uzaqlaşdırmaq istəyir. Islam əzədarlığı qəbul edir, lakin - istər İslamdan öncə, istərsə də sonar – bu məclislərdə baş verən xoşagəlməz ayinlərin ziddinədir.

## Əzadarlığın tarixi

Keçən söhbətlərimizdə İslamda əzadarlıq tarixi haqqında qısa olaraq söhbət açıb, Peyğəmbərin (s) səhabələrin qadınlarını Seyyiduş Şühəda Həmzəyə matəm saxlamalarına göstəriş verməyini, yaxud Xədiceyi Kübranın (s) vəfatında ağladığı haqqında söyləmişdik. Indi isə oxucuların daha çox məlumat almaları üçün bir neçə tarixi hadisəni diqqətinizə çatdırırıq:

1. Rəsulullah (s) səhabələrə tövsiyə edirdi ki, Cəfər və onun kimilər şəhid olduqlarında ağlasınlar:

"و على مثل جعفر فلتبك البواكي"[2]

2. Rəvayətlərə əsasən Peyğəmbər (s) Ummu Sələməyə əzadarlıq məclisində iştirak etmək icazəsini vermişdi.

3. Ənəs ibn Malikin dediyinə görə Peyğəmbərin oğlu İbrahim vəfat etdiyi zaman ağladığında ona etirazlarını bildirən səhabələrə belə söyləmişdir:

"يابن عوف! أنّها رحمة؛ العين تدمعُ' والقلب يحزُنُ' ولا نقولُ اِلا ما يَرضي ربُّنا"

1 Nəcm (53), 38-ci ayə.

2 "Əs Səhih fi sirətin nəbi", 4-cü cild, səh. 307.

“Ey İbn Ovf! Göz yaşı rəhmətdir. Göz ağlayır, ürək hüzünlənir. Biz Haqqın razılığı olmayan heç bir şeyi yəqinliklə demirik”.

4. Peyğəmbər Mədinəyə daxil olduğu vaxt anasının qəbrini ziyarət etməyə getmiş, onun üçün ağlamışdır, belə ki, oradakılar da ağlamağa başlamışlar:

"انَّ النَّبي زار قبر أُمّه فبكى و ابكى من حوله"[1]

5. Osman bin Məzun vəfat etdikdə Peyğəmbər onun cənazəsini görməyə gəlib kəfəni onun üzündən kənara çəkmiş, iki gözünün arasından (alnından) öpüb çox ağlamışdı. Tabutu götürdükdə isə belə buyurmuşdu:

"انَّ النبي (ص) لمَّا مات عثمان بن مظعون كشف الثوب عن وجهه' ثمَّ قبَّلَ ما بين عينيه ثمَّ بكى طويلاً فلمَّا رفع السرير قال: طوبا لك يا عثمان! لم تلبسك الدنيا و لَمْ تلبسها"

“Ey Osman! Sənin xoş halına, dünya səni özünə cəzb etmədi və sən də ona bel bağlamadın”.

6. Peyğəmbər vəfat etdikdə Fatimeyi Zəhra (s) çox ağlamış, yaxud İmam Zeynəl Abidin Aşura hadisəsindən qırx il sonraya qədər Kərbəla şəhidləri üçün göz yaşı axıtmışdır.

Bütün bu deyilənlərə tarix düzgünlük möhürünü vurmuşdur. Müasir tədqiqatçı Cəfər Murtuza belə deyir:

“Vahabilərin əzadarlığın haramlığına təkid etmələri, ehtimal olunur ki, Fatimeyi Zəhra üçün ağlamağı qadağan etmək üçündür”.

1 “Səhih Muslim”, 2-ci cid, səh. 271, Şəhid Saninin “Məskənul fuad” kitabının 93-95-ci səhifələrinin nəqlinə əsasən.

## Nohə oxumağın növləri

1. Mübah və xoşagələn (məmduh) nohə: Səsi həzinləşdirib sözləri yaxşı və kədərli tələffüz etmək. Həzrət Zəhra (s) atasının vəfatı zamanı belə buyurmuşdur:

"يا أَبَتَاهُ! مَنْ رَبَّه أَدْناهُ! يا أَبَتَاهُ! اِلَى جبرئيلَ أَنْعاه أَجَابَ رَبّاً دَعَاه"[1]

"Atacan! Xoş halına ki, Allaha yaxınlaşdın, Cəbrayılın yanında özünə yer və məkan seçdin, Pərvərdigarının dəvətinə ləbbeyk dedin".

2. Haram və bəyənilməyən (məzmum) nohələr: Adamların bir-birinin əlinə vurub fəryad etməsi, pis sözlər deyib köynək yaxası cırmaq, üz-gözü cırmaqlamaq və nohə oxumağı özünə peşə seçməkdir. Peyğəmbər nohə oxumağı özünə peşə seçən qadınlar barəsində buyurur: "Onlar tövbə etməsələr Cəhənnəm əhlinin xüsusi libasında Qiyamətə daxil olacaqlar".

Təzəkkür: Vahabilər tamamilə İslamda matəmi təsdiqləyən tarixi-rəvayi dəlillərə qarşı özlərini görməməzliyə vurur, yəhudi bir qadın üçün bir dəstə qadının ağlamaları barəsində hədisi örnək gətirirlər:

"Allah rəsulu (s) bir məhəllədən keçərkən bir yəhudi ailəsinin vəfat etmiş qadın üçün ağladığını gördü. Buyurdu: Onlar ölünün qəbirdə əzab çəkdiyi zaman ağlayırlar".[2]

---

1 "Sunən İbn Macə", "Sunən Nəsai" və "Səhih Buxari"dən "Məskənul fu-ad" kitabının 103-cü səhifəsinin nəqlinə əsasən.

2 Əli Əsğər Fəthi, "Vahabiyan", səh. 108.

Bu rəvayət yəhudi qadın barəsində olduğuna görə müsəlmanlara aidiyyəti yoxdur. Deməк lazımdır ki, o qadına əzab edilirdisə, onun nəinki ailəsinin onun məzarı üstündə ağladığı üçün, pis davranış, rəftar və xasiyyətinə görə idi. Nəticədə, Peyğəmbərin (s) sözünün məfhumu vahabilərin söylədiklərindən başqa bir şeydir.

Vahabilərin bəhanə gətirdikləri rəvayətlərdən biri də budur:

“Ömər zərbə aldığı zaman onun qulamı:

"وا أَخاه! وا صاحباه!"

“Vay olsun, mənim qardaşım! Vay olsun mənə, mənim sahibim! - deyərək nalə edir. Zamanın xəlifəsi onu bu işdən çəkindirərək deyir: Eşitməmisən ki, Peyğəmbər (s) naləni qadağan edib?”.

Bu məsələnin bir neçə problemi vardır:

1. Ümumilikdə, bu rəvayətin doğru olub-olmaması şübhəlidir və İbn Abbas bu rəvayəti təkzib etmişdir.

2. Rəvayətin məfhumu aydın deyil və belə bir nəticəyə gəlmək üçün aşkar dəlil olmaq qabiliyyətinə malik deyil.

3. Peyğəmbərin hansı növ ah-naləni, onun necəliyini və kimin üçün qadağan edib-etməməsi məlum deyildir.

## Şiə və sünnü məzhəbində matəm

Şiə fəqihləri fiqh kitablarında “Mətacir” (ticarət) fəslində, “Usule kafi” və “Mən la yəhzuruhul fəqih” kitablarındakı hədislərə əsasən “niyahə”nin xoşagəlməz bir rəftar olduğunu söylədikdən sonra nohə oxuyub ağlayış demək üçün qadınların əcir tutulmasının

haramlığına fitva vermişlər. Əllamə “Qəvaid”də və “Miftahul kəramə” kitabının müəllifinin nəzəri, bir çox şiə alimləri və fəqihlərinin fikri də belədir:

"يَحْرُمُ أجرَ النائحة بالباطل و يجوز بالحقّ"[1]

“Batil işlər üçün nohə oxuyan şəxsləri əcir tutmaq haram, haqq və doğru işlər üçün nohə oxuyan şəxslərin muzdu halaldır”.

Fəqihlər “niyahə”nin tərifini belə açıqlayırlar: Batil niyahə, nohə oxuyan zaman yalan danışıb, yaxud “qina” etmək (avaz oxumaq) deməkdir. Fəqihlərin fikrincə, nohə batil məqsəd və batil keyfiyyətli olarsa, haramdır. Belə olmadığı surətdə, böyük şəxsiyyətlərin öz əzizlərinin vəfatı zamanı ağladıqları barədə çoxlu hədislər mövcuddur. Məsələn, İbn Qüdamə rəvayətdə belə deyir:

“Fatimeyi Zəhra (s) və Əbu Bəkr Peyğəmbərin məzarı, yaxud onun cəsədini öpüb onun qəbri üstündə ağlamışdılar”.

Ənəs deyir: “Rəsulullahın qızını atasının məzarı kənarında gözlərindən yaş axdığı halda gördüm”.

Aişə deyir: “Əbu Bəkr Allah Rəsulunun cənazəsinə yaxınlaşdı, kəfəni üzündən kənara çəkdi, onun üzündən öpüb ağladı”.

Əlidən (ə) nəql olunur: Fatimə (s) Peyğəmbərin qəbrindən bir ovuc torpaq götürdü və gözlərinə sürtdü”.

Əlbəttə, qeyri-şəri matəmlər haqqında da hədislər vardır ki, bir neçəsini diqqətinizə çatdırırıq:

---

1 Seyid Məhəmməd Cavad Amili, “Miftahul Kəramə”, 4-cü cild, səh. 54.

"قالتْ أُمُّ عَطِيَّة: أَخَذَ عَلَيْنا رَسُولُ اللهِ (ص) عِنْدَ الْبَيعَةِ أَنْ لا نَنُوحَ"

Ummu Ətiyyə deyir: "Rəsulullaha beyət zamanı, o, nohə və ağlayış deməməyimizə görə bizdən söz aldı".

Bu hədisdən müsəlmanların cahillikdəki kimi nohə oxumaqdan kənar durmaları nəticəsinə gəlmək olar.

"عن أبي موسى: إِنَّ النَّبي (ص) قالَ لَيْسَ مِنَّا مَنْ ضَرَبَ الخُدُودَ وَ شقّ الجيوبَ و دَعَا بِدَعوى الجَاهِلِيَّة"

"Əbu Musa Əşəri Peyğəmbərdən nəql edir ki, buyurub: Müsibət baş verdiyi vaxt üz-gözünü cırmaqlayıb, ətəyini cıran və cahillik dövründəki kimi ah-zar edən şəxs bizdən deyil".

Ibn Qüdamə bunların ardınca deyir:

"Bu hədisdən də, əvvəllərdə dediyimiz kimi, əzadarlığın hansı hallarda haram olması məlum olur. Əgər matəm saxlamaq insanın fitrət və hissləri ilə uyğun olarsa və ağıl hüdudlarından kənara çıxmazsa, iradı yoxdur".[1]

Daha sonra İbn Qüdamə geniş surətdə açıqlayaraq deyir: Kişilər üçün matəm caiz, qadınlar üçün isə məkruhdur".

1 İbn Qüdamə, "Əl Məani", 2-ci cild, səh. 383 və 411.

## DOQQUZUNCU SÖHBƏT

### *Quran, rəvayət və tarixdə təhrif*

Neçə illərdir ki, vahabilər İslam ictimaiyyətinin rəhbərliyini ələ almağa can atırlar. Istismarçıların bu cərəyanı yaratdığı ilk gündən bu arzu ilə yaşayır, bu yolda bütün imkanlardan lazımınca istifadə edirlər. Allah vergisi olan nefti dollarlara dəyişir, bu pulla saysız-hesabsız müsəlmanı öz tərəflərinə çəkirlər. Bu işdə Hicaz torpaqlarının tarixi imtiyaz və üstünlüklərindən rəhbərliyə çatmaq üçün istifadə edirlər. Məsələn, İslam Peyğəmbəri bu ölkədə besət etmiş, İslamın başlanğıc nöqtəsi burada olmuş, Məkkə və Mədinədə ayaq açıb digər yerlərə yayılmışdır. Peyğəmbərdən bir neçə müddət sonra İslamın paytaxtı qərarlar qəbul edilib xəlifələrin təyin olunduğu mərkəz olmuşdur. Bu gün də Məkkə və Mədinənin İslamın mərkəzi olması gərəkdir. Eləcə də Quran Hicaz torpaqlarında nazil olub, o diyarın camaatının dilini meyar seçmiş, Məkkeyi Müəzzəmə, şərəfli abidələr və müqəddəs məkanlar oradadır. Bu ölkənin padşahı xadimul hərəmeyndir (iki hərəmin xadimi) və çoxlu təbliğ imkanları olan bu rejim onun ixtiyarındadır.

Bunları nəzərə almaqla, Səudiyə padşahlığının müsəlmanlara başçılıq və rəhbərlik etmək ləyaqəti olduğuna onların etiqadı vardır. Onların fikrincə, həqiqi İslam - onların İslamı, Quran, sünnə ilə müvafiq olan məzhəb isə vahabi əqidəsidir. Vahabi firqəsi Naciyə

(nicata çatan) və Mərcə (qayıdış məhəlli) firqələri islamla tanışlıq mənbələri, dini təbliğ edib yayan firqədir. Digərləri isə islam dinini tanımaq üçün bu firqələrə müraciət etməlidirlər.

Yeni firqənin meydana çıxıb vahabiçiliyin zühur etməsinin fəlsəfəsi Şiəni alçaldıb müsəlmanlar arasında nifaq salmaq olduğu üçün istər ərəb, istərsə də qeyri-ərəbi doğru yola çəkmək üçün dolğun təfəkkürlü şiənin ünvanına zəif xüsusiyyətlər söyləməklə bu firqənin nöqsanlı olduğunu sübut etmək istəyirlər.

Şiə üçün nöqsan hesab etdikləri məsələlərdən biri də təqiyyədir. Onlar təqiyyəni bir növ açıq-aşkar nifaq hesab edirlər. Eləcə də Şeyxeyn (iki Şeyxləri) xilafəti və Ummul Möminin Aişənin fəzilətinə olan etiqadsızlığı, Quranın təhrif olunmasına... inanmağı şiələrə eyb və nöqsan kimi qələmə verirlər. Şiəyə vurduqları ittihamlar və töhmətlərin puçluğunu açıqlamaq qalın bir kitabın yazılmasını tələb etdiyi üçün biz burada yalnız Quranın təhrif olunması etiqadı haqqında söhbət açacağıq.

## Şiə və sünnü alimlərinin təhrif barəsində fikirləri

Quranın təhrif olunması mövzusu yalnız şiə firqəsinin iddiası deyildir. Eləcə də təhrif olunması da məhz vahabi firqəsinə məxsus deyildir. Şiə alimləri arasında Quranın təhrif olunduğunu söyləyən hədisçilərə rast gəlmək mümkündür. Əlbəttə onlar təhrifi vahabilərin nəzərdə tutduqları mənada deyil, başqa cür mənalandırmışlar.

Sünnü alimləri içində də Quranın təhrif olunmasına inanan şəxslər vardır. Daha çox məlumat almaq üçün bu mövzuda yazılmış kitablara müraciət etmək olar.[1]

Sünnə əhlinin bir neçə hədisçisinin əqidəsinə əsasən Quranın təhrif olunduğuna inanmalarını demək düzgün olmadığı kimi, bəzi şiə hədisçilərinin bu nəzərini bütün şiə alim, fəqih və hədisçilərinə şamil etmək heç də məqsədəuyğun deyildir.

Əhl sünnənin əksər etibarlı kitablarında ("Səhih Muslim", 5-ci cild, səh.116, "Musnəd Əhməd", 1-ci cild, səh. 47, "Səhih Buxari", 4-cü cild, səh. 11 və 8-ci cild, səh. 208, eləcə də "Kənzul ummal" kitabının seçilmiş əsərləri 3-cü cild, səh 43-dəki kimi) Quranın təhrif olunması haqqında hədislər mövcuddur. Belə hədislərin yazıldığı bütün kitabların üzərindən qırmızı xətt çəkməyin ağılasığmaz bir iş olduğu kimi, Quranın təhrif olunduğunu söyləyən şiənin böyük şəxsiyyətlərinin bütün əsərləri və kitablarından da üz çevirmək düzgün deyildir. Məsələn, Mühəddis Nurinin - Quranın təhrif olunduğunu isbat edən "Fəslul xitab" kitabını yazdığına görə - onun "Müstədrək" kitabına laqeydlik göstərmək olmaz.

Mühəddis Nuri və onun kimilərin təhrif barəsində fikirləri ilə vahabilərin nəzərdə tutduqları məna tam başqadır.

---

1 Seyid Mehdi Ruhani, "Buhusu məə əhlis sunnə vəs sələfiyyə", səh. 63-74 və səh. 206-324-ə müraciət edin.

Beləliklə, bəzi şiə və sünnü alimləri Quranın təhrif olunduğunu düşünürlər. Bu zəmində önəmli addımlar vahabiçilik firqəsinin istismarını və onların Şiə və Sünnü müsəlmanları içində yaratdığı münaqişələri aradan qaldırmaqdır.

Şiələr Quranın təhrif olunmasını şiddətlə inkar edirlər. Onlar Quranı bizim etiqadlarımızı və rəvayətçilərin doğru, yaxud yalan olduğunu müəyyənləşdirən, İslam sistemini istiqamətləndirən bir kitab kimi qəbul edirlər. Bundan əlavə, əgər təhrif olunmuşdursa, dinin həqiqi mühafizəçiləri olan Məsum İmamlar (ə) bizə xəbərdarlıq edərdilər. Şiənin Quranın təhrif olunması haqqında dəlilləri ilə sünnü alimlərinin əks fikirlərini nəzərə alaraq demək lazımdır ki, Quranın təhrif olunması keçmiş üç xəlifənin öhdəsinə düşür. Çünki, Quran onların dövründə tədvin olunmuş, Əli (ə) də onların tənzim etdikləri Qurana uyğun əməl edərmiş.

Şiənin Quranın təhrif olunmaması haqqında dəlillərindən biri Mövla Əlinin (ə) bu kəlamıdır:

"وَاعْلَموا أَنَّ هذا القرآن هُوَ النَّاصِحُ الَّذِي لا يَغُشُّ والهادِي الَّذِي لا يُضِلُّ وَالْمُحَدِّثُ لا يَكذِبُ..."[1]

“Bilin ki, şübhəsiz Quran, öyüdündə aldatmayan, yol göstərməkdə insanları azdırmayan, söyləni̇şdə yalan söyləməyən bir nəsihət verəndir”.

Bu hədis Quranın toxunulmazlığını göstərir. Çünki, Quran təhrif olunmadığı halda yaxşı yol göstərici və sadiq nəsihətçi ola bilər.

1 “Nəhcül Bəlağə”, 176-cı xütbə.

Məsum İmamlardan nəql olunmuş digər çoxlu rəvayətlər və dəlillər dediklərimizi təsdiqləyir.

## Bəzi fəqihlərin düşüncələri

Şiənin alim və fəqihləri ümumilikdə, təhrif olunmanı rədd etmişlər. Bu barədə həddən artıq çoxlu kitabları sadalamaq üçün ayrıca kitaba ehtiyac vardır. Biz isə ilk tanışlıq üçün bir neçə kitabla kifayətlənirik:

Ayətullah Ziyauddin Əraki, "Usul", 3-cü cild, səh. 93;

Ayətullah Musəvi Bocnurdi, "Muntəhəl usul", 2-ci cild, səh. 81;

Firuz Abadi, "İnayətul usul", 3-cü cild, səh. 120;

Axund Xorasani, "Kifayətul usul", 2-ci cild, səh. 63.

Ayətullah Xoyi bu barədə deyir: Bəzi söz və ayələrin düşməsi yaxud atılması mənasını verən Quranın təhrif olunması məsələsi həqiqətə uyğun olmayan mövhumatdır".

Şiənin görkəmli alimlərindən olan İmam Xomeyni öz dərslərindən birində belə demişdir:

"Əxbariyyun Quranın təhrif olunduğunu deyirlər. Bu, həqiqətə uyğun deyil. Çünki onların (dəlil gətirdikləri) sənədlərin bəziləri saxta, bəziləri zəif və bəziləri isə yozulma qabiliyyətli sənədlərdir".

Eləcə də hicri şəmsi tarixinin 1365-ci il həcc mərasimi mövsümündə hacılara göndərdiyi bəyənnaməsində Quran üzərində təfəkkürə və düşünməyə dəvət edib, onları bu işə rəğbətləndirmişdir. Nitqi əsnasında açıq-aşkar Quranda heç bir təhrifin baş verməməsini

aydınlaşdırmış, bütün müsəlmanların etimad və etibar edə biləcəyi bir kitab olduğunu qeyd etmişdir.

Şiənin bu məsələyə olan etiqadının aydınlığından sözü uzatmağa ehtiyac yoxdur. Oxucularımız daha artıq məlumat almaq üçün bu barədə olan kitablara müraciət edə bilərlər.[1]

### *Vahabilərin təhrifləri*

"Usul kafi" adlı kitabda Fatimə (s) və Əlinin (ə) - hər birinin Peyğəmbərin dövründən hər günün hadisəsini yazdıqları - bir Quranları olduğu haqqında hədis vardır. "Usul kafi" şiələrin ən mötəbər, qədim kitablarından olduğu üçün vahabilər bu kitabdakı hədisləri əsas tutaraq belə deyirlər: "Şiənin etibarlı kitablarındakı rəvayətlərə əsasən, onların əsl Quranları Fatimə (s) və Əlinin (ə) Qurandır. İndiki mövcud Quranı isə qüsurlu bilirlər". Onlar bu fikri şiənin öz əqidəsindən əl çəkib Fatimə (s) ilə Əlinin (ə) heç bir kitabı olmadıqlarını sübut etmək üçün irəli yürüdüblər.

Vahabilər şiəni etibarsız edib, şiə-sünnü münaqişələri yaratmaqdan ötrü bu məsələni elə şişirdirlər ki, guya Sünnə əhlinin mötəbər kitabları və onların alimlərinin belə bir əqidəsi olmamışdır. Keçən səhifələrdə sünnə əhlinin mötəbər kitablarından götürülmüş bu rəvayətlər haqqında söz açmışdıq. "Sünnü-şiə arasında olan etibarlı mənbələr" dedikdə yazılanların hamısının mütləq surətdə düzgün və qəbul edilmək qabiliyyətli, tənqidi araşdırmaya, təvil və təkzibə ehtiyacsız olan

1 Rəsul Cəfəryan, "Ukzibətu təhriful Quran".

mənbələr demək deyildir. Əlbəttə, Fatimə (s) ilə Əlinin (ə) Quranı olduğu həqiqətdir. Şiə etiqadı ilə o Quran Əsrin İmamındadır (ə). Quranın deyilən bu iki nüsxəsinin əldə olan Quranla heç bir fərqi yoxdur. Çünki bu Quran da kamildir. Lakin onların (ə) Quranında bizim Quranı dərk etməyimizə daha yaxşı kömək edə biləcək günün hadisələri, ayələrin nazil olma səbəbləri və təfsirlər yazılmışdır.[1]

### *İslam Peyğəmbərinin sözlərində olunan təhriflər*

Iki firqə Quranın təhrif olunmamadığını inkar etdiyi halda vahabilər də özlərini bu əqidəyə qoşmaq istəyirlər. Sual olunmalıdır ki, Nəbəvi hədislər təhrif olunarsa, bunu tənqid etmək lazım deyilmi? Peyğəmbər sözlərinin təhrif olunduğunu anladıqda o həzrətin kəlamının paklığına təminatı necə qəbul etmək olar?

Vahabiçiliyə aid kitablar və əsərlərdə Peyğəmbərdən nəql olunan rəvayətlərin təhrif və ixtisar edilməsindən çoxlu şahidlər gətirmək mümkündür. Onlar isə çox vaxt ilkin sənədləri oxucuların ixtiyarına buraxmırlar. Hədislərin qüsurlu, dəyişik, təhrif olunduğu yerlər isə çox zaman Peyğəmbərin (s) Əhli Beytə göstərdiyi inayətlər, yaxud Əlini (ə) tərifləyib xüsusiyyətlərini sadaladığı və bəzi ayələrin Əli (ə) haqqında nazil olması, yaxud şiə əqidəsini təsdiqləyən söz, ya cümlələrdir. Bu səbəbdən bir neçə nümunəni nəzərinizə çatdırırıq:

---

1 “Məalimil mədrəsətəyn”, 3-cü cild, səh. 306.

Birinci nümunə: Bu firqənin saxtalaşdırdığı rəvayətlərdən biri məşhur “Səqələyn” hədisidir:

"إِنِّي تَارك فِيكم الثقلين: كتاب الله و عترتي أهل بيتي"

“Mən sizin üçün iki şey qoyub gedirəm. Biri Allah kitabı və digəri isə mənim yaxın qohumlarımdan (itrətim) olan ailəm və Əhli Beytimdir”.

Şeyx Abdullah Əl Əziz bin Baz[1] hicri şəmsi tarixinin 1364-cü ilində kiçik kitabçada keçirilən aksiyaların bidət olduğunu söyləyib, Fələstin və Livan kimi xalqların təriflənməsi, Amerika və İsrail kimi ölkələrin məzəmmət olunmasının günah olduğunu demişdir. Bu kitabçanın 8-ci səhifəsində yuxarıdakı hədisi belə nəql etmişdir:

"إِنَّهُ (ص) خَطَبَ النَّاس يَوْمَ عَرَفَة' فَقَال: إنِّى تارك فيكم ما لَنْ تَضِلُّوا إِنْ اعْتَصَمْتُمْ بِهِ كتابَ الله و سُنَّتِي"

“Peyğəmbər (s) Ərəfə günü camaata xitab edərək dedi: Mən sizin üçün bir yadigar qoyuram ki, ona arxalansanız heç vaxt yolunuzu azmazsınız: Allah kitabı və öz ailəm (itrətim)”.

“Fəthul Məcid” kitabında bu məzmunda hədis belə nəql olunur:

"إِنِّي تارك فيكم ما إِنْ تمسّكتُم بِهِ لَنْ تَضِلُّوا كتاب الله"[2]

“Bir məsləyin davamçıları olan, “Fəthul Məcid” və Abdullah bin Bazın nəql etdikləri arasındakı təhrifin fərqini açıq-aşkar müşahidə edirik. Onların nəql etdikləri rəvayətlərdən birində “Allah kitabı və sünnəm”, digərində isə “Allah kitabı” zikr olunmuşdur.

1 Hicri qəməri tarixinin 1420-ci ilinin yayında vəfat etmişdir.

2 “Fəthul Məcid”, səh. 35.

Əhl sünnə mənbələri və sənədlərinə əsasən, hər iki rəvayəti təhrif olunmuşdur. Çünki, Sünnə əhlinin kitablarında “Allah kitabı və Əhl Beyt” kimi nəql olunmuşdur. Ancaq vahabilər bu mötəbər rəvayətdə - Peyğəmbər ailəsinə diqqəti cəlb edib şiəni təsdiqlədiyinə görə - hədisdə dəyişikliklər aparmışlar. Həmən rəvayət isə “Səhih Muslim”də belə nəql olunur:

"إِنَّهُ (ص) قال: أَلا أَيُّهَا النَّاسُ يُوشكُ أنْ يَأْتِي رَسُولُ رَبِّي فَأجِيبُ وَ أَنَا تَاركٌ فِيكُمْ الثَّقَلَيْنِ: أوَّلُهُمَا كِتَابَ الله. فيه الهدى والنّور فَخُذوا بكتابِ اللهِ واستَمْسِكُوا بِهِ فَحثَّ عَلَى كتابِ اللهِ وَ رَغَّبَ فِيه. ثُمَّ قال: وأهلُ بَيْتِي أُذَكِّرْكُمُ لله في أهل بيتي"[1]

“Musnəd Əhməd” (səh. 17 və 59), “Səvaiqu ibn Həcər” (səh. 136) və Sünnü qardaşların digər kitablarında buna oxşar rəvayətlərdə “Əhl beyt” qeydi ilə təkrar olunmuşdur. Amma “Məscidun Nəbi” kitabxanası və Məkkədə çap olunmuş “Fəthul Məcid”, Abdullah bin Bazın kitabçalarında qüsur, nöqsan, dəyişilmə və təhriflər mövcuddur. Bu, təhrif olunmamış məşhur və mütəvatir[2] hədislərin bir nümunəsidir. Təhrif, sözlərin qüsurluq və pozulması İslama, müsəlman tarixinə xəyanət deyilmi?

Ikinci nümunə: (Naciyə firqəsinin ümməti kimdir?): “Əl əsilə vəl əcvibə” kitabında Peyğəmbərin (s) dilindən belə rəvayət olunur:

"إِنَّهُ (ص) قَال سَتَفْتَرِقُ هذِهِ الامَّة عَلى ثَلاثَ و سَبْعِينَ فِرقَةً كُلّهَا فِى النَّارِ إلاَّ وَاحِدة هُمْ أَهْلُ السُّنَّة وَ الْجَمَاعَةُ"[3]

---

1 “Səhih Muslim”, 7-ci cild, səh. 123.

2 Etibarlı hədisçilərin arasıkəsilmədiyi rəvayətlər.

3 “Əl Əsilə vəl əcvibə”, səh. 23.

“Bu ümmət yetmiş üç firqəyə bölünəcək. Ümmət münaqişə və ixtilaf içində batacaq, sünnə əhli və Camaatdan başqa hamı atəş içində olacaqdır”.

Bu hədisdə Peyğəmbərin əvvəlcədən Əhl sünnəni təsdiqlədiyini sübut etmək üçün “Əhli-sünnə vəl cəmaət” sözləri artırılmışdır.

Sünnə əhlinin mötəbər mənbələrinin heç birində “əhlus sunnə vəl cəmaə” cümləsi yoxdur. Vahabilər yeni zühur etdikləri üçün öz firqələrinin adını hədisə artıra bilməzdilər. Bir tərəfdən də özlərini sünnə Əhlindən bildikləri üçün sünnü-şiə arasındakı münaqişəli münasibəti dərinləşdirməyi özlərinə vəzifə hesab edirdilər. “Əhlis sünnə” cümləsini hədisə əlavə etməklə Peyğəmbərin elə əvvəlcədən sünnə əhlini təsdiqləyib, digərlərini isə rəsmi surətdə tanımadığı fikrinə qüvvət vermək istəyirlər.

Bütün bunları nəzərə alaraq əgər “Əhlis sunnə vəl cəmaə” frazası əlavə olunarsa, belə bir sual meydana çıxır: Bəs onda Naciyə firqəsinin nümayəndəsi hansı dəstədir: Şübhəsiz ki, Kitab, sünnə və Peyğəmbərin Əhl Beytinə ən yaxın, onlara sığınan dəstə Naciyə firqəsidir. Əhl sünnə kitablarında nəql olunur ki, Allah Kitabı və Əhl Beytə sığınanlar haqq yolundan azmayan yeganə dəstədir.

Üçüncü nümunə: (Qadınların mütə siğəsi sözünün təhrifi). Əhl Sünnənin mötəbər kitablarından biri “Səhih Termezi”də belə bir rəvayət nəql olunur:

"سُئِلَ ابنُ عمر عن متعةِ النساءِ فقالَ: هيَ حَلالٌ وَ كَانَ السَّائلُ مِنْ أهْلِ الشَّام. فَقَال لَهُ: إنَّ أَبَاك قَدْ نَهىَ عَنْهَا؟ فَقَال ابْنُ عُمَر: إِنْ كَانَ أبِي قَدْ نَهَى عَنْهَا' وَضعَهَا رَسُولُ الله (ص). نَتْرُكُ السُّنَّة و نَتْبَعُ قَوْلَ أَبِي؟"

“Şam əhlindən bir nəfər Əbdullah bin Ömərdən qadınları mütə etmək haqqında soruşdu. O, cavab verdi: Mütə halaldır. Şamlı dedi: Atanız bunu haram etmişdi? Əbdullah bin Ömər dedi: Atam əgər bunu haram etmişdisə də Allah Rəsulu onun halal olduğunu buyurmuşdu. Mən indi Peyğəmbər adətini qoyub atamın dediklərinin ardıncamı gedim?!

“Səhih Termezi”nin yeni çapında bu hədis bütövlüklə götürülmüşdür.[1]

Qeyd etmək lazımdır ki, Ömər yalnız müvəqqəti nikahı haram etməmişdir. O, Təməttö Ümrəsi bitdikdən sonra ehram paltarı geyinmiş, həcc ehramını geyinmədən öncə - Peyğəmbərin dediyinə əsasən – öz halal qadınından ləzzət alıb cinsi əlaqəyə girə bilməsinə icazə verildiyi surətdə həcdə intim ləzzəti də haram hesab etmişdir.

Ibn Kəsir müvəqqəti nikahın haram olunması barədə yuxarıdakı rəvayətin məzmununda bir rəvayət nəql edir:

"كانَ ابْنُه عبدُ الله يُخَالِفُهُ. فَقَالَ: إنَّ أبَاكَ يَنْهى عَنْهَا. فَيقولُ: خَشِيتُ أَن يَقعَ عَلَيْكُم حِجَارَةٌ مِن السَّمَاءِ قَدْ فَعَلَهَا رَسُولُ الله' أَفَسنَّةُ رَسُولِ اللهِ نَتْبَعُ أمْ سُنَّةُ عمربن الخطاب؟"[2]

“Abdullah atasının sözü ilə müxalif idi. Ona atasının müvəqqəti nikahı inkar etdiyi zaman söylədi: Belə sözləri danışdığınız zaman göydən başınıza daş

1 Seyid Cəfər Murtuza, “Dirasətun və buhusun fit tarix”, səh. 14.

2 “Tarix İbn Kəsir”, 5-ci cild, səh. 141.

yağacağından qorxuram. Allah rəsulu bu işi halal etmişdi. Mən Rəsulullah adətlərinin ardınca gedim, yoxsa atam Ömər bin Xəttabın?”

Deyildiyi kimi həcdə müvəqqəti nikah münaqişəli mövzudur. Rəsulullahın səhabələri bu barədə eyni bir nəticəyə gəlməmişlər. Zahiriyyə[1] firqəsi səhabələrin əməllərinin höccət olduğuna inanırlar. Lakin onlar deyirlər ki, səhabələrin bu barədə ixtilafını nəzərə alaraq Ömərin dediklərini qəbul etmək lazımdır.

"متعتان كانتا على عهد رسول الله (ص). أنا أَنْهَى عنهما و أُعاقِبُ عليهما: مُتْعَةُ الحجِ و مُتعةُ النِّساءِ"[2]

“Ömər demişdir: Allah Rəsulunun dövründə iki mütə və müvəqqəti nikah var idi. Mən isə bunların haram olduğunu deyir və bu işi görənləri məzəmmət edirəm: Həcc mütəsi və qadınlarla müvəqqəti nikah”.

Burada bir sual qarşıya çıxır: Əgər onlar səhabələrin münaqişələri səbəbindən Ömərin dediklərini qəbul edirlərsə, bəs onda nə üçün Peyğəmbərin sözünə əsasən həcc mütəsinin ləğv olunmasını qəbul edən böyük alim, hədisçi və hər şeydən agah olan İbn Abbasın fikrini seçməyiblər?!

Ibn Abbasla, Ömərin övladı Abdullahın Ömərə olan zidd mövqelərindən başa düşmək olar ki, Ömər bu iki mütə barəsində ictihad edib camaatı da Peyğəmbərin (s) həyatı zamanı hamının qəbul etdiyi işdən

1 Hədislərin yalnız zahiri mənasına qane olan sünnə əhlinin bir firqəsi.

2 “Bidayətul muctəhid və nəhayətul muqtəsid”, 1-ci cild, səh. 346; İbn Qüdamə, “Əl Moğni”, 7-ci cild, səh. 527; İbn Qəyyim, “Zadul məad”, 2-ci cild, səh. 205.

çəkindirmişdir. Bu, rəy və nəzəri açıq-aydın olan nəsilə qarşıdurma deyilmi?

Xəlifənin bu fikri ilə razılaşmayan ilk şəxslər İbn Ömər, İbn Abbas və bəzi səhabələr idi.

Vahabilərin səhabələrin özünü qəbul etdikləri iddianı nəzərə alaraq əgər (şiə kimi) bəzi şəxslər yəqinləşdirilmiş sənədlərə əsasən Ömərin rəyini qəbul etməzlərsə, Abdullah, İbn Ömər və İbn Abbasın dedikləri ilə razılaşarlarsa, əyri yola düşüb küfrəmi düçar olublar? Belə olduğu halda, İbn Abbasla səhabələr də əyri yolda olub kafirmi sayılırlar?

Dördüncü nümunə: Əhməd bin Hənbəlin "Müsnəd"ində Peyğəmbərin Əli (ə) ilə qardaşlığına işarə edən səkkiz rəvayətə rast gəlmək olar:

"هذا أَخي"

"Əli mənim qardaşımdır".

Bu kitabın yeni çaplarında bütün bu rəvayətlər aradan götürülmüş, onlardan əsər-əlamət belə qalmamışdır.

Beşinci nümunə: Hicri qəməri tarixinin 1358-ci ilinə qədər çap olunmuş "Tarix Yəqubi" kitabında

"الْيَوْمَ أَكْمَلْتُ لَكُمْ دِينكُمْ..."

şərif ayəsi barəsində yazılır: "Bu ayə Qədir Xum günü nazil olmuşdur". Lakin hicri qəməri tarixinin 1379-cu ilindən sonrakı əsrlərdə tarix kitabı çaplarında qeyd olunan bu cümlə təhrif olunub müəyyən qeydlərlə bu ayənin Ərəfə günü nazil olduğuna çevrilmişdir. Yalnız bir sətirin təhrif olunması üzündən bir çox qəbirlər,

məscidlər və qədim yadigarlar məhv edilmiş, yaxud adları dəyişdirilmişdir. Mulidun Nəbi (s), Mulidu Əli (ə), "Həcər İsmail"in iki küncündə olan İsmayıl ilə Hacərin qəbirləri (bir neçə il öncə xüsusi daşla məlum olan), Qədir Xum məkanı, Xədiceyi Kübranın qəbir yaxud hər bir yadigarı, Əbu Talib qəbiristanlıq və çoxlu tarixi əsərlər vahabilərin vasitəsi ilə məhv edilmişdir. Çünki, onlardan hər biri tarixi hadisə və cərəyanlardan söz açdığı üçün çox vaxt bir yolla saxta vahabiçilik məzhəbinin zərərinədir. Onlar Mübahilə məkanını "Əl icabət" məscidi adı ilə əvəz etmişlər. Mədinə şəhəri sakinlərindən Fatimənin qəbirinin harada yerləşdiyini soruşduqda heç kəs onun harada olduğunu bilməzlər. O ölkəyə səfər edənlər isə Mübahilənin harada baş verdiyini bilsələr də belə asanlıqla oranı tapa bilməzlər.

Bununla da şiə məzhəbi Quranda təhrifin heç bir növünü qəbul etmir. Yalnız keçmiş azsaylı şiə və sünnü alimləri təhrifi qəbul etmişlər. Təhrif necə formada olursa-olsun, istər Quranda, hədislərdə, istərsə də tarix və tarixi abidələrdə inkar olunur.

Islam dünyası Peyğəmbərin dedikləri mənbələr və qədim mötəbər dini kitablarının mühafizəsi üçün cəmiyyətin təşkil olunması, İslam bünövrəsinin qorunması üçün çalışmalıdır.

Bəlkə də bu hədisin sirri elə belə təhriflərlə mübarizə etməkdir:

"من حفظ من امتي اربعون حديثا"

“Ümmətimdən kim 40 hədis əzbərləyərsə, Allah Taala Qiyamət günü onu fəqih və alim olaraq məhşur edəcəkdir”[1]

1 “Səfinətul bihar”, 1-ci cild.

## ONUNCU SÖHBƏT

## ***Hakimlərə mütləq itaət***

### Hakimlərə mütləq surətdə itaət etmək

Özünü Əhməd bin Hənbəlin davamçıları hesab edən vahabilər üç dəlilə əsasən “Ulul əmrə” itaət etməyi vacib bilirlər. onların iki bayram, cümə, camaat namazı, həcdə və cihadda rəhbərliyi, imam və hakimin ixtiyarında olmasına etiqadları vardır. Bu imam və hakimİN adil, zalım, fasiq olub-olmamasının heç bir fərqi yoxdur. Quran, sünnə və səhabələrin əməllərinin bu nəzəriyyəni təsdiqlədiyinə inanırlar.

Onların bu barədə ilk dəlilləri

"يَا أَيُّهَا الَّذِينَ آمَنُوا أَطِيعوا اللهَ و أَطِيعوا الرَّسُول و أولِي الأَمْرِ مِنْكُمْ"

ayəsidir. Onların dediyinə görə “Ulul əmr” mütləq və ümumi surətdə gəldiyi üçün istər pis, ya yaxşı, hər hakimə itaət etmək lazımdır. Ulul əmrə itaətdə isə adil, yaxud fasiq olduğu qeyd edilməmiş. Yeri gəlmişkən bu cümlə xüsusiləşdirilməmişdir. Elə buna görə də qeyd olunan hakim sözündə onun adil hakim olmasını demək olmaz.[1]

Vahabilərin başqa bir dəlili Peyğəmbərin dilindən nəql olunan və “Əl Əsilə vəl əcvibə” kitabının düzgünlüyünü iddia etdiyi rəvayətdir. Rəvayət belədir:

"اِنَّ اللهَ يُؤَيِّدُ هَذَا الدِّينَ بالرَّجلِ الْفَاجِرِ"

---

1 “Əl Əsilə vəl əcvibə”, səh. 321.

“Allah bu dini hətta fasiq hakimlə belə təsdiqləyir”.

Bu rəvayətdən belə çıxır ki, dini təsdiqləyən hər bir hakim itaət olunmalıdır. Lakin vahabilər bunu başqa cür mənalandırırlar.

Əbu Hüreyrədən olan hədislərdən birində deyilir:

"أَلْجِهَادُ وَاجِبٌ عَلَيْكُمْ مَعَ كُلِّ أمْيرِ بِرّاً كَانَ أوْ فَاجِراً"

“Sizə hökumət edən şəxslə - birlikdə cihad istər yaxşı və adil, istərsə də zalım və fasiq – sizə vacibdir”.

Onların üçüncü dəlili səhabələrin əməllərinin höccət olmasıdır. Şərab içən, laqeyd və başısoyuq bir insan olmasına baxmayaraq Vəlid bin Əqəbə bin Əbi Muitin imaməti ilə Abdullah bin Məsudun namaz qılmasını misal gətirirlər.

Başqa bir misal məşhur səhabələrdən olan Abdullah bin Ömərin, necə qaniçən olduğunu bilərək Həccac bin Yusifin imaməti ilə namaz qılmasıdır. Eləcə də İbn Əbi Übeydənin əqidə azğınlığı ilə camaatı azğınlığa dəvət etdiyini açıq-aşkar bildiklərinə baxmayaraq, bəzi səhabələrin namaz qılarkən ona iqtida etdiklərini nümunə göstərirlər.

Bütün bunlar zalım, yaxud adil olub-olmamasından asılı olmayaraq, ümumiyyətlə bütün hakimlərə itaət edilməsi barəsində vahabilərin dəlilləridir. Bu təfəkkür həqiqətdə zalım, fasiq və şərab içənlərin hökumətə gedən yollarını asanlaşdırıb, islahatçıların inkişafına mane olmuşdur. Eləcə də bu təfəkkür Quranla uyğun gəlmir. Çünki, bir ayənin düşünülməsi üçün bütün Quran ilə digər ayələrə diqqət edilməsi lazımdır. Quranda zalımlar, müfsidlər və müsriflərə itaət

olunmaması haqqında ayələr nazil olmuşdur. Bu ayələr isə "ulul əmr" üçün ən aşkar dəlillərdir ki, müfsid və zalımlara tabe olsaq, günahkarlara itaət etmiş olarıq və bu isə Quranın ziddinədir:

"و لا تعاونوا على الإثم و العدوان"[1]

"Günah və düşmənçilikdə bir-birinizə kömək etməyin".

Hətta bundan üstün valideynlərə haqq yolunda addımladıqları surətdə itaət etməyi mümkün hesab etmişdir. Hakimlərə itaət etmək isə valideynə edilən itaətdən üstün ola bilməz:

"وَ وَصَّيْنَا الْإنْسَانَ بِوَالِدَيْهِ حُسْناً وَ إِنْ جَاهَدَاكَ عَلَى أنْ تُشْرِكَ بِي مَا لَيْسَ لَكَ بِهِ عِلْمٌ فَلا تُطِعْهُمَا"[2]

"İnsana valideynlərinə yaxşılıq etməsini tapşırdıq. (Ancaq) Əgər onlar sənin üçün məlum olmayan şeylərə şərik seçərlərsə, onlara itaət etmə".

Peyğəmbər sünnəsi və onun hədislərində də günahkar məxluqlara itaət etmək qadağan olunmuşdur:

"لا طاعةَ مخْلوق في مَعْصِيَةِ الْخَالِق"[3]

"Xaliqə qarşı günah edən məxluqlara itaət olunmaz".

Əsasən İslam cəmiyyətinin inkşafı təqva təməli üzərində qurulmuşdur:

"تَعَاوَنُوا عَلَىَ الْبِرِّ وَالتَّقْوَى"[4]

1 Maidə (5), 2-ci ayə.
2 Ənkəbut (29), 8-ci ayə.
3 "Nəhcül Bəlağə", Feyzul İslam, 156-cı Hikmət.
4 Maidə (5), 2-ci ayə.

Peyğəmbərin besətinin səbəbi isə ədalətin bərpa edilməsidir:

"ليقوم النَّاسُ بالقِسط"[1]

Bütün bunları nəzərə alaraq, İslamın adil olmayan bir şəxsi təsdiqlədiyi, cəmiyyəti fəsad və zülmə düçar edib bəzi səhabələrin əməllərini meyar etməsi necə mümkündür?

## Səhabələrin davranışı

Bəzi səhabələrin rəftarlarına nəzər saldıqda, zamanın qeyri-şəri hakiminə iqtida etməsindən, zalım yaxud adil olub-olmamasından asılı olmayaraq hər hakimə tabe olmaq nəticəsi alınırsa, bəs onda nə üçün Abdullah bin Ömər Osmanın xilafətini qəbul etdi, lakin Əli (ə) və İmam Hüseynin (ə) xilafətini qəbul etmədi? Nə üçün İmam Hüseynə (ə) kömək etmədi, amma Yəzid bin Ziyad və Həccacla beyət etdi? Nəyə görə bəzi səhabələr Əliyə (ə) beyət etmədilər?

Bütün bunları nəzərə alaraq səhabələrin rəftarlarının özü-özlüyündə höccət olmadığını görürük. Onların höccət hesab olunması üçün şərtlərin mövcudluğu lazımdır. Sırf səhabə adını daşımaq kifayət deyildir. Çünki, münafiq dəstələr yaxud sonradan mürtəd olanlar da səhabələrin sırasında olmuş, onların vasitəsi ilə hətta hədislər də nəql olunmuşdur.

---

1 Hədid (54), 25-ci ayə.

Təəssüflər olsun ki, kök salmış bu təfəkkür Əhl sünnə qardaşların bəzi firqələrində sui-istifadə olunmuşdur. Əhməd Hənbəl deyir:

“Xəlifənin təyin olunmasının iki yolu vardır: Birincisi, Peyğəmbər Əbu Bəkri, Əbu Bəkr də Öməri seçdiyi, Ömər də altı nəfərlik şura yaratdığı kimi əvvəlki xəlifə onu təyin etsin. Ikincisi, hətta qılınc gücü ilə də olsa şəxsin özü qüdrətini nümayiş etdirsin. Məsələn, Əli ibn Əbi Talib kimi. Hər iki nəfərə itaət etmək lazım və onlarla müxalifət haramdır. Hakimin ərəb, yaxud Qureyş olub-olmaması şərt deyil. Əgər azğınlıq edib səhvə yol verərsə, yalnız fəqihlər onu nəsihət edə bilərlər”.[1]

Yəni Əhməd Hənbəl bu qədər İslamın ilkin tarixindən xəbərsiz idi ki, Əli bin Əbi Talibin qılınc gücü ilə, ya beyət yolu ilə xilafətə çatdığını bilmirdi? Digər tərəfdən, fasidlərin qüdrətinin nəsihət yolu ilə düzgün yola salınmasının mümkün olmadığı surətdə fəqihlərin risalətini onların nəsihət olunması kimi ünvanlamışdır. Bundan əlavə, əhl sünnə fəqihlərinin əksəriyyəti fasiq hakimin qüdrətinin qoruyucusu və tərifçisi olmuşdur. Özlərini Əhməd Hənbəlin sünnü məzhəbinin davamçıları hesab edən vahabilər indiyə kimi hökumət aparatına nəsihət verib, yaxud onlarla mübahisə ediblərmi? Yoxsa hökümət sisteminin hesabına yaşayaraq, onların xəyanətlərinin təfsirçisi olublar?

1 Əbu Zöhrə Misri, İbn Hənbəl, səh. 148.

Vahabilərin özləri - qəflət üzündən - kitablarında adil, yaxud fasid hakimə tabe olmağı sual altına alan rəvayətlər yazmışlar:

"قال رسول الله (ص): إِنَّمَا أَخَافُ عَلَى أُمَّتِى الاَئِمَّة المضلِّين؛ أي الأمراء والعلماء والعبَّاد"[1]

“Peyğəmbər buyurdu: Mən ümmətim üçün yolunu azmış və azğınlığa yol göstərən rəhbərlərdən qorxuram. Azğın rəhbərlər, yəni, azğın hakimlər, alimlər və abidlər”.

Peyğəmbər Əkrəm bu hədisdə azğın hakimlərə qarşı öz narahatçılıq və nigarançılığını bildirir. Həqiqətdə isə azğın hakimə itaət etməyi qadağan etmişdir.

Bu hədisin nəql olunduğu rəvayətdə deyilir:

"هل تَعرف ما يَهْدم الاسلام؟ قلت: لا. قال: يَهْدِمهُ زَلَّة العالِم وجدالُ المنافق بالكتاب و حُكْمُ الأئِمَّة المُضلّين"[2]

“İslamı nəyin məhv etdiyini bilirsənmi? Rəvayətçi dedi: Xeyr. Ömər dedi: İslamı məhv edən alimlərin azğınlığı, münafiqlərin Quran ayələri vasitəsi ilə azdırması, düzgün yoldan sapındıran azğın rəhbərlərin hökuməti”.

Bu hədis vasitəsilə də fasid hakimlərə itaət etməsinin qadağan və haram edildiyinin şahidi oldunuz. Qeyd etmək lazımdır ki, zalım yaxud adil olub-olmamasından asılı olmayan rəhbərlik, bu mövzu ilə bağlı Şiə məktəbində olan məsələ ilə fərqlənir. Cəmiyyət fasid olsa da belə hakimə ehtiyac vardır. Çünki, heç bir

1 “Fəthul Məcid”.
2 “Fəthul Məcid”.

hakimin olmadığı surətdə hərc-mərclik yaranar. Belə nizam-intizam isə qarma-qarışıqlıqdan yaxşıdır. Bu qanun şiənin nəzərindən cəmiyyətdə hökumətin zəruriliyinin isbatı üçündür.

## Şiənin hakimlərə və ulul əmrə itaəti haqqında düşüncələri

Şiə əqidəsinə əsasən:

"أطِيعوا الله و أطيعوا الرسول و أولِي الأمر منكم"[1]

"إِنَّمَا وَلِيُّكُمُ الله وَ رَسُولُهُ وَالَّذِينَ آمَنُوا الَّذِينَ يُقِيمُونَ الصَّلوة و يؤْتُونَ الزَّكوةَ و هُمْ رَاكِعون"[2]

Bu iki ayənin bir-biri ilə mənəvi əlaqələri vardır. Belə ki, ikinci ayə birinci ayəni izah edir. İlk ayədə Allah, Onun rəsuluna, rəsulun olmadığı halda isə öz aranızda olan rəhbərlərə itaət etmək əmr olunur. Lakin burada rəhbərin adil olması şərt deyil. Əslində ayə mütləq və qeydsiz olub, fasiq və adil rəhbərlərə şamil olunur. Sonrakı ayədə buyurur: İlk növbədə Allah və Onun rəsulu sizin rəhbərinizdir. Rəsul olmazsa, namaz qılıb, zəkat verən və ... şəxslər rəhbər ola bilərlər.

“Usul kafi” kitabında Hüseyn bin Əbil Əla rəvayət edir:

"قلت لأبي عبد الله: الأحياء طاعتهم مفترضه؟

1 Nisa (4), 59-cu ayə.

2 Maidə (5), 55-ci ayə.

قال: نعم، هم الذين قال الله عزّ و جلّ: " أطِيعوا الله و أطيعوا الرسول و أولِي الأمر منكم" و هم الذين قال الله عزّ و جلّ "إِنَّمَا وَلِيُّكُمُ الله وَ رَسُولُهُ وَالَّذِينَ آمَنُوا الَّذِينَ يُقِيمُونَ الصَّلوة و يؤْتُونَ الزَّكوةَ و هُمْ رَاكِعون"[1]

"İmam Sadiqə (ə) dedim: Həyatda olan əmirlərə itaət etmək vacibdir? Həzrət buyurdu: Bəli, onlar Allah Taalanın onların barəsində belə buyurduqları şərtlərdir: Allah və Onun rəsulu sizin vəliniz və rəhbərinizdir. Ondan sonra isə iman gətirib, namaz qılıb, zəkat verənlərdir".

Yuxarıdakı rəvayət iki ayənin arasındakı rabitəni bəyan edir. İkinci ayə Əli (ə) haqqında nazil olmuşdur. Bu ayəni açıqlasaq qalan Əhl Beytə (ə) də aid olar. Rəhbərlik üçün Məsum İmamlardan (ə) sonra islami şərtlərlə İmamları (ə) əvəz edən qəyyumları nümunə göstərmək olar. Məsələn, Vəliyyi fəqih ulul əmrin bir nümunəsidir. Bu ayənin nazil olma tarixi inkar edilərsə, hakimlər üçün ən azı iman, namaz, zəkat kimi şərtləri qarşıya qoyulmuşdur. Bu şərtləri sözün əsl mənasında riayət edən hər bir hakimin azğın və fasiq hakim olması qeyri-mümkündür.

### Peyğəmbərin vəfatından sonra ilk ulul əmr və onun (s) səhabələrinin üstünlük meyarı

Sünnü-şiə qardaşları arasında keçmiş mübahisələrdən biri Peyğəmbərin (s) vəfatından sonra ilk əmr sahibinin kimliyinin müəyyən olunmasıdır. Vahabi firqəsinin də özünü bu qalmaqala daxil etməklə

1 "Usul Kafi", 1-ci cild, səh. 269, 16-cı cild, səh. 264 və 6-cı cild.

meydanı qızışdırmaları təbii bir haldır. Biz həmişə bunun bir məzhəb məsələsi kimi yalnız sünnü və şiə arasında olmasını deyir və deyəcəyik. Heç bir xarici yaxud daxili qüvvənin bu mövzuya dəxalət etməməlidir. Müsəlmanlar bu işə biganə və əldəqayırma firqələrin dəxalət etməsinə icazə verməyəcəklər. Əcnəbilərin sui-istifadə etməməsi üçün bu söhbətlərin dostcasına qurulmuş, islami qardaşlıqla dolu bir mühitdə keçirilməsi gərəkdir.

Şiə Peyğəmbərin (s) vəfatından sonra əmr sahibinin Əli ibn Əbi Talibin olduğunu söyləyir. Ancaq Sünnü qardaşlar Qədir Xumda Əlinin xəlifə təyin edilməsi, "Mövlası olduğum hər kəsin mövlası Əlidir" deyə Peyğəmbərin vəsiyyətini və Quranda, rəvayətlərdə və digər yerdə olan tarixi şahidləri nəzərə almamaqla səhabələrin rəhbərlik səlahiyyəti fikrini irəli yürütmüşlər. Daha sonra isə kimin kimdən üstün olması məsələsini müzakirəyə qoymuşlar. İbn Hənbəl deyir: "Səhabə bir il, yaxud bir ay, yaxud bir an belə Peyğəmbəri dərk etmiş (görmüş) şəxslərdir. Lakin onlar rütbə, dərəcə, üstünlük, fəzilətlilik baxımından fərqlənirlər. Birinci qrup: Əbu Bəkr, Ömər və Osmandır. Ikinci qrup: Bu tərtiblə şura səhabələridir: Əli, Zübeyr, Təlhə, Əbdür Rəhman bin Ovf və Səid bin Vəqqasdır. Bu şəxslərin hamısı sadalanan tərtiblə xilafət və imamətə layiqli şəxslərdir. Üçüncü qrup: Bədr əhlidir. Üstünlük tərtibi ilə bu şəxslərdir: Əvvəl mühacirlər, sonra isə (köməkçilər) ənsar. Amma adı çəkilməyən - Müaviyə, Əmr bin As və Əbu Musa Əşəri kimi - şəxslər haqqında

Qurani Kərim barəsində ümumi surətdə tərif və qədirdanlıq etmişdir. Çünkü, bu şəxslərin alınlarında səcdə dağı var idi. Quran belə buyurur:

"سيماهم في وجوههم من أثر السّجود"[1][2]

Əhməd bin Hənbəlin nəql etdiyi cümlədə İbn Mülcəmin də adı çəkilməsi lazım idi. Çünki onun da alnında səcdə qabarı var idi.

Özlərini sünnü-şiə münaqişələrinə daxil edən vahabilər səhabələrin fəzilət baxımından üstünlük meyarlarını təqdim etmişlər:

"Əbu Bəkr dörd dəlilə əsasən digərlərindən üstündür: Fəzilətli, hamıdan əvvəl iman gətirdiyi üçün Peyğəmbər onu hamıdan üstün hesab etmişdir. Buna görə də səhabə onu səsvermə yolu ilə xəlifəlik məqamına seçmişdir. Ancaq Ömər iki xüsusiyyətə görə digərlərindən üstündür: Fəziləti və Əbu Bəkr tərəfindən təyin olunması. Osman isə iki dəlilə əsasən Ömərdən sonra üstündür: Fəziləti və şuranın onu hamıdan üstün tutması. Osmandan sonra isə Əli də iki dəlilə əsasən üstünlük təşkil edir: Fəziləti və icma (toplum) tərəfindən seçilməsi".[3]

Qədir Xum macərası, Peyğəmbərin vəsiyyəti, Əlinin (ə) haqqında nazil olmuş ayələr, onun haqlı olduğunu sübut edən Quran ayələri, rəvayət və tarixi şahidləri nəzərə almasaq belə bir sual meydana çıxır:

---

1 Fəth (48), 29-cu ayə.

2 Əhməd bin Hənbəl, səh. 148-ə müraciət edin.

3 "Əl Əsilə vəl əcvibə", səh. 301-ə müraciət edin.

Insanların üstünlüyünü təyin edən islamın həqiqi meyarı nədir? Quran ayələrindən alınan məlumat bu suala belə cavab verir:

Birinci, imandır.

"السَّابقون السّابقون * اولئك الْمُقَرَّبونَ"[1]

Ikinci cihaddır.

"فَضَّلَ اللهُ الْمُجَاهِدِينَ عَلَى الْقَاعِدِينَ أَجْراً عَظِيماً"[2]

Üçüncü, elm və bilikdir.

"هل يستوى الذين يعلمون و الذين لا يعلمون"[3]

Dördüncü, təqvadır.

"إِنَّ أَكْرَمَكُمْ عِنْدَاللهِ أَتْقاكُمْ"[4]

Eləcə də digər meyarların bu meyarlarla tamamlanması mümkündür. Burada müqayisənin əsas meyarı bunlardır. Islamın birinci əsrində baş vermiş hadisələri meyar şəklinə salıb, sonra isə keçmişdəki hadisələr üçün bəhanələr gətirmək deyildir.

Allah Peyğəmbərinin səhabələri, xüsusilə, Bədr əhli, Rizvan və Şəcərə beyətləri, Ühüd səhabələri və .... hamısının ehtiramlı şəxslər olması təbiidir. Çünki, Peyğəmbəri dəstəkləyib ona kömək edənlər bu şəxslər idilər. Lakin bu ehtiramla belə haqqın örtülü saxlanması da düzgün deyil.

Imam Səccad (ə) Peyğəmbərin bütün səhabələrinə salam göndərərək belə dua edir:

---

1 Vaqiə (56), 10-11-ci ayələr.

2 Nisa (4), 95-ci ayə.

3 Zümər (39), 9-cu ayə.

4 Hucərat (49), 13-cü ayə.

"اللَّهمَّ و أَوصل إلى التابعين لهم بإحسان الذين يقولون ربنا اغفر لنا و لإخواننا الَّذين سبقونا بالإيمان خير جزائك"

Bəli, İmam Səccad buyurur: “Pərvərdigara, tabe olanlara və səhabələrə ən yaxşı xeyirləri əta et”.

Digər yerdə səhabələrə, onlara tabe olanlara, övliyalarına və qadınlarına belə dua edərək buyurur:

"اللّٰهُمَّ وَصَلِّ عَلَى التَّابِعِينَ مِنْ يومنا هذا إلى يوم الدين و على أزواجهم و على ذريّاتهم و على مَن أَطاعك منهم"[1]

Qurani Kərim ilk mühacirlər və ənsarı tərifləyərək buyurur:

"والسَّابِقُونَ الأَوَّلُونَ مِنَ الْمُهَاجِرِينَ وَالأَنْصَارِ وَالَّذِينَ اتَّبَعُوهُمْ بِإِحِسَانٍ رَضِيَ اللهُ عَنْهُمْ وَرَضُوا عَنْه..."[2]

“Allah ilk mühacirlər, ənsar və xeyir işlərdə onların davamçıları olan şəxslərdən razıdır və onlar da Allahdan razıdırlar”.

Bu şərif ayədə iki önəmli məsələ vardır:

Peyğəmbərin “xeyir işlərin davamçıları” cümləsi Allah Peyğəmbərinin yaxşı tabe olan səhabələrdən razı qalması, Onun gözəl tabeçi və səhabələri bağışladığı mənasını daşıyır. Peyğəmbərin vəfatından sonra isə onun vəsiyyəti əsasında öz tabeçiliklərini qoruyub saxlamışlar. Məsələn, Salman, Əbuzər və s... kimi. Onlar faktiki surətdə o həzrətin qoyduğu yolla addımlamışlar. Beləliklə, həyatı zamanı Peyğəmbərə tabe olub, ölümündən sonra onun məram və dilindən üz döndərmiş, öz tabeçiliklərini onun vəsiyyəti əsnasında

1 “Səhifeyi kamileyi Səccadiyyə”, 4-cü Dua.

2 Tövbə (9), 100-cü ayə.

mühafizə etməyən şəxslər Haqq həzrətlərinin razılığına necə nail ola bilərlər?

Ikinci məsələ budur ki, ayənin zahirindən ənsar və mühacirlərə tabeçiliyin ömrün sonuna qədər təminatlı olması düşünülür. Lakin həqiqətdə nə bütün səhabə belə olub, nə də ki, şərif ayə belə zəmanəti vermişdir. Çünki, insan dəyişkən və qeyri-sabit bir varlıqdır. Beləliklə, İmam Səccad da tabe olunmaq şəraiti daşıyan səhabələrin xüsusiyyətləri haqqında söz açmışdır. Bu məsələ bəzi münafiqlərin sonradan səhabə olması, yaxud bəzi səhabələrin sonradan mürtəd olmasını biləndən sonra bizim üçün aydınlaşacaqdır.[1] Gəlin çox uzağa getməyək. Xilafətin qanuni və şəri olduğu zaman Ummul Möminin Aişənin xəlifə ilə mübarizəsinə nəzər salaq. Onun Quran ayəsi ilə müxalifət etməsinə aid olan bu rəvayət

"وَ قَرْنَ فِي بُيُوتِكُنَّ"

məşhur bir səhabə və rəvayətçinin böyük bir səhvinin aşkar nümunəsidir.

Bununla da Quran ayələrində Peyğəmbər səhabələrinin xüsusiyyəti haqqında məlumat verilirsə, məsələn, yuxarıdakı ayədəki kimi, bu xüsusiyyətlər şərtlərlə qeyd edilir. Buna misal olaraq Peyğəmbərin dilindən nəql olunmuş rəvayətə istinad edirik:

"لا يدخل النار أحد بايع تحت الشجرة و كانوا أكثر من ألفِ و أربعمأة"[2]

1 "Məalimul mədrəsətəyn", 1-ci cild, səh. 98.
2 "Məalimul mədrəsətəyn", 1-ci cild, səh. 98.

“Ağac altında beyət edən səhabələrin heç biri Cəhənnəm əhli deyildirər. Onların sayı 1400 nəfərdən çox idi”.

Lakin Qurani Kərim elə həmən səhabələr haqqında buyurur:

"لقَدْ رَضِيَ اللهُ عَنِ الْمؤْمِنِينَ إذ يبايُعونَكَ تَحْتَ الشَّجَرَةَ..."[1]

“Həqiqətən Allah o ağacın altında sənə beyət edən möminlərdən razı qaldı”.

Bu ayədə beyət edənlər üçün möminlik qeydi (yəni mömin beyətçilər bunu göstərir ki) Allahın razılığı, yaxud beyətçilərin atəşə daxil olmamaları beyət günü mömin olanlara aiddir. Belə ki, beyət günü münafiq yaxud mömin olmayanlara, eləcə də beyətdən sonra imanlarından üz çevirənlərə şamil deyildir.

Deyilənlərə əsasən, Əlinin (ə) xilafət məsələsində haqlı olduğunu rədd etmək üçün səhabələrin qeydsiz surətdə və onların əməllərinin höccət olduğunu söyləmək Quran, rəvayət və tarixi şahidlərə istinadla nöqsanlar, İbn Hənbəl kimi şəxslərin söylədiyi kimi, bütün səhabələri tərifəlayiqdirlər və heç bir istisna olunmayıb səhabələrə ihanət edən hər şəxs, Rafizidir.[2]

Vahabilər Peyğəmbərin səhabələrinə lənət deməyin düzgün olmadığını deyirlər. Çünki, Peyğəmbər onlar haqqında: Mənim səhabələrim ən yaxşı adamlardır. Müaviyə, Əmr bin As, Əbu Musa Əşəri, Əbu Hüreyrə,

1 Fəth (48), 18-ci ayə.

2 İbn Hənbəl, səh. 147.

Təlhə, Zübeyr, Osman, Əli, Əbu Bəkr və Aişəyə lənət deyən hər şəxsin cəzası qətldir - qətldən az deyildir”.[1]

Peyğəmbərin buyurduğu sözün əsli düzgündür. Lakin gətirilən nümunələrə arxalanaraq, bir neçə gün və yaxud bir neçə an peyğəmbərlə bir yerdə olan hər bir zalım ya fasidi ehtiram edilən səhabələrin siyahısına salmaq olmaz.

Islam etikası və ədəb qanunları hökm edir ki, şiə olub-olmamasından asılı olmayaraq mömin insanın, xüsusilə Peyğəmbərin səhabələri və qadınları haqqında nalayiq sözlər danışıb qəbahətlər söyləməkdən çəkinmələri lazımdır.

## *Imam Əlinin vəzirliyi*

Əbu Bəkrin imaməti ilə qılınan namazda Imam Əlinin iştirakı, Ömərin vəzirliyi vəzifəsini qəbul etməsini o həzrətin xəlifələrin xilafətini təsdiqlədiyinə dəlil kimi qələmə verirlər. Deyirlər ki, Ömər Əbu Bəkrin, Əli (ə) isə Ömərin vəziri idi. Sonda isə Ömər Əli və Fatimənin kürəkəni oldu və Əlinin qızı Ummu Külsümlə nikah bağladı.

Şiənin mötəbər kitablarında Ömərin kimin kürəkəni olduğu haqda heç bir məlumat yoxdur. Çünki, Ummu Külsüm hicri qəməri tarixinin 6-cı ilində dünyaya gəlmiş və 61-ci ilində vəfat etmişdir. Onun qəbri Şam şəhərinin Babus Səğir məkanındadır. Rəvayətlərdə Ummu Külsümün həyat yoldaşı və övladları haqqında bir söz

---

1 “Əl Əsilə vəl əcvibə”, səh. 305.

deyilməmişdir. Amma bacısı Zeynəbin (s) övladları haqqında nəql olunmuşdur. Zeynəblə Ummu Külsümün bir il yaş fərqləri var idi. Əlbəttə, bəzi yazıçılar Ummu Külsümün elə Zeynəb (s) olduğunu da iddia etmişlər.

Əlinin (ə) vəzirliyi haqqında onun məsləhətçi və yol göstərici həddində ikinci xəlifə ilə həmkarlıq etdiyi İslami mənbələrində təsdiqləyən materiallar mövcuddur.

Belə ki, Ömər yetmiş dəfədən çox:

"لو لا علی هلك عمر"

"Əli olmasaydı, Ömər məhv olardı" sözünü demişdir. Bu cümlə, şiə və sünnü mənbələrində dəfələrlə yazılmışdır.

Əlinin cəngavər olduğu, Peyğəmbərin həyatı zamanında baş vermiş müharibələrdə fəallığına baxmayaraq Ömərin İran, Roma və Beytul Müqəddəslə etdiyi müharibələrdə iştirak etmişdir. Eləcə də Əbu Bəkr, Ömər və Osmanın höküməti zamanı, islam ölkələrinin vali, fərmandar, nümayəndə və qazıya ehtiyacı olduğu halda Əli (ə) bu işlərin heç birinə təyin olunmamışdı. Çünki, onlar özləri bilirdilər ki, Əlinin (ə) ləyaqəti bu vəzifələrdən qat-qat üstündür. Ölkəni idarə etmək üçün onun məsləhətləri və göstərişlərinə ehtiyacları var idi. İmam (ə) da xilafətin onların haqqlı olmadığı səbəbinə, onların həvalə etdikləri məsuliyyəti qəbul etmirdi. Lakin İslam ictimaiyyətinin məsləhəti, camaatın zərəri ilə nəticələnən qalmaqal, qarışıqlıq və yersiz qəzavətlərin

qarşısını almaq üçün onlarla məsləhətləşir və yol göstərirdi.

Əbu Bəkr, yaxud Ömərin imaməti ilə qılınan camaat namazlarında iştirak etməsi onların xilafətlərinin haqlı olduqlarını demək deyildir. O, əslində müsəlmanlar arasında vəhdət yaradıb cəmiyyəti nifaq və ayrılıqdan çəkindirmək istəyirdi. Əlbəttə, fiqhi nöqteyi-nəzərindən İmamın (ə) onlara iqtida etməsi məsələsi üçün dəlillər vardır. Ancaq bütün bunların hamısı bu xəlifələrin xəlifəliyinin haqlı olduğunu sübut etmir. Çünki, İmam (ə) həmişə açıq-aşkar surətdə şəri xilafəti yalnız öz haqqı bilirdi.

Əgər Ömər Əbu Bəkrin xilafəti dövründə vəzir olduğuna görə xəlifə ola bilirsə, Əlinin (ə) başqalarından üstünlüyü təbiidir. Çünki, o izzətli şəxsiyyət Peyğəmbərin (s) həyatı zamanı Rəsulullahın (s) vəziri olmuşdur.

Əhməd bin Hənbəlin "Müsnəd"ində sünnə əhlinin mötəbər mənbələrinə əsasən, Allah Rəsulunun (s) belə buyurduğu nəql olunur:

"اللَّهُمَّ إِنِّى أَقُولُ كَمَا قَالَ أَخِى مُوسَى: اجْعَلْ لِى وَزِيرا من أَهْلِى علِياً"

"Pərvərdigara, mən qardaşım Musanın dediyi sözləri deyirəm: Mənim üçün mənim ailə üzvlərinmdən olan Əlini vəzir seç".